# Ramiz Dəniz

## Braziliyanın müəmmalı kəşfi



Bakı-2014

**Ön söz: AMEA-nın həqiqi üzvü, akademik Ramiz Məmmədov**
**Elmi redaktor: Tarix elmlər doktoru, professor Abbas Seyidov**
**Rəyçilər: AMEA-nın müxbir üzvü, coğrafiya elmlər doktoru, professor Elbrus Əlizadə**
**Coğrafiya elmlər fəlsəfə doktoru Şamil Əzizov**
**Texnika elmlər fəlsəfə doktoru Nuğay Əliyev**
**Ramiz Dəniz. "Braziliyanın müəmmalı kəşfi".**
**"MM-S" müəssisəsi, Bakı -2014, 200 səh.**
**ISBN – 978-9952-8230-6-6**

***"Braziliyanın müəmmalı kəşfi"*** elmi-tədqiqat əsəri coğrafi kəşflər sahəsində mahiyyətinə görə diqqəti cəlb edəndir. Rəsmi olaraq Braziliya aprelin 22-i 1500-cü ildə Pedru Alvareş Kabral tərəfindən təsadüf nəticəsində kəşf edilibdir. Uzun illər apardığım araşdırmalardan aydın oldu ki, həmin əraziyə Pedru Kabraldan hələ 6 il əvvəl yəni, 1494-cü ildə Duarti Paşeku Pireyranın başçılığı ilə Portuqal kralı II Juanın göndərdiyi ekspedisiya yan alıbdır. Elə həmin ildə Roma papası VI Aleksandr Borcia verdiyi bulla ilə dünyanı, Portuqaliya ilə İspaniya arasında iki yerə bölür və Tordesilyas müqaviləsinə görə portuqallar indiki Braziliyaya yiyələnirlər. Həmin tarixi hadisədə təsiredici hal odur ki, portuqallar Roma papasının vasitəsilə ispanların nümayəndəsini aldatmağa müvəffəq olmuş və bu işdə Duarti Pireyranın səyahətinin nəticəsi mühüm rol oynamışdır.

Bir sözlə, qeyd etmək istəyirəm ki, adı çəkilən elmi əsər əldə olunan faktlara və fərziyyələrə görə, coğrafi kəşflər tarixi sahəsində çalışan hər bir mütəxəssis üçün lazımi mənbə ola bilər.

**D 4702060103**
**M 087-2014**

**© R.Dəniz 2014**

***Əsərin nəşr olunmasında mənə maddi və mənəvi yardım göstərdiyi üçün Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin rəhbərliyinə təşəkkür və minnətdarlığımı bildirirəm***

***Kitab Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin ayırdığı qrant hesabına "Partnyor Elmin İnkişafina Dəstək" İctimai Birliyinin sifarişi əsasında çap olunmuşdur***

## Ön söz

Orta əsrlər coğrafi kəşflər tarixi sahəsində çalışan alimlər indiyənə qədər Amerika qitəsinin kəşfi ilə bağlı bir sıra mühüm işlər görür və öz aktuallığını itirməyən həmin məsələyə aydınlıq gətirmək üçün yeni-yeni elmi-tədqiqat əsərlərini yaradırlar. Bu sahənin alimləri arasında daim fikir ayrılığı yaranır və ərsəyə gətirilən hər bir əsər coğrafiya elmi sahəsində xüsusi önəm daşıyır. Maraqlıdır ki, yazıçıtədqiqatçı, publisist Ramiz Dəniz tədqiqatları ilə yeni kəşflərə əl ataraq, alimləri düşündürən suallara cavab verməli olubdur:

Ədəbiyyat üzrə Prezident təqaüdçüsü olmuş, "Qızıl qələm" mükafatı laureatı, Ramiz Dəniz (Qasımov) eyni zamanda həm bədii ədəbiyyatın bir neçə janrında, həm də elmi əsərlər yazır.

***"Xristofor Kolumb, Nəsirəddin Tusi və Amerika qitəsinin həqiqi kəşfi"*** adlı əsərdə Xristofor Kolumbun birinci səyahəti (1492-1493) zamanı baş verən bir çox qaranlıq məqamlar, o cümlədən ekspedisiya vaxtı istifadə etdiyi naməlum xəritənin aqibətindən çox maraqlı faktları üzə çıxarır. Əsas məlumatlara əks olaraq, Ramiz Dəniz bildirir ki, Xristofor Kolumb elə birinci transatlantik

səyahətində hara getdiyini əvvəlcədən bilmiş və bu faktı dünya ictimaiyyətindən gizlətməyə müvəffəq olmuşdu. Bunun özü yenilik olduğundan güclü iddia sayılır. Əsərdə portuqalların Amerikanın axtarışı üçün Atlantikanın qərb hissəsinə göndərdikləri üç ekspedisiyanın nəyə görə uğursuzluqla üzləşməsinin əsl səbəbləri açıqlanr. Müəllif İspan monarxlarının uzaqgörənliyini, Portuqal kralının inamsızlığını göstərməklə sübut edir ki, həmin ərazilərin ispan taxt-tacına keçməsində Lissabonda fəaliyyət göstərmiş **"Riyaziyyatçılar Xuntası"**nın mühüm rolu olubdur.

***"Əsrləri qabaqlamış alim – Nəsirəddin Tusi"*** adlı əsərində Azərbaycanın görkəmli alimi Nəsirəddin Tusinin elmi fəaliyyətini tədqiq edən Ramiz Dəniz bu sahədə xeyli iş görmüş və alimin dünya elminə töhfə vermiş bir çox əsərlərinin dünyavi mahiyyətini açıqlayır.

Müəllif bütün səy və bacarığından istifadə edib nəinki Azərbaycanın, hətta Şərq dünyasının şöhrətli alimi sayılan Nəsirəddin Tusinin elmi xidmətlərini, elmi nailiyyətlərini araşdırmış və nəticədə bəlli olub ki, həqiqətən də alimin bir neçə əsəri başqa müəlliflər tərəfindən özününküləşdirilibdir.

Məlumdur ki, Nəsirəddin Tusi astronomiya, riyaziyyat, həndəsə, etika, ilə bağlı şah əsərlər yaradaraq, həmin

elmlərin inkişaf etdirilməsində mühüm rol oynamış və bu sahələr üzrə tanınmış alimləri bir neçə yüz il qabaqlamışdır. Müəllif əsərdə Antik dövrün ən məşhur – yunan, Qədim Roma, Bizans, Misir və erkən orta əsrlərdə tanınmış müsəlman alimlərinin coğrafiya, astronomiya, riyaziyyat sahəsi ilə bağlı birlikdə gördükləri elmi işləri yada salmış və Tusinin təkbaşına adı çəkilən elmlərdə böyük uğur qazanmasını qeyd edərək, onun dahiliyini önə çəkməyə çalışıbdır.

Amerikanın kəşf edilməsində alimin yazdığı ***"Zic Elxani"*** astronomik cədvəlindən istifadə olunması diqqəti cəlb edir. Ondan həm tanınmış astronom Paolo Toskanelli, həm də Xristofor Kolumb bəhrələnmişdilər. Bir çox alimlər astronomik kataloqlar yaradarkən, Nəsirəddin Tusinin həmin əsərindən istifadə etmiş, rus alimi Lobaçevski və digər həndəsəşünaslar ***"Təhrir Öqlidis"***dən bəhrələnmiş, ***"Şəklül gita"***-nın bir nüsxəsini isə alman alimi Regimontan öz adı ilə çıxarıbdır. İ. Nyutonun müəllimlərindən biri olan Con Vallis ***"Təhrir Öqlidis"***in əsasında Oksford universitetində mühazirələr oxumaqla, Tusinin İngiltərədə tanınmasında mühüm rol oynamışdır. Elə Nikolay Kopernik də ***"Göy sferasının fırlanması"*** adlı əsərini işləyərkən, bizim alimin ***"Astronomiya xatirələri"*** əsərindəki "birinin diametri o birinin diametrinin

yarısına bərabər iki dairə bir müstəvi üzərindədir" teoremindən istifadə etmişdir.

Diqqəti cəlb edən məqam odur ki, dünyanın bir çox elm ocaqlarında tədqiq olunan, türk admiralı Piri Rəisin guya 1513-cü ildə tərtib etdiyi xəritənin əsl sahibinin kim olduğunun araşdırılmasıdır. ABŞ alimi Çarlz Hepqud 7 illik tədqiqatdan sonra xəritəni tərtib edənlərin sferik triqonometriyadan hali olmasını bildirmişdi. Sferik triqonometriyanın mükəmməl bilicisi isə N. Tusidir.

Müəllifin gəldiyi qənaətə görə qədim manuskriptlərdən hazırlanan həmin xəritə Tusinin rəhbərliyi altında Marağa rəsədxanasında tərtib edilibdir. Bundan əlavə o, bildiribdir ki, həmin xəritənin köməyi ilə Kolumb Yeni Dünya sahillərinə üzmüş və sonradan həmin material səyyahın qeydləri ilə birlikdə Piri Rəisin əlinə keçibdir. Bir sözlə, Amerika qitəsinin kəşfi Kolumbun səyahətinə 200 il qalmış, nəzəri cəhətcə Azərbaycanda kəşf edilmiş və dünya alimlərinin bu məsələyə xüsusi diqqət yetirməsi müəllifin məqsədidir.

***"Braziliyanın müəmmalı kəşfi"*** əsəri coğrafi kəşflər alimlərini tərəddüd qarşısında saxlayan bir mövzunu əhatə edir və müəllif sübuta yetirməyə çalışır ki, hamının iddia etdiyi kimi Braziliya 1500-cü il aprelin 22-də Pedru Kabral tərəfindən təsadüf nəticəsində deyil, 1494-cü ildə

Duarti Pireyra tərəfindən portuqal kralı ilə əldə olunan gizlin razılaşmaya əsasən kəşf edilmişdi, lakin müəyyən səbəblərə görə həmin səyahətin nəticəsi məxfi saxlanmışdır. Məhz bu əsərdə göstərilir ki, ispanlar ilk olaraq Cənubi Amerika qitəsinə, o cümlədən Braziliya sahillərinə yan alsalar da, portuqallar Roma papasının vasitəsilə ispanları aldatmağa müvəffəq olmuş və 1494-cü ildəki Tordesilyas müqaviləsinə əsasən indiki Braziliyanın sahibinə çevirilmişdilər. 1493-cü ildə portuqallar Azör adalarından 100 liq qərb tərəfdə yerləşən torpaqlara sahib olmağa dair razılıqlarını bildirsələr də, bir ildən sonra, Duarti Paşekunun Amerika sahillərinə yollanan məxfi ekspedisiyanın əldə etdiyi nəticəyə əsasən, İspaniya ilə Portuqaliya arasında sərhədi bildirən demarkasion xətti birdən-birə daha 270 liq qərbə çəkməklə, nəhəng ərazini mənimsəyirlər.

Zəngin tarixi faktlarla, o cümlədən indiyənə kimi heç bir elmi mənbədə göstərilməyən bəzi faktlarla bol olan material şübhəsiz ki, dünya alimlərinin marağına səbəb olacaq və bu kəşfə xüsusi önəm veriləcək. Çox güman ki, Portuqaliya, İspaniya, Amerika qitəsinə daxil olan ölkələrdə əsərin müzakirəsi baş tutacaq və Braziliyanın kəşfinə yeni prizmadan baxılacaq, obyektiv qərar nəticəsində isə dünya ensiklopediyasında düzəlişlər olacaq.

Mahiyyətinə görə həmin əsərlər nəinki Azərbaycandakı, həmçinin xarici ölkələrdə yaşayan, şərq və qərb alimlərinin, o cümlədən, Nəsirəddin Tusinin elmi-bədii irsi ilə maraqlanan, X. Kolumb, Pedru Kabralın səyahətlərinin sirlərinə biganə qalmayan, Amerikanın kəşfinə dair illüziyalardan uzaq olmağa çalışan intellektual potensiala malik olan oxucuların diqqətinə səbəb ola bilər. Sensassion məlumatlarla zəngin olan əsərlər, mütləq şəkildə Amerika və Avropa alimlərini maraqlandıracaq və coğrafi kəşflər sahəsində araşdırmalar aparmaq üçün yeni kurs götürəcəklər. Yəni, bu sahəyə yeni prizmadan nəzər salınacaq və Ramiz Dənizin kitabları həmin sahədə çalışan alimlərə bələdçilik edəcək. Ona görə ki, həm Amerika qitəsinin, həm də ayrılıqda Braziliyanın kəşfi coğrafi kəşflər tarixi istiqamətində ən çox tədqiq olunan sahədir və bu mövzunun daha dərindən tədqiq olunması üçün adı çəkilən əsərlər əlverişli mənbə sayılacaq.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, hər üç əsər Azərbaycandan dünya coğrafiya elminə olan böyük hədiyyədir və möhtəşəm, adlı-sanlı coğrafi universitetlər və birliklər etiraf edəcəklər ki, coğrafi kəşflər tarixi qədim tarixi kökə və zəngin mədəniyyətə malik olan

Azərbaycanda da araşdırılır və bu sahədə çalışan alimlərə öz köməyini əsirgəmir.

Məlumat üçün bildirməliyəm ki, Azərbaycanda coğrafiyanın bu sahəsi ilə məşğul olan hansısa bir tədqiqatçı olmayıbdır və hazırda da yoxdur. Ramiz Dəniz həmin sahənin pioneridir və əminəm ki, bundan sonra onun əsərləri beynəlxalq coğrafi institutlarda, tədqiqat mərkəzlərində Y. Svet, C. Beyker, C. Beykless, M. Andre, Ç. Verlinden, İ. Magidoviç, V. Magidoviç, V. Qulyayev, S. Morison, S. Sveyqin və başqa tədqiqatçıların əsərləri ilə birlikdə tədqiq ediləcək.

Ramiz Məmmədov AMEA-nın həqiqi üzvü,
Akademik AMEA-nın Həsən Əliyev adına
Coğrafiya İnstitutunun direktoru

# Braziliyanın müəmmalı kəşfi



## Pedru Alvareş Kabral və Atlantik okeanında hegemonluğunu nümayiş etdirən Portuqal krallığı

Atlantik okeanındakı quru ərazilərin əksəriyyətinə sahib çıxmaq istəyən Portuqal krallığı mütəmadi olaraq həmin su hövzəsinə çoxsaylı dəniz ekspedisiyaları təşkil edirdi. Krallığın ərazisində fəaliyyət göstərən əcnəbi casusları azdırmaqdan ötrü, həmin ekspedisiyaların bir çoxu, məxfi qrif altında verilən tapşırıqları yerinə yetirirdilər. Nəticədə, bir neçə tarixi əhəmiyyətli kəşflərin əsl banisinin adı dünya ictimaiyyətindən gizlin saxlanıldı və tarixə tamamilə təsadüf adamların adı düşdü. Lakin elə avantüristlər də var idi ki, onlar fürsətdən istifadə edərək, həmin yaddaqalan uğurları özününküləşdirməyə nail oldular. Bəzən də elə olurdu ki, məcburi olaraq ölkə başçısının verdiyi xüsusi tapşırığa əsasən, dünya əhəmiyyətli kəşf hər hansı bir kəsin adına yazılır. Belə bir ədalətsiz missiyalardan biri potuqal dəniz səyyahı Pedru Alvareş Kabralın öhdəsinə düşmüşdü.

XV əsrin son ili coğrafi kəşflər tarixi yeni avantüra ilə üzləşir. Cənub, cənub-şərq istiqaməti ilə hərəkət edən böyük bir donanma (zəmanəsinə görə səyahətə çıxan 13

(10 nau, 3 karavella) gəmidən ibarət olan ekspedisiya (1500 nəfərlik heyət) böyük donanmalardan biri sayılırdı) okeanda yolunu azaraq, qərb istiqamətində üzmüş və "təsadüf" nəticəsində Braziliya sahillərinə yan alır. Əlbəttə, bu absurd bir fikirdir. Qeyd etmək istəyirəm ki, ona qədər artıq Xristofor Kolumb Yeni Dünya sahillərini kəşf etmiş və hamı onun yanlış fikirdə olduğunu zənn edir. Çünki birmənalı şəkildə bildirilir ki, Kolumb kəşf etdiyi torpaqların Şərqi Asiyanın ərazisi olduğunu bəyan etmişdi. Nəticədə isə dünya miqyaslı kəşfin nailiyyətini Ameriqo Vespuççi kimi bir avantürist özününküləşdirməyə nail olur. Bu barədə mən **"Yeni Dünya sahilləri və Ameriqo Vespuççinin hiyləsi"** əsərində ətraflı məlumat vermişəm.

Həqiqəti üzə çıxarmaq üçün XV əsrə qayıtmaq lazımdır. İlk növbədə ekspedisiyanın rəhbərinin kim olduğu və hansı nüfuza malik olduğunu aydınlaşdırmalıyıq. O, kimdir və necə olur ki, Atlantik okeanında ispan dənizçiləri ilə rəqabət aparan bir dövrdə, birdən-birə dövlət əhəmiyyətli bir kompaniyanın taleyi onun ixtiyarına verilir? Ən maraqlı isə odur ki, marşrut bir istiqamətə tuşlansa da, təyinat iki cür olur. İş ondadır ki, Kabral həmin işin öhdəsindən çox bacarıqla gəlir, o da təcrübəli

heyətin sayəsində. Belə bir uğurla hər bir komandor öyünə bilərdi.

Zəmanəsinə görə iri ekspedisiyanın komandoru təyin olunan Pedru Alvareş Kabralın (1467-1520) bir önəmli fiqur kimi tərcümeyi-halı çox maraqlıdır.

1467-ci ildə Belmonte qəsrində, çox güman ki, zadəgan nəslində anadan olan gələcək komandor ailə ənənəsinə görə kralın sarayında xidmətə daxil olur. Onun atası Beyranın qubernatoru Fernao Kabral, anası isə İzabell Huveya idi. 11 yaşında Pedru Huveya (yalnız böyük qardaşının ölümündən sonra o, atasının soyadını götürür) Lissabona köçür və orada ədəbiyyatı, tarixi, kosmoqrafiyanı, hərbi intizamı öyrənir. I Manuel (1469-1521) Portuqaliyanın kralı (1495-1521) olan kimi Kabralı kral şurasına üzv seçir və həmin il Xaç Ordeninə daxil edirlər. Həmin dövrdə elə nailiyyətlər hər zadəgana nəsib olmurdu. İş ondadır ki, böyük nüfuza malik olan Vasko da Qama I Manuelə onu enerjili, çevik və bacarıqlı inzibatçı kimi təqdim edir.

Bəzi sənədlərə əsasən, Kabral zadəganların əhatəsində yalnız Şimali Afrikada olmuş və demək olar ki, dənizçilik işində heç bir təcrübəsi yox idi. Lakin buna baxmayaraq həmin dövrdə 13 gəmidən ibarət olan ən böyük ekspedisiyalardan biri məhz ona həvalə olunur. Hamının

təəccübünə səbəb olsa da onun başçılıq etdiyi ekspedisiyanın tərkibinə Bartolomeu Diaş, Nikolau Koelyo kimi tanınmış səyyahlar daxil olur və şəxsi tabeliyində olan Don Manuelə himayədarlıq edir. Kabralın valideynlərinin sosial mənsubiyyəti və gələcək həyat yoldaşı İzabell Kaştrunun (onların toyu komandorun Hindistan səfərindən sonra nəzərdə tutulmuşdu) atası Fernando de Noronyanın təqdimatlarına əsasən, ona belə bir mühüm vəzifə həvalə olunmuşdu.

Bu missiyadan böyük ümidlər gözləyən kral I Manuel limana gəlmiş və şəxsən özü ekspedisiyanın və Xaç bayraqlarını Kabrala verir. Əlbəttə ki, komandor üçün bundan böyük şöhrət ola bilməzdi. Kralın gəlişindən xəbərdar olan şəhər sakinlərin müəyyən hissəsi limana toplaşmışdı. Son zamanlar Lissabondan yeni torpaqlar kəşf etmək üçün bir neçə ekspedisiya səyahətə yollanmışdı. Lakin I Manueli burada görmək mümkün olmamışdı.

Bu dəfə portuqal monarxının bura gəlişi yola düşən ekspedisiyanın nə dərəcə əhəmiyyətli olmasından xəbər verirdi. İstər-istəməz Kabral ona yüksək səviyyədə bəslənən etimadı doğrultmalıydı.

Ekspedisiya iştirakçıları yola düşməmişdən şəhər yepiskopu Dioqu de Ortis dini ayin keçirərək, hamının xeyir-duasını verir.




***Portuqal kralı I Manuel (1469-1521)***

Gəmilər Lissabonu tərk edəndən beş gün sonra Kanar adalarının yanından ötür və martın 22-də Yaşıl Burun adalarına çatır. Martın 22-dən 23-nə keçən gecə Vasko de Ataidenin gəmisi yoxa çıxır. Məhz Yaşıl Burun adalarını arxada qoyandan sonra Kabral Vasko da Qamanın instruksiyası və Bartolomeu Diaşın məsləhəti ilə birbaşa

cənub istiqamətinə - Afrikanın Ümid burnuna kurs götürür. Lakin onlardan asılı olmayaraq donanma cənub-qərb istiqamətində hərəkət etməyə başlayır.

Səyahət zamanı portuqallar qəribə hadisə ilə üzləşirlər. Onlar Ümid burnu yerləşən enliklərinə xeyli məsafə qalmış, aprelin 22-də Atlantik okeanının qərb sahillərində yerləşən torpaq ərazisi (Baiya ştatındakı indiki Portu-Sequru şəhəri-nin ərazisi) ilə üzləşirlər.

Kabralın missiyası əsasən, Hindistanda olanların müqavimətini qırıb orada Portuqaliyanın təsirini möhkəmlətmək, mümkün olan dərəcədə ticarət əlaqələri yaratmaqdan ibarət idi. Çalışıb bütün bunları sülh və əmin-amanlıq şəraitində qurmaq lazım idi. Ona görə də bu səyahətə 1500-dən çox adam cəlb edilmişdi. Onlardan 1000 nəfərdən çoxu sırf döyüşçülər idi.

Kabralın başçılıq etdiyi ekspedisiyaya diqqət yetirsək görərik ki, onun heyətinə əvvəlki səyahətlərdə iştirak etmiş, zəmanəsinə görə həddindən artıq təcrübəli və bacarıqlı dənizçilər daxil olmuşdu. Losmanlar Afrikanın cənubunu kəşf etmiş Bartolomeu Diaş və Hindistana təşkil olunan birinci ekspedisiyanın iştirakçısı Nikolau Koelyo, səlnaməçisi Duarti Paşeku Pireyra idi. Hindistanla ticarət əlaqələrinin qurulması üçün ayrıca heyət vardı.

Səyahətdə iştirak edənlərin heyətinə nəzər yetirəndə görərik ki, ekspedisiyanın missiyası tədqiqat işləri üçün yox, siyasi-diplomatik və kommersiya xarakterlidir. Buna bariz nümunə heyətə daxil olan gəmilərin növləri (onların əksəriyyəti ticarət gəmiləri idi), xüsusən də kralın ticarət nümayəndəliyinin gəmisi idi ki, onlar Hindistanla yalnız ticarət əlaqələri qurmalıydılar. Onlara rəhbərlik edən Ayreş Korreyya kralın şəxsi nümayəndəsi sayılırdı və o, bütün səy və bacarığından istifadə edərək, Hindistanda Portuqaliyanın daimi ticarət nümayəndəliyini açmalıydı. Bunun üçün hətta müvafiq şəhər də seçilmişdi – avropalılar orada faktoriya yaratmalı və Ayreş Korreyya katib kimi fəaliyyət göstərməli idi.

Gəmilərin anbarlarına mis, məxmər, yun parçalar və başqa mallar yüklənmişdi. İl yarımlıq ərzaq ehtiyatı tədarük görülmüşdü. Hind knyazlıqları ilə əlaqə yaratmaq üçün kral katibinə Kalikut şəhərində Peru Vaş Kaminya, Vasko da Qamanın heyətində xidmət göstərmiş tərcüməçi ərəb Əl Məsud (Monsaydi), ekspedisiyanın həkimi, alim, bakalavr Juaniş, Enrike de Koimbranın (o, Kalikutda vikariy kimi fəaliyyət göstərəcəkdi) başçılığı altında səkkiz fransiskan rahibi və başqa dini işçilər təhkim olunurdu.

Ekspedisiya martın 9-u 1500-cü ildə Lissabon limanından yola düşür. Ümumiyyətlə, ekspedisiyanın tapşırığı nədən ibarət idi? Kabral Hindistana gedib, oradan qiymətli mallarla Portuqaliyaya qayıdacaq Vasko da Qamanın gəmilərinin təhlükəsizliyini təmin etməliydi.



***Vasko da Qama (1460 və ya 1469-1524)***

Plana əsasən, Kabral cənub kursu ilə $10^0$ ş. en dərəcəsinə kimi Afrikanın qərb sahil boyunca hərəkət etməli, ondan sonra isə açıq okeanda cənub-qərb istiqamətində yolunu davam etdirməliydi.

Ekspedisiyanın təhlükəsizliyini təmin etməkdən ötrü belə qərar verilmişdi ki, həm vaxta qənaət etmək, həm də Afrikanın Qvineya körfəzi sahilində fəaliyyət göstərən xoşagəlməz cərəyanlarla üzləşməmək üçün belə bir qəribə naviqasiya kursu seçilmişdi.

Aprelin 22-i 1500-cü ildə katolik Pasxası günü portuqallar Braziliya sahilini görürlər və bununla da Braziliyanın kəşfi rəsmiləşdirilir. Tarixə isə həmin kəşf "təsadüfən baş verən kəşf" kimi düşür. Maraqlıdır ki, Xristofor Kolumb da 1492-ci ildə dördüncü qitəni kəşf edən zaman, həmin ərazini Asiya qitəsi ilə səhv salmışdı.

Həqiqətən də dünya əhəmiyyətli kəşfləri həyata keçirən zaman təsadüflər baş verirdi, ya yox? Uzun araşdırmalardan sonra belə qənaətə gəldim ki, xüsusi missiya ilə yola düşən ekspedisiyalar kəşf zamanı təsadüflərlə üzləşirlər. Deməli, həmin ekspedisiyanın rəhbərləri yola düşən zaman, hər hansı torpağın kəşf edilməsində onlara xüsusi tapşırıqlar verilirdi ki, həmin ekspedisiyalar əsl missiyası məxfi sayılırdı.

Peru Vaş Kaminya kral I Manuelə yazdığı məktubda göstərir ki, *“aprelin 21-də Yaşıl Burun adalarının San-Nikolau adasından 660-670 liq aralıda olanda, sahilin yaxınlığını bildirən əlamətlərlə üzləşdik –* sarqass, sedum *və quşlar, aprelin 22-də isə biz torpaq gördük. Aprelin 23-də ekspedisiyanın bəzi iştirakçıları sahilə çıxır və həmin günü ilk dəfə yerli əhali ilə rastlaşırlar. Onların dərisi tünd rənglidir və tamamilə çılpaqdırlar: hətta eyib yerləri açıq qalmışdır. Əllərində oxla kaman vardı...”* Kaminyanın verdiyi məlumatlara əsasən, onlarla yerli əhali arasında heç bir ciddi münaqişə baş verməmişdi. Halbuki həm Visente Pinson, həm də Diyeqo Lepe Braziliya sahillərinə çıxanda yerli əhali ilə silahlı münaqişələr yaranmışdı. Lakin Kabralın ekspedisiyası belə çətinliklə üzləşməmişdi. Alınan məlumatlara əsasən, yerli əhali portuqallara ağac kəsməkdə köməklik göstərmişdilər. Buranın flora və faunası hamını heyrətə gətirir.

Maraqlı cəhət odur ki, yalnız 9 gündən sonra mayın 1-i cümə günü Kabral qərar verir ki, “kəşf” etdiyi torpaqda, üstündə Portuqal kralının şüarı və gerbi olan, taxtadan düzəldilmiş böyük xaç qoysunlar. Bu münasibətlə rahib Enrike de Koimbra yerli əhalinin iştirakı ilə dini ayin oxuyaraq hamıya xeyir-dua dilədi.

Elə həmin gün Kabral “kəşf” etdiyi torpaqlar barəsində məlumatı krala çatdırmaq üçün, Qaspar de Lemuşu gəmisi ilə birlikdə Lissabona göndərir. Məlumatda göstərilirdi ki, komandor həmin ərazini **Həqiqi Xaçın Adası (Vera Kruz)** adlandırır. Tarixi qaynaqlarda qeyd olunur ki, həmin xəbər I Manueli heyrətləndirmir, halbuki həmin “ada” Hindistana qərb istiqaməti ilə gedən yolda dayanacaq rolunu oynaya bilərdi. Bir müddətdən sonra kral həmin ərazinin adını dəyişib **“Santa-Kruz” (Müqəddəs Xaç)** adlandırır və bu haqda Avropanın digər monarxlarına xəbər göndərir.

Pinsonun və Lepenin ekspedisiyalarından fərqli olaraq, Kabral heyətinə daxil olan adamlardan bir neçəsini sahildə qoymağı məsləhət bilir. Onun əmrinə əsasən, iki sürgün olunmuş və fərarilik edən iki yunqa həmişəlik olaraq sahilə çıxarılır.

Mayın 2-si 1500-cü ildə Braziliya sahillərini 11 gəmidə tərk edən ekspedisiya, ilkin plana əsasən, Afrikanın cənubuna tərəf üz tutur və Ümid burnunu keçən zaman dörd gəmini itirir. Təəssüfləndirici hal o idi ki, həlak olanların arasında 1487-ci ildə Ümid burnunu avropalılar üçün kəşf etmiş Bartolomeu Diaş vardı, onun qardaşı Dyoqo Diaş isə Mozambik sahillərində o biri gəmilərdən aralı düşür. Kabral üçün itkin sayılan Dyoqu Diaş yolüstü

Afrikanın ən böyük adası Madaqaskarı kəşf edərək, sağ-salamat vətənə qayıdır.

Kabralın Atlantik okeanının qərb sahilində aşkarladığı böyük torpaq, təsadüfi kəşf yox, Portuqal krallığının XV əsrdə dünya ictimaiyyətinə təqdim etdiyi ən böyük yalandır. Ona görə ki, ekspedisiyanın hərəkət marşrutuna nəzər yetirəndə aydın başa düşmək olar ki, elə bir donanma ilə, elə bir heyətlə, elə bir təcrübəli şturman və kapitanlarla okeanda azıb, kor-koranə uzun müddət üzərək minlərlərlə kilometr məsafəni arxada qoymaq mümkün deyildi. Düzdür, həmin dövrdə Atlantik okeanı akvatoriyasında yerləşən bütün adalar Köhnə Dünyanın sakinlərinə məlum olmadığından, Kabral yalnız yaxınlıqda olan naməlum adaları kəşf edə bilərdi. Qeyd etmək lazımdır ki, ekspedisiyanın tərkibində həmin yolları kifayət qədər tanıyan Bartolomeu Diaş, Nikolau Koelyo və başqa peşəkar dənizçilər vardı. Həm də onu da bildirmək istəyirəm ki, Lissabondan çıxıb Hindistana gedən həmin dəniz yolunun marşrutunu məhz Bartolomeu Diaş və Portuqaliyada qalmış Vasko da Qama buyurmuşdular. Həmin marşrutdan isə hələ 3 il bundan əvvəl, yəni, 1497-ci ildə Hindistana yollanmış Vasko da Qama istifadə etmişdi. Təlimata əsasən, Kabral xoşagəlməz cərəyanların yanın-

dan ötərək, Afrikanın cənu-bunda yerləşən Fırtınalar burnuna yaxınlaşmadan Hind okeanına çıxmalı idi.

## Müəmmalarla dolu olan kəşf

Bir çox alimlər, hətta coğrafiya, coğrafi kəşflər tarixi və tarix elminin ən tanınmış alimləri, xüsusi əhəmiyyət kəsb edən müəyyən bir coğrafi kəşflə bağlı bir çox məqamları axıra qədər araşdırmadan, həmin kəşfi olduğu kimi qəbul etmiş və o, tarixin səhifələrinə "təsadüf nəticəsində baş verən kəşf" kimi düşür. Buna bariz nümunə Braziliyanın "təsadüfi" kəşfidir.

Onlar bunu onunla izah edirlər ki, $10^0$ ş. en dairəsindən $10^0$ c. en dairəsinə kimi qərb istiqamətində hərəkət edən iki güclü cərəyan və Şimal-şərq küləyi hökmranlıq edir. Belə olan halda həmin təbii qüvvənin təsiri ilə gəmilər qeyri-ixtiyari olaraq gedib Braziliya sahillərinə çıxa bilərdi. Vaxtilə Portuqaliyadan Afrikanın cənub ucqar nöqtəsinə kimi gedib çıxan Bartolomeu Diaşın orada olması ilə, əsas yoldan yayınmaq mümkün idi, ya yox? Əlbəttə mümkün deyildi! Ona görə ki, Atlantik okeanının

şərq sahillərinə kifayət qədər bələd olan Diaşın iştirakı ilə ölümə bərabər olan belə bir səhvə yol verilirsə, onda o, Lissabonu 10 min km. ayıran Ümid burnuna necə gedib çıxa bilərdi? Bu yerdə müəmmalı kəşflə bağlı sualların sayı xeyli sayda artır. Əsas suallardan biri odur ki, bəlkə Kabral portuqal kralı I Manuelin məxfi tapşırığı ilə həmin səhvə yol vermiş, yəni nəzərdə tutulan kursdan yayınmışdı?

Düzdür, "təsadüfi kəşf"i müdafiə edənlər, Pedru Kabralın cənuba doğru hərəkət edən zaman Atlantik okeanının ortasında üç güclü cərəyanın fəaliyyətdə olduğunu göstərirlər. Guya o, xəbəri olmadan həmin cərəyanların təsiri altına düşmüş və bixəbər şəkildə gedib Braziliya sahillərinə çıxmışdır. İlk növbədə, həmin cərəyanların harada və hansı istiqamətdə hərəkət ediyini göstərmək lazımdır.

Şimali-Passat şərqdən-qərbə, Ekvatorial Əkscərəyan qərbdən-şərqə, yenə də şərqdən-qərbə Cənubi-Passat cərəyanları hərəkət edir. Əlbəttə ki, burada şərqdən-qərbə doğru əsən Passat küləkələrini də qeyd etmək lazımdır. Lakin bütün bunlara baxmayaraq, alimlər bu amili - qərbə doğru hərəkət edən cərəyanları əsas tutub bəyan edirlər ki, Kabral okeanda yolunu azaraq, gedib istəmə-

diyi bir yerə çıxmışdı. Bəlkə o, əvvəlcədən nəzərdə tutmuşdu ki, gedib həmin yerə çıxmalıdır.

Kabral da olmasa, Duarti Paşeku Pireyra həmin işin öhdəsindən gəlməliydi.

Yola düşən zaman ekspedisiyanın başında təcrübəli dənizçi yox, təcrübəli və bacarıqlı inzibatçı lazım idi ki, komanda da ciddi nizam-intizam yaratsın və tabeliyində olan ən avtoritetli dənizçilər onun verdiyi tapşırıqları qeyd-şərtsiz yerinə yetirə bilsinlər. Soydaşları və həmkarları arasında kifayət qədər nüfuz qazanmış peşəkar dənizçilər isə başqa bir funksiyanın öhdəsindən gəlməliydilər. O da ki, kral I Manuelin verdiyi məxfi tapşırıq idi. Yəni, bu ekspedisiyanın heyəti nəyin bahasına olursa-olsun, Atlantik okeanının qərb sahillərində yerləşən portuqallara məlum olan, lakin dünya ictimaiyyətindən gizlin saxlanılan torpaqların varlığını rəsmiləşdirmək idi.

Yuxarıda qeyd etdiyim kimi Vasko da Qama hələ 1497-ci ildə Atlantik okeanında cənuba doğru üzərkən ekvator xəttinə çatmamış, marşrutdan yayınaraq, ekvatorial cərəyanının vasitəsilə təxminən 1000 km. sağ tərəfdə yerləşən Braziliyaya gedib çıxa bilərdi.

Hər şeyi ardıcıllıqla araşdırsaq, onda görərik ki, Pedro Kabralın kəşfində çoxlu qaranlıq məqamlar var. Ekspedisiya martın 22-də bir gəmi itkisi ilə, Yaşıl Burun adala-

rının mərkəzi adalarından biri olan San-Nikolaunu tərk edən kimi kursu birbaşa cənuba tutur. Ekvator xəttini keçən kimi onlar qərb istiqamətində hərəkəti davam etdirir və aprelin 22-də $17^0$ c. en dairəsində Braziliya sahillərinə yan alır. San-Nikolau adası təxminən $24^0$ qərb uzunluğunda, Braziliyanın Korumban burnu isə $39^0$ qərb uzunluğunda yerləşir. Belə başa düşmək olar ki, eskadra yolda olarkən, cənub ilə hərəkət etdiyi xətdən $15^0$ qərbə doğru uzaqlaşır. Bu isə Korumban burnunun yerləşdiyi enlikdə 1600 km. məsafə edir.

Naviqasiyanın inkişaf etdiyi bir dövrdə belə bir kobud səhvə yol vermək mümkün deyildi. Ən azı ona görə ki, portuqal dəniz səyyahları bir neçə il ərzində Afrikanın qərb sahillərini kəşf etmiş və bütün ərazinin xəritələrini tərtib edərək, Portuqaliyanın monarxına təhvil verirdilər. Kabralın missiyasını diqqət mərkəzində saxlayan ispan casusları və tanınmış şturman, losman, kaputan və naviqatorlar dəqiq bilirdilər ki, okeanda azaraq, 1600 kilometrlik məsafəni kor-koranə qət etmək absurddur. Ona görə ki, Cənubi-Passat cərəyanının hökm sürdüyü bir yerdə gəmilər birbaşa qərb istiqaməti ilə hərəkət ediblər. Buna isə yolda azmaq deyilmir. Portuqallar məqsədli şəkildə bir kursu nəzərdə tutub və həmin kurs ilə də səyahətlərini davam etdiriblər.



***Pedro Alvareş Kabral (1467-1520)***
***XIX əsrin əvvəlindəki qravüradan***

Kabralın "kəşf" etdiyi Paskual dağı (536 m.) Korumban burnundan qərbdə $17^0$ c. en dairəsində yerləşir, San-Nikolau adası isə $16^0\,37^/$ ş. en dairəsindədir.

İ. P. və V.İ. Magidoviçlər qeyd edirlər ki, *"deməli, gəmilər cənub istiqamətində hərəkət edərkən Paskual*

*dağının yerləşdiyin enliyə qədər $33^0 30'$ yol qət etməliydi, bu isə 3700 km-dən çox məsafə edir.*

*Peru Kaminyanın məlumatına əsasən, şturmanların verdikləri hesabatda onların 4000 km. yol qət etmələri göstərilir. Onda, Kabralın əvvəlcə $17^0$ c. en dairəsinə kimi cənub istiqamətində üzməsi, oradan isə kursu birbaşa qərbə döndərərək yolunu davam etdirməsi inandırıcı görünmür.*[1]

Bundan belə nəticə çıxarmaq olar ki, okean keçidi zamanı ekspedisiyaya Kabral yox, bilavasitə həmin marşrutu yaxşı tanıyan dənizçi başçılıq etmişdi. Əks təqdirdə səyahət vaxtı dənizçilər tərəddüd edərək, çətinliklərlə üzləşə bilərdilər. Çünki adəti üzrə uzun müddət torpaq görünməyəndə ekspedisiya iştirakçıları qiyam qaldırıb, admiral və kapitandan kursu dəyişməyi tələb edirlər.

Yaşıl Burun adalarının San-Nikolau adasından Korumban burnuna qədər təxminən (okeanlardakı cərəyanları törətdiyi maneələrlə birlikdə) 4000 km-lik məsafə var. Gəmilərin hərəkət marşrutunu müəyyən etdikdə, görərik ki, onlar yalnız cənub kursu ilə məsafələri qət

[1] И. П. Магидович, В. И. Магидович. Очерки по истории географических открытий, II том. Москва, “Просвещение”. 1982. стр. 54.

ediblər. Korumban burnunun yerləşdiyi enlikdə məsafə 1600 km-dir. Əgər gəmilər həmin enliyin yerləşdiyi ərazidə yollarını azıb, uzun müddət qərb istiqamətində hərəkət ediblərsə, bu inandırıcı görünmür. Ona görə ki, adi dənizçiləri demirəm, ən azı şturmanlar həmin yolu azmadan xəbər tutmalıydılar. Onların okeanda manevr etmək və oriyentiri tutmaq üçün kompasları vardı.

Kompas olduğu halda bu qədər məsafəni azmış şəkildə qət etmək absurd sayılır. Müəyyən mənada həmin dövrdə bu da mümkündür. Hava dumanlı və yaxud da küləkli olanda nəzərdə tutulan kursdan yayınmaq olar, o da ki, maksimum 300-400 km. uzun müddətli fırtınalı havada isə 500-700 km. Səyahət zamanı aparılan gündəlikdəki yazılardan məlum olur ki, ekspedisiya ekvator xəttini keçənə qədər portuqallar yolda elə də ciddi təbii fəsadlarla üzləşməyiblər. Deməli, müəyyənləşdirilmiş kursla münasib havada azmaq mümkün deyildi. Bundan belə nəticə çıxarmaq olar ki, portuqallar yolda azmamış və bilərəkdən əvvəlcədən müəyyən edilmiş kursla Braziliya sahillərinə gedərək, həmin "kəşfi" həyata keçirmişdilər. Deməli, təcrübəli şturmanların və naviqatorların olduğu donanmanın 1600 km. okeanda azması inandırıcı görünmür.




***Bartolomeu Diaş (1450-1500)***

Yuxarıda qeyd edildiyi kimi həmin ekspedisiyada Bartolomeu Diaş, Dioqu Diaş, Duarti Paşeku Pireyra kimi təcrübəli komandor və kapitanlar iştirak edirdi və həmin dənizçilər şəxsi təcrübələrini genişləndirmək üçün hər gün qət etdikləri yolu öz gündəliklərində qeyd edir, hansı kursla hərəkət etdiklərini diqqətlə izləyirdilər. Heç

kim də bilməsə, məhz onlar ekspedisiyanın əsas kursdan yayındığını hiss etməli və bu haqda Pedro Kabrala məlumat verməliydilər. Ekspedisiyanın gedişatı onu göstərir ki, komandoru belə bir səhv qane etmiş və o, okean keçidi zamanı marşrut kursunu köməkçilərinə həvalə etmişdi. Lakin buna baxmayaraq ekspedisiya əsas kursdan yayınmış və uzun müddət başqa bir istiqamətdə hərəkət etmişdi. Bu isə inanılası deyil.

Şübhələri aradan qaldırmaq üçün mühüm məsələyə toxunmaq lazımdır. İş ondadır ki, ekspedisiya Yaşıl Burun adalarından uzaqlaşandan bir neçə gün sonra yolda azmışdı. Lakin portuqallar mayın 2-də "kəşf" olunan "Vera-Kruş" torpağını tərk edəndən sonra, kursu birbaşa, Afrikanın cənubunda yerləşən Ümid burnuna tutur və çox qəribədir ki, 8000 km. yol qət etsələr də, onlar yolda azmadan qısa müddət ərzində deyilən yerə gəlib çıxırlar. Halbuki onlar həmin kurs ilə və həmin akvatoriyada ilk dəfə üzmüş və heç bir qeyri-adi hadisə ilə üzləşmədən, yolda heç bir dayanacaqdan istifadə etmədən 8000 km-lik yolu arxada qoyaraq, istənilən məkana çatırlar. Onda belə çıxır ki, açıq okeanda manevr etməkdə mahir usta olan portuqal şturmanları, Yaşıl Burun adalarından Ümid burnuna kimi hərəkət edən zaman heç vaxt əsas kursdan yayınaraq, tamamilə əks

tərəfdə yerləşən Braziliya saillərinə gedib çıxa bilməzdilər. Əgər, belə bir səhv baş vermişdisə, yəni ekspedisiya yolda azıb Braziliya sahillərində peyda olmuşdularsa, onda onlar Ümid burnuna yollanan zaman mütləq şəkildə yolda azmalı idilər. Ona görə ki, portuqal dəniz səyyahları bir dəfə də olsun həmin marşrutdan istifadə etməmişdilər.



***Pedro Kabralın ekspedisiyası Afrikanın cənubuna doğru hərəkət edir***

Məlum olduğu kimi onlar Afrikanın cənubuna çatanda, orada güclü fırtına ilə üzləşir və ekspedisiyanın tərkibinə daxil olan 4 gəmini heyəti ilə birlikdə itirmişdi. Xüsusilə qeyd etmək lazımdır ki, ekspedisiyanı Ümid burnunun cənubuna gətirib çıxaran Bartolomeu Diaş həmin fırtınanın qurbanı olmuşdur.

Əlavə etmək olar ki, hava əlverişli olan zaman mütəmadi olaraq, səyyahların ən böyük dənizçilik silahı olan qladştok vasitəsi ilə üzdükləri coğrafi enliyi müəyyənləşdirmək mümkündür. Belə olan halda onlar yolda necə aza bilərdilər?

Bunu onunla da izah etmək olar ki, onlar Braziliya sahillərinə yan alanda birdən–birə Atlantik okeanının o biri tayında olduğunu müəyyənləşdirəndən sonra, belə bir xətaya görə Kabral tabeliyində olan heç bir şturmanı və ya kapitanı cəzalandırmır. Halbuki həmin dövrdə belə bir kobud səhlənkarlıq heç bir dənizçiyə bağışlanmır, sanki belə də lazım imiş. Matroslar tərəddüd içərisində qalırlar. Axı, onlar kapitanların verdikləri bütün tapşırıqları peşəkarcasına yerinə yetirmişdilər.

Bundan əlavə onlar qarşıdakı torpağı görən kimi vaxt itirmədən sahil zolağının tədqiqi ilə məşğul olurlar. Ən maraqlı hal isə odur ki, portuqallar sahilə çıxandan sonra, həmin ərazinin onların krallığına məxsus olduğunu bildi-

rən əlamət olan daş padran yox, taxtadan düzəldilmiş böyük xaç qoyurlar. Bu nədir, növbəti səhlənkarlıq, yoxsa kəşf etdikləri ərazinin xüsusi önəm daşımamasıdır? Halbuki hər hansı bir dəniz səyyahı belə bir qeyri-adi kəşfə ciddi yanaşmalı idi. Ona görə ki, portuqallar on illər idi Atlantikanın bu hissəsində torpaq ərazisi axtarırdılar və qəribə olsa da bu xoşbəxtliyə nail ola bilmirdilər. Lakin birdən-birə Kabralın başına səadət quşu qonur o, isə belə bir "kəşfə" biganəlik göstərir.

Bəs, nəyə görə Lissabondan Hindistanın Kalikut şəhərinə yollanan ekspedisiyanın yolda qəribə kurs seçməsini nə ilə izah etmək olar? Bu marşrutun seçilməsindən Kabralın özü məlumatlı idi, ya yox? Çox güman ki, hali idi. Ona görə belə bir səhlənkarlıq mütləq onun tərəfindən cəzalandırılmalıydı. Bu kəşf portuqallar üçün xüsusi önəm daşımırdısa, onda nəyə görə Hindistana nəzərdə tutulan gəmilərdən birini, Kabral həmin kəşf barəsində məlumat verməkdən ötrü Lissabona göndərir? Məlumdur ki, Braziliya kəşf edildikdən düz 10 gün sonra ekspedisiyanın rəhbəri Qaspar de Lemuşu gəmisi ilə birlikdə, yazdığı məktubla Portuqaliyaya yola salır. Bu o vaxt edilirdi ki, kəşf edilən coğrafi məntəqə xüsusi əhəmiyyət kəsb edirsə, onda həmin məlumat tələsik halda lazımi yerə çatdırılmalıydı. Deməli, Braziliyanın kəşfi əvvəlcədən

nəzərdə tutulmuş və bu haqda dünya ictimaiyyəti xəbərdar olmalıydı.

Maraqlıdır, donanmanı Braziliya sahillərinə çatdırılmaq tapşırığı kimə verilmişdi, yolu yarısına kimi tanıyan Bartolomeu Diaşa, yoxsa həmin marşrutu yaxşı tanıyan başqa bir adama?

## Visente Yanyes Pinson, Diyeqo Lepe və ya rəsmi olaraq Braziliyanı ilk dəfə kim kəşf edibdir?

Atlantik okeanındakı ekspansiyalara xüsusi önəm verən kral I Manuel yaxşı bilirdi ki, əvvəlki ekspedisiyaların başında böyük naviqasiya təcrübəsi və dənizçilik bacarığı olan şturman və kapitanlar dururdu. Həmin dənizçilər yola düşəndə kral əmin idi ki, onlar verilən tapşırığın öhdəsindən müvəffəqiyyətlə gələcəklər. Lakin bu dəfə bu dəfə böyük ekspedisiyanın başında tamamilə fərqli bir insan dururdu.

Belə olan halda Braziliyanın "kəşfini" o, naşı adama tapşıra bilməzdi. Kabralın ekspedisiyasını yola salmaqla

kral bir güllə ilə iki dovşan vurmaq niyyətində idi: birincisi, Hind okeanına olan çıxışı bilən şəxsin donanmanı Hindistana aparması, ikincisi isə yol üstü Cənubi Amerikanın müəyyən bir sahil zolağını yaxşı tanıyan bir dənizçinin köməyi ilə Braziliyanın kəşfini rəsmiləşdirmək üçün həmin sahillərə yan almaq.

Belə bir tələskənlik nəyə lazım idi? İş ondadır ki, 1500-cü ilin əvvəlindən ispan dəniz səyyahları Karib dənizi akvatoriyasından çıxaraq, cənubda yerləşən böyük materi-kin ərazisinin tədqiqi ilə məşğul idilər.

N. S. Konstantinova yazır ki, "...Pinsonun həmin il yanvarın 20-də, Lepenin isə fevralın 16-da Braziliya sahillərinə yan alması xəbəri gəlib Portuqaliyaya çatdığından, həmin ekspedisiyaya əlavə tapşırıq da verilmişdi".[1]

İstərdim ki, tam da olmasa, biz Braziliya sahillərinə nəzərdə tutulan ekspedisiyaların marşrutunu müəyyənləşdirək. Paralelər və meridianlar diqqət mərkəzindədir. Ona görə ki, arxada Tordesilyas müqaviləsi qalmış və sərhədlər müəyyənləşdirilməliydi.

---

[1] Константинова Н. С. Путешествие в прошлое. Навигационная ошибка или секретная миссия?// Латинская Америка, № 5, Москва, 2000, С.8.)

***Visente Yanyes Pinson:*** Xristofor Kolumbun birinci səyahəti zamanı böyük etimad qazanan Visente Yanyes Pinson (1460-1523) ispan krallığından patent alan kimi



***Visente Yanyes Pinson (1460-1523)***

Yeni Dünya sahillərinə yola düşür və yanvarın 20-si 1500-cü ildə Cənubi Amerikanın Müqəddəs Avqustin burnundan bir qədər cənubda olan, $8^0$ c. en dairəsində yerləşən əraziyə yan alır. Ondan sonra o, dərhal kursu

şimal-qərbə tərəf döndərərək, indiki Qviananın ərazisinə kimi yol qət edir. Məhz həmin səyahət zamanı Pinson Amazonka çayının mənsəbini (sahildən 200 km. aralı olan dənizçilər okeanda, hətta 10-12 metr dərinliyə kimi, içməyə gərəkli olan şirin suyun olduğunu müəyyən edir və onu "Şirinsulu dəniz" adlandırırlar) kəşf edir. O, həmin yerdən şimal-qərb istiqamətində üzərək, Oxedadan sonra ikinci dəfə Qviana sahillərinə çatır. Bura qədər Pinson 3000 km. şimal sahil zolağını tədqiq etmişdi, o cümlədən 1200 km. materikin yeni sahilini.

***Diyeqo Lepe:*** Diyeqo Lepe adlı başqa bir ispan səyyahı fevralın 16-sı 1500-cü ildə $10^0$ c.en dairəsində naməlum torpağa yaxınlaşır və qeyd edir ki, burada torpaq cənub-qərbə tərəf uzanır. Onda belə çıxır ki, rəsmi olaraq Braziliya sahillərinə ilk dəfə Pedru Kabral yox, elə Visente Pinsonla, Diyeqo Lepe yan alır və bu kəşf onların adı ilə bağlanmalıdır.

Portuqal kralının İspanıyanın limanlarında, hətta kral sarayında da özünün cəsusları vardı və ispanlar hər hansı bir coğrafi kəşfi həyata keçirəndə, həmin cəsusların vasitəsilə o, məlumat alırdı. Eləcə də Pinsonun səyahəti başa çatan kimi, çevik şəkildə bu haqda I Manuelə xəbər verirlər. Bu yerdə kral tələsməyi vacib bilir.



*Диего де Лепе (1460-1515)*

Papa VI Aleksandrın Tordesilyasdakı bullası nəinki portuqalların, o cümlədən, ispanların da baş ağrısına çevrilmişdir. İş ondadır ki, ispanlar Karib dənizində mövcud olan Böyük və Kiçik Antil adalarının demarkasion xətdən harada yerləşməsindən hali idilər. Lakin Kabralın ekspedisiyasına qədər onları, həmin xəttin Karib dənizinin cənubunda yerləşən tam tədqiq olunmayan torpaq-

ların hansı hissəsindən keçdiyi düşündürürdü. İndi sərbəst şəkildə 28-ci paralleldən aşağıda tədqiqat işləri aparmağa imkan yaranırdı.

Vasko da Qama Hindistana şərq dəniz yolunu kəşf edib vətənə qayıdandan sonra ispan monarxları Kolumbun Vest-Hind adalarına olan inhisarını ləğv edərək, imkanlı şəxslərə həmin ərazilərə ekspedisiya göndərməsi üçün patent verir.

***Pedro Alonso Ninyo:*** İlkin icazə alanlardan biri Kolumbun Yeni Dünya sahillərinə təşkil etdiyi səyahətlərinin üçündə iştirak etmiş şturman Pedro Alonso (Peralonso) Ninyo idi və o, tərəddüd etmədən 1499-cu ilin iyun ayının əvvəlində, bir gəmidə Karib dənizinə yollanır. Tordesilyas müqaviləsinə hörmətlə yanaşan Ninyo Cənubi Amerikanın şimal sahillərini demarkasion xətdən qərb tərəfdə yerləşən hissəsinə ekspedisiya təşkil edir. Hər şeydən əvvəl o, müəyyən etmək istəyirdi ki, yeni kəşf olunan böyük torpağın ərazisi demarkasion xətdən neçə km. qərbə doğru uzanır və həmin sahil zolağı harada başa çatır?

***Alonso Oxeda:*** Ninyodan əvvəl həmin sahilləri tədqiq etmək üçün Kolumbun Yeni Dünya sahillərinə olan ikinci səyahətinin iştirakçısı Alonso Oxeda icazə alır və üç gəmidə birbaşa Karib dənizinin cənubunda yerləşən

materikə tərəf üz tutur. İki gəmini ona florentsiyalı bankirlər verdikləri üçün, guya Ameriqo Vespuççi də həmin



***Педро Алонсо (Пералонсо) Ниньо (1468-1505)***

ekspedisiyada iştirak edir. Bundan əlavə heyətə Kolumbun ikinci ekspedisiyasında iştirak etmiş Xuan de La Kosa və başqa tanınmış adamlar da dəvət olunur. Səyahətə mükəmməl hazırlaşan Oxeda yola düşməmişdən əvvəl Kolumbun ispan monarxlarına 1498-ci ildə göndər-

diyi Pariya körfəzinin və Mirvari sahilinin xəritəsi ilə tanış olur. Bu ondan xəbər verir ki, o, Yeni Dünya sahillərinə xüsusi missiya ilə yollanmışdı. Buna bariz nümunə ekspedisiya 18-i may 1499-cu ildə Kadis limanını tərk edəndən bir neçə gün sonra o, yolda bir karavellanı saxlayıb, gəmi heyətinin əksər hissəsini özü ilə səyahətə getməsini razı salır.



***Alonso de Oxeda (1466-1515)***

***Ameriqo Vespuççi:*** İyunun sonunda dörd gəmi $6^0$ və ya $5^0$ c.en dairəsində haradasa, $51^0$ q. uzunluğunda yerləşən Oyapok buxtasında sahilə yaxınlaşır və orada iki yerə bölünürlər. Oxeda iki gəmidə qərb-şimali-qərb istiqaməti ilə yolunu davam etdirir, yerdə qalan gəmilərdə isə Vespuççi cənub-qərb istiqamətilə hərəkət edərək, iyulun 2-də Visente Pinsondan qabaq, Atlantik okeanına tökülən iki böyük çayın – qərbdən Amazonka və cənubdan Para – mənsəbini görür. Onlar sahildən 45 km. aralı öz çəlləklərini okenda şirin su ilə doldururlar. Vespuççi 20 yoldaşı ilə birlikdə qayıqlarda 100 km. içəri daxil olur və oranın sıx meşəlikdən ibarət olduğunu görüb iki gündən sonra gəmilərə qayıdır. İyulun 24-də onlar şərq, cənubi-şərq istiqamətində yollarını davam etdirirlər, lakin əks tərəfdən gələn cərəyanın ucbatından 250 km-dən çox məsafə qət edə bilmirlər. Beləliklə, ispanlar Cənubi-Passat cərəyanının qolu olan, saatda 3 km. daşan Qviana cərəyanını aşkarlayırlar.

Bəzi alimlər qeyd edirlər ki, o, ya $1^0$ $30^/$ c.en dairəsi və $45^0$ q.uzunluğunda yerləşən Turiasu buxtasına, ya da ki, $2^0$ c.en dairəsi və $44^0$ q.uzunluğunda yerləşən San-Markus buxtasına kimi 1200 km. məsafə qət edir və oradan şimal-qərb istiqamətilə geri qayıdır. Trinidad adasında bir qədər istirahət edəndən sonra Vespuççi Kodera

burnu yaxınlığında Oxeda ilə birləşir və hər ikisi 1500-cü ilin iyun ayında İspaniyada peyda olurlar.



***Ameriqo Vespuççi (1454-1512)***

Dekabrın 1-i 1499-cu ildə Kolumbun Yeni Dünya sahillərinə təşkil etdiyi birinci səyahətin iştirakçısı Visente

Yanyes Pinson öz nəslinin nümayəndələrinin puluna aldığı dörd gəmidə Palos limanını tərk edib, birbaşa Braziliya sahillərinə yollanır. Yaşıl Burun adalarından o, kursu cənub-qərb istiqamətinə götürüb, ispanlar arasında birinci olaraq ekvator xəttini keçir və iki həftəlik okean keçidindən sonra 26-sı yanvar 1500-cü ildə gözlənilmədən Braziliyanın San-Roka burnu ($5^0\,30^/$ c.en dairəsi) ilə rastlaşır. Tordesilyas müqaviləsinə zidd olaraq Pinson notariusla birlikdə sahilə çıxıb, orada taxtadan düzəldilmiş bir neçə xaçı torpağa sancır. O, bütün heyət qarşısında həmin ərazini ispan taxt-tacının mülkiyyəti elan edir.

Bu kəşfdən sonra Pinson şimal-qərb istiqamətində yolunu davam etdirir və bir neçə gündən sonra sahili gözdən itirir. Dənizçilər okeandan su götürəndə görürlər ki, su şirindir və dərhal istiqaməti sahilə tərəf üz tuturlar. Yalnız 200 km. yol qət edəndən sonra Pinson sahil ilə üzləşir və Vespuççidən sonra Para çayının mənsəbini kəşf edən ikinci adam olur. Ekvator yaxınlığında yenə də Vespuççidən sonra o, dünyənın ən böyük çayının mənsəbini aşkarlayır və onu (okean sularının materikə yaxın olan hissədə şirin suya çevirdiyindən) Mar-Dulse ("Şirinsulu dəniz") adlandırır. Pinson oradan şimal-qərb istiqamətində üzərək Oxedadan sonra indiki Qviana sahillərinə çatır. Bu əraziyə qədər o, arakəsmələrlə 3000 km. şimal

sahil zolağını tədqiq edir, o cümlədən, yeni materikin 1200 km. sahilini kəşf edir. Təcrübəli dənizçi həmin an anlayır ki, bu qədər sahil zolağı yalnız qitəyə məxsus ola bilər. Lakin həmin ərazini Asiya ilə səhv salır. Beləliklə, Pinson yolda iki gəmi itirməklə, yerdə qalan iki gəmidə 29-u sentyabr 1500-cü ildə Palosa gəlir.

***Bartolome Roldan:*** Pinsonun Yeni Dünya sahillərinə yola düşməsindən təxminən iki həftə sonra, 1499-cu ilin dekabrın ortasında Diyeqo Lepe iki gəmidə Palos limanını tərk edir və təcrübəli naviqator Bartolome Roldanla birlikdə cənub-qərb istiqamətində hərəkət edərək, fevralın 12-də $5^0$ $30^/$ c.en dairəsində Braziliya sahillərinə yan alırlar. Oradan cənub istiqamətində yolunu davam etdirməklə, Cənubi Amerikanın ən ucqar şərq nöqtəsi Sant-Auqustin (Kabu-Branku burnu, $7^0$ c.en dairəsi) burnuna çatırlar. Onlar daha 200 km. cənuba doğru hərəkət edəndən sonra görürlər ki, buradan sahil cənub-qərbə uzanır. Məhz bundan sonra ispanlar geriyə qayıdıb, demək olar ki, Pinsonun marşru-tunu təkrarlayırlar. Yolda onlar Amazonka çayına daxil olub 400 km-ə yaxın yuxarı qalxırlar və Roldan bütün bunları yeni tərtib etdiyi xəritəyə daxil edir.

***Alonso Veles de Mendosa:*** 1500-cü ilin iyulun sonunda onlar İspaniyaya qayıdırlar, lakin çox çəkməmiş

Roldanı Cənubi Amerika sahillərinə nəzərdə tutulan növbəti ekspedisiyaya dəvət edirlər. Həmin ekspedisiyanın rəhbəri cəngavər ordeninin komandoru, müflisləşmiş zadəgan Alonso Veles de Mendosa təyin edilir. O, avqustun sonun-da iki gəmidə - “San-Kristobal” və “Müqəddəs ruh” (ikinci gəmini Luis və Anton Gerra qardaşları təşkil etmişdilər) – Seviliyanı tərk edir və noyabr ayında Braziliyanın Kabu-Branku burnundan 30-35 km. şimalda sahilə yan alır. Bu məsələdə Roldan özünü əsl dənizçi və peşəkar şturman kimi göstərir.

Onlar vaxt itirmədən cənub istiqamatində yollarını davam etdirir və bir qədər gedəndən sonra görürlər ki, sahil zolağı cənub-qərbə tərəf uzanır. Dekabrın 25-də Roldan “Marallar” çayının mənsəbinə çatır, çox güman ki, bu San-Fransisku çayıdır, istirahət etmək üçün bir neçə gün orada qalırlar. Gəmilər cənub-qərb istiqamətində yollarını davam etdirir və materikin şimal-şərq çıxacağında yerləşən yeganə böyük körfəzə (Todeus-us-Santus, sadəcə Baiya), 1501-ci ilin yanvarın əvvəlində isə Jekitinonya ($16^0$ c.en dairəsi) çayının çatır. Məhz bundan sonra Alonso de Mendosa geri qayıtmağı qərara alır.

İspanlar bu ərazidə qiymətli daşlar tapa bilmədilər, lakin 1000 km-ə yaxın sahil zolağını tədqiq edib, onu tərtib edilən xəritəyə qeydiyyata salırlar. Hər iki gəmi

1501-ci ilin ya may ayının sonunda, ya da iyun ayının əvvəlində Seviliyaya qayıdır.




***Alonso Veles de Mendosanın səyahəti***

Məlumat üçün bildirməliyəm ki, Alonso de Mendosanın ekspedisiyasının nəticələri gizlin saxlanılmalı idi, ona görə ki, ispanlar portuqallara məxsus olan ərazidə tədqiqat işləri aparırdılar. Onlar hələ də Tordesilyas müqaviləsinin bəzi bəndlərinin üstündən xətt çəkmək ümidini itirmirdilər. Yalnız beş əsrdən sonra bəlli olur ki, Bartolome Roldanın iştirakı ilə belə bir ekspedisiya Kabraldan əvvəl Braziliya sahillərinə yan almış və həmin ərazinin konturlarını çəkməyə müvəffəq olmuşdu.

## İspanlar birinci olaraq Braziliyanı kəşf ediblər

Xronologiyaları ardıcıllıqla göstərməkdə məqsədim odur ki, ispanların Braziliya sahillərinə göndərdikləri ekspedisiyalar planlı şəkildə təşkil olunur və əsas tapşırıq yalnız həmin sahil zolağının haraya uzanıb getdiyini müəyyənləşdirməkdən ibarət idi. Ona görə də həmin ekspedisiyaların əksəriyyəti məxfi şəkildə saxlanılaraq, marşrutları kodlaşdırılırdı.

Bütün bu ekspedisiyaları Braziliya sahillərinə göndərməklə əslində, ispanların məqsəd-məramı başqa idi. Onlar dəqiq bilmək istəyirdilər, portuqalların rəsmi şəkildə özləri üçün müəyyənləşdirdikləri demarkasion xəttin üzərində torpaq ərazisi var, ya yoxdur? Kəşfiyyat ekspedisiyaları həmin akvatoriyaya göndəriləndən sonra orada kifayət qədər quru ərazinin olduğu məlum olur və ondan sonra ispanlar başa düşürlər ki, portuqallar onları aldadıblar. Lakin aldatmanın miqyası dəqiq müəyyən olmadığından ispanlar elə bir ciddi etiraz bildirmədilər. Bunun üçün isə həmin ərazinin tədqiqi ilə məşğul olmaq lazım idi və bu səbəbdən ora məxfi və icazəli ekspedisiyalar göndərilməyə başlandı.

Hazırda onları yalnız bircə şey maraqlandırırdı, Tordesilyas müqaviləsinə əsasən, portuqalların əldə etdikləri ərazi nə boydadır və hansı enliklərdə yerləşir? Meridian bölgüsünə görə sərhəd bəlli idi, lakin həmin sərhədin haraya qədər uzandığı ispanların maraq dairəsində idi.

Pedro Alonso Ninyo demarkasion xəttdən qərb tərəfə çıxıb həmin ərazilərin tədqiqi ilə məşğul olur. Visente Pinson $8^0$, Diyeqo Lepe $10^0$, $5^0$ $30^/$, Bartolome Roldan $5^0$ $30^/$, Alonso de Mendosa isə təxminən $7^0$ c.en dairəsində sahilə çıxıb, oradan tədqiqat işlərinə başlamışdılar. Visente Pinson, Diyeqo Lepe, Pedro Alonso Ninyo, Alonso

Oxeda sahilə yan alan kimi şimal-qərb, Bartolome Roldan, Alonso de Mendosa isə cənub-qərb istiqamətində Braziliya sahillərini tədqiq etmişdilər.

Visente Pinsonun ekspedisiyasında iştirak edən Ameriqo Vespuççi $5^0$-$6^0$ c.en dairəsində Braziliya sahillərinə yan alır və oradan cənub istiqamətində hərəkət edir. Onun missiyasına Braziliyanın cənub sahillərinin hara kimi uzandığını müəyyənləşdirmək idi. Lakin o, da həmin missiyanın öhdəsindən gələ bilmir. Sanki onların hər birinə ayrı-ayrılıqda xüsusi tapşırıq verilmişdi ki, oranın hər bir qarış torpağı ispanların diqqətindən yayınmasın.

İspan monarxları bilmək istəyirdilər ki, Tordesilyas müqaviləsindən sonra Atlantik okeanının o biri tayındakı torpağın hansı irilikdə olan hissəsi portuqalların mülkiyyətinə keçir. Parallellər arasındakı məsafə hesablananda onların həddindən artıq böyük əraziyə malik olduğu üzə çıxır. Deməli, belə çıxır ki, portuqal dəniz səyyahları heç bir əziyyət çəkmədən həddindən artıq böyük əraziyə sahib çıxmışdılar. Olmaya, Tordesilyas müqaviləsi zamanı özlərini avam aparmağa çalışmış portuqallar ispanlara hiylə gəlmişdilər? Axı, onlar ikinci bölgü zamanı demarkasion xəttin birdən-birə 270 liq artırmağa müvəffəq

olmuş və indiki Braziliya boyda iri bir ərazini ispanların əlindən ala bilmişdilər.

Tordesilyas müqaviləsinə əsasən, artıq Braziliya portuqallara məxsus olduğundan, sadəcə olaraq, bunu rəsmiləşdirmək lazım idi. Həmin kəşf rəsmiləşdiriləndən sonra həmin ərazini tədqiq etmək üçün tədqiqat ekspedisiyasının göndərilməsi planlaşdırılırdı. Bu işi yerinə yetirmək üçün krala bir neçə namizəd təqdim olunmuşdu, lakin o, Qonsalu Kuelyunun üzərində dayandı. Çox maraqlıdır ki, həmin səyahət tədqiqat baxımdan mühüm əhəmiyyət kəsb etsə, həmin ekspedisiyaya başçılıq etmiş rəisin adı bir neçə əsr məxfi saxlanmışdı. Öz avantürası ilə bütün həmkarlarını geridə qoyan Ameriqo Vespuççi həmin səyahəti öz adı ilə bağlamışdı. Guya o, 1501-1502-ci illərdə həmin ekspedisiyaya rəhbərlik etmişdi. Lakin gec olsa da həqiqət üzə çıxır, ədalət isə bərpa olunur.

1501-ci ildə Portuqaliya sahillərini tərk edən Qonsalu Kuelyunu uzun müddət Vespuççinin köməkçisi kimi qələmə verirdilər. Bir çox mənbələrdə Vespuççinin guya Alonso Oxedanın ekspedisiyasında Cənubi Amerikanın şimal sahillərini tədqiq etdiyi göstərilir. Əlbəttə ki, bu yalandır. Çünki o, ilk dəfə bu materikin sahillərinə elə Kuelyunun səyahəti zamanı gəlibdir. Əslində Vespuççi

Braziliya sahillərinə nəzərdə tutulan Kuelyunun ekspedisiyasına qeyri-rəsmi naviqator kimi təhkim olunmuş və tədqiqat zamanı orada gördüyü hər bir şeyi qələmə almalı idi. Həqiqətən də həmin yazılar, XVI əsrin əvvəlində **"Santa-Krus"** və ya **"Tutuquşular ölkəsi"** adı altında Braziliyanın sahil zolağı - çaylar, buxta, körfəzlər göstərilən tərtib edilmiş bir neçə xəritə ilə gəlib bizim günlərə çatıbdır. Maraqlıdır ki, həmin xəritələr başqa-başqa məkanlarda tapılmışdır. Görünür, həmin materialların surətləri çoxaldılaraq, naməlum insanlar arasında yayılaraq, salamat şəkildə indiki zamanda tədqiqat obyektinə çevrilibdir.

Beləliklə, 10-u may 1501-ci ildə kapitan-general Qonsalu Kuelyu üç gəmidə Lissabonu tərk edir və iyunun 1-də Yaşıl Burun adalarında vətənə qayıdan Kabralın ekspedisiyası ilə rastlaşır. Onun missiyası da demək olar ki, yarımməxfi sayılırdı. Lakin buna baxmayaraq o, Kabralın Braziliya sahillərindəki səyahəti barəsində bəzi məlumatları əldə edir və başa düşür ki, Atlantikanın qərbində yerləşən əraziyə getmək nəinki Hindistana, hətta Afrikanın cənubu-na olan marşrutdan da asandır.

11 gün ərzində Bijaqoş arxipelaqında şirin su ehtiyatı əldə edən kimi, onlar beş həftəlik okean keçidindən sonra qayalıqlarla əhatə olunmuş Fernandu-di-Noronya adası

ilə, avqustun 17-də isə materikin sahili ilə üzləşirlər. Elə birinci burunda portuqallar demək olar ki, istirahət etmədən bir həftə qalır və yollarını davam etdirirlər. Qəribə olsa da, yerli əhali ilə ticarət əlaqəsi qurmaq üçün sahilə iki dənizçi çıxır və geri qayıtmırlar. Buna görə Vespuççi hinduları cəzalandırmaq təklifi versə də, Kuelyu iğtişaş yaratmadan cənub istiqamətində buradan uzaqlaşır. Sahil zolağının tədqiqi xüsusi əhəmiyyət kəsb etdiyindən, hər bir məntəqə dəqiqliklə qeydiyyata alınırdı. Bu isə hər məntəqəyə müqəddəslərin adı verilməklə həyata keçirilirdi. Məhz həmin adlardan bilmək olur ki, onlar ilk dəfə şimalda hansı məntəqədə olublar.

Dənizçilər yanvarın 6-da Anqra-dus Reys buxtasına, 16 gündən sonra San-Visenti adasına ($24^0$ c.en dairəsi), yanvarın sonunda isə Kananea çayının ($25^0$ c.en dairəsi və $48^0$ q. uzunluğu) mənsəbinə çatır. Məhz burada Kuelyu tədqiqat işlərini başa çatdırıb vətənə qayıtmağı qərara alır. Ferdinand di Noronyanın səlahiyyətli nümayədəsi olan gəminin biri donanmadan ayrılıb 24-ü iyun 1502-ci ildə Lissabona gəlir.

Bu səyahətin xronologiyasına nəzər yetirəndə Vespuççinin çoxsaylı fantaziyası ilə üzləşirsən. Onun məlumatına əsasən, yerdə qalan iki gəmi fevralın 13-də Braziliya sahillərindən aralanaraq cənub istiqamətində səyahə-

ti davam etdirir və təxminən 3000 km. məsafəni arxada qoyaraq aprelin 3-də $52^0$ c. en dairəsində yeni bir torpaqla üzləşirlər. İ. P. Magidoviç və V. İ. Magidoviçə görə çox güman ki, bu $20^0$ c.en dairəsində və $30^0$ q. Uzunluğunda yerləşən Trindadi adasıdır. Burada dənizçilər evə qayıtmaq üçün kapitan-generalı razı salırlar və onlar mayın 10-da Syerra-Leone sahillərinə çatır. Kuelyu orada yararsız hala düşmüş bir gəmini yandırıb yolunu davam etdirir və 6-sı sentyabr 1502-ci ildə Lissabonda lövbər atır.[1]

Ekspedisiya axtarışlar zamanı qızıl və gümüş baxımdan kralın ümidlərini puç etsə də, amma böyük coğrafi nailiyyətlərə imza atmışdır. $5^0$ $30^/$ c.en dairəsindən $25^0$ c.en dairəsinə kimi, San-Roka burnundan Kananea çayının mənsəbinə kimi 3000 km-lik sahil zolağını, o cümlədən, Veles de Mendosadan sonra $5^0$ $30^/$ c.en dairəsindən $16^0$ c.en dairəsinə kimi, 1000 km-lik məsafəni təkrarən tədqiq edərək, yeni xəritəyə daxil etmişdi.

Təxminən 450 il həmin ekspedisiyanın nailiyyəti gizlin saxlanılsa da, bu işdə Vespuççinin rolu danılmazdır.

---

[1] И. П. Магидович, В. И. Магидович. Очерки по истории географических открытий, II том. Москва, “Просвещение”. 1982. стр.59

Ona görə ki, bu səyahət barəsində o, qeydlər aparan zaman paxllıqdanmı deyim, yoxsa əldə olan şöhrəti öz adına yazdırmaqdanmı, bir dəfə də olsun Kuelyunun adını çəkmir və bütün missiyanın nailiyyətlərini həyasızcasına mənimsəyir. Yalnız XX əsrin 60-cı illərin sonunda İtaliyanın Fano şəhərində fəaliyyət göstərən kitabxanada, 1504-1505-ci illər tarixi ilə göstərilən köhnə bir xəritə tapılır. Həmin xəritədə Braziliya **"Qonsalu Kuelyunun torpağı"** adlanır. Məhz ondan sonra Kuelyunun Braziliyanın tədqiqində müstəsna rol oynaması önə çəkilir.

Portuqalların əsl məqsəd-məramını, Pedru Kabralın buraya təsadüf nəticəsində gəlib çıxdığını və Kabraldan əvvəl bu materikdə hər hansı bir səyyahın olub-olmadığını müəyyənləşdirmək üçün Kuelyunun sahilə yaxınlaşdığı coğrafi məntəqələrini nəzərdən keçirmək lazımdır.

Ekspedisiyanın avqustun 17-də sahilə toxunduğu ən şimal nöqtə $5^0$ $30^{/}$c. en dairəsindəki San-Roka burnudur. Həmin burun bir il bundan əvvəl hələ Pinson və Lepe tərəfindən kəşf edilmişdi. İspanların bu ərazilərdə keçirdikləri tədqiqat işlərini heçə endirmək üçün portuqallar bu ərazidə fəaliyyət göstərməliydilər. Ona görə ki, sonradan bu ərazilər əldən çıxa bilərdi. Ən əsas portuqallar sənədlə sübut etməliydilər ki, Pinson ilə Lepenin gəmiləri demarkasion xətdən xeyli şərqdə Braziliya sahillərinə

yan almış və bununla da onların fəaliyyətinin nəticələri heçə endirilməliydi. Yəni, portuqallar yuridik sənədə əsaslanaraq ispanların fəaliyyətinə bu ərazilərdə son qoymalı idilər.

Bəzi mənbələrdə göstərilir ki, Kuelyu Kabralın Braziliya sahillərinə hansı enlikdə yan almasından xəbərsiz idi. Lakin bu inandırıcı görünmür. Ona görə ki, Kabral Braziliya sahilləri ilə üzləşəndən sonra, “kəşflə” bağlı xəbəri krala çatdırmaq üçün Qaspar de Lemuşu mayın 1-də Lissabona göndərir. Məhz bunu əsas tutaraq, Qaspar de Lemuşun Lissabonda Kuelyu ilə görüşüb Braziliya barəsində məlumat toplamasını bildirmək olar. Deməli, Kuelyu Kabralın $16^0$ $30^/$ (indiki Portu-Sequru) sahilə yan almasından məlu-matlı idi.

İspanların əziyyətini yerə vuran Kuelyu həmin nöqtədən cənuba doğru üzür və avqustun 28-də Sant-Auqustin (Kabu-Branku) burnuna çatır. Ondan bir az cənubda mülayim hindu tayfası ilə rastlaşır və onlardan üç qadın könüllü olaraq gəlmələrlə Portuqaliyaya getməyə razılıq bildirirlər. Burada dənizçilər bir ay qalır və Borborema dağlarından daşan xırda çaylar olan San-Migel (29 sentyabr), San-Jeronimu (30 sentyabr), oktyabrın 4-də isə $10^0$ $30^/$ c. en dairəsində yerləşən hamısından böyük çay olan San-Fransiskunun mənsəblərinin yanından ötür.

Noyabrın 1-də ekspedisiya vacib olan 13$^0$ c. en dairəsində yerləşən Todeus-us-Santus buxtasına yan alır. Bu ətraf ərazidə olan ən böyük körfəzin sahili idi, sonralar onu sadəcə Baiya ("Buxta") adlandırırlar. Portu-Sequruda onlar Kabralın il yarım əvvəl qoyduğu iki yunqanı götürürlər. Bu bir daha hinduların sülhsevərliyindən xəbər verirdi. Yollarını davam etdirən portuqallar dekabrın 13-də Santa-Lusiya (çox güman ki, Dosi çayıdır) çayının mənsəbini arxada qoyur, dekabrın 21-də San-Tome burnunu (22$^0$ c.en dairəsi) keçib birbaşa qərbə tərəf üz tutur və yanvarın 1-də heyranedici Quanabara buxtasına çatırlar. Onlar buranı (23$^0$ c.en dairəsi) çayın mənsəbi ilə səhv salaraq, həmin yeri **"Yanvar çayı"** – Rio-de-Janeyro adlandırırlar.

Ən maraqlısı odur ki, Braziliya sahillərinə üzən ekspedisiya iştirakçıları rəsmi olaraq, həmin sahilləri tədqiq etməkdən ötrü yollansa da, el gözünə onlara daha vacib tapşırıq verilmişdi. Həmin tapşırığa əsasən, Kuelyu, Kabralın "kəşf" etdiyi ərazinin Tordesilyas müqaviləsi zamanı müəyyən edilmiş demarkasion xətdən neçə dərəcə qərbdə və ya şərqdə yerləşdiyini təyin etməliydi. Guya əvvəlki ekspedisiya sahilə çıxdığı ərazinin uzunluq koordinatlarını təyin edə bilməmişdi. Portuqallar Tordesilyas-

da yürütdükləri yalana doğru don geydirmək üçün belə edirdilər.

Beləliklə, Kuelyunun üç karavellası sahilə yan aldığı nöqtədən 500 km. aşağı düşərək, 1502-ci ilin birinci günündə böyük bir çayın mənsəbinə çatır (indiki Rio-de-Janeyro şəhərinin ərazisi).

Elə ikinci ekspedisiya vaxtı (1503-1504) Vespuççi Kuelyu ilə birlikdə həmin sahillərə üzmüş və bu səyahət zamanı bir çox hadisələri qələmə alıb, həmin qeydləri bir neçə dəfə Avropada çap etdirmişdi. Qeyd etmək istəyirəm ki, həmin səyahət az qala faciə ilə nəticələnəcəkdi.

## Martin Behaymın göstərdiyi xidmətlər və Braziliya ilə bağlı olan suallara aydınlıq gətirilməsi

Portuqallar isə Braziliyanı kəşf edən ilk səyyah kimi həmin adların, yəni Pinsonun və Lepenin üstündən xətt çəkərək bildirirlər ki, portuqal dənizçisi Duarti Paşeku Pireyra və Portuqaliyanın xidmətində olan alman alimi Martin Behaym 1490-1495-ci illər arasında həmin ərazi-

də olublar, lakin başqalarını cəlb etməmək üçün, dövlət sirri kimi həmin kəşfi məxfi saxlayıblar. Bu barədə ortaya arqumentlər çox qoyulsa da, lakin bunu sübut etmək hələ də mümkün olmayıbdır. Daha doğrusu bu inandırıcı görünmür. Ona görə ki, alman coğrafiyaşünası o qədər də tanınmış dəniz səyyahı sayılmırdı ki, portuqallar onu belə bir həm məsuliyyətli, həm də dövlət əhəmiyyətli səyahətə yollasınlar.

Bir çox alimlər qeyd edirlər ki, alman coğrafiyaşünası Martin Behaym (1459-1507) məxfi ekspedisiyaların birində Cənubi Amerika sahillərinə üzübdür. Bu bir qədər qeyri-ciddi iddia sayılır, ona görə ki, Behaym öz zamanında fəaliyyət göstərən alim həmkarları arasında necə zəif idisə, eləcə də dənizçilik işlərində həddindən artıq peşəkar naviqator sayılmırdı.

Həmin dövrdə Afrikanın sahillərini tədqiq edən portuqallar özləri güclü dənizçilik, kapitan, losman, şturman və naviqatorlarlar kimi şahzadə Enrikenin Saqriş şəhərində yaratdığı naviqasiya məktəbinin ustadları idilər. Bəzi mənbələrdə göstərilir ki, Behaym XV əsrin 90-cı illərinin ortalarında gedib Azör adalarında məskunlaşır və indiyənə kimi dəqiq bilinmir o, orada hansı işlərlə məşğul olubdur. Lakin bir neçə tarixçinin fikrincə, alman alimi orada məxfi sayılan portuqal ekspedisiyalarında

Atlantik okeanının qərb sahillərinə səyahət etmiş və çox güman ki, o, həm Şimali, həm də Cənubi Amerika materiklərinin sahillərinə yan almışdır.



***Martin Behaym (1459-1507)***

Tarixçilər bunu onunla əsaslandırırlar ki, əgər Martin Behaym Qərbi Atlantikada üzübdürsə, deməli o, mütləq

hər iki materikin sahillərinə gedib çıxa bilərdi. Belə bir inandırıcı olmayan əsaslara istinad edərək, onun hələ 1498-ci ilə qədər Amerika sahillərini Florida yarımadasından Braziliyaya kimi əraziləri yaxşı tanıması fərziyyəsini irəli sürürlər. Portuqal gəmilərinin anonim kapitanları ilə birlikdə Behaym Cənubi Amerikanın kəşfini həyata keçirmiş və gələcəkdə Braziliyanın kəşf edilməsində Kabrala lazımi məlumatlar vermişdi.[1]

Əgər, Martin Behaym heç olmasa bir dəfə Cənubi Amerika sahillərində və ya ona yaxın olan adalara gedib çıxsaydı, onda o, mütləq 1492-ci ildə Nürnberq şəhərində tərtib etdiyi, bizə gəlib çatmış ən qocaman qlobusunda həmin əraziləri qeyd edərdi. Bundan əlavə o, səyahətlərdən əl çəkəndən sonra yəni, heç kimdən asılılığı olmadığı bir vaxtda, həmin torpaqlar barəsində xüsusi qeydlər verərdi. Qeydlərdən isə öncə bir çox dənizçiləri hava-su kimi maraqlandıran Yeni Dünya sahillərinin konturları çəkilmiş xəritələr tərtib edə bilərdi.

Behaym yaxşı bilirdi ki, həmin dövrdə naməlum və yenicə kəşf edilmiş torpaqların xəritələri ən baha qiymətə satılan sənəd sayılırdı.

[1] Хенинг Р. Неведомые земли. Пер. с нем. М., 1963, т. IV, гл. 198.



***Martin Behaymın düzəltdiyi qlobus***
***Nürnberq (1492)***

“Alimin qlobusunda atlantikanın o biri tayındakı Cənub materiki barəsində heç bir əsər əlamət yoxdur”.[1] Bununla da deməliyik ki, tarixi sənədlər olmadığı üçün,

[1] Дитмар А. Б. От Птолемея до Колумба. М., 1989, С. 230.



*Martin Behaymın düzəltdiyi qlobusun açılmış maketi*

XV əsrin 90-cı illərində Behaymın Amerikaya gedib çıxması sübuta yetirilmir.

Bəzi alimlər iddia edirlər ki, hələ şahzadə Enrike (Henrix) Dəniz Səyyahının sağlığında 1440-cı illərdə tərtib olunan qədim dənizçi xəritələrində dolayısı yolla, portuqal gəmilərindən biri, Braziliyanın indiki Pernambuku ştatının ərazisinə yan alması göstərilirdi. Təəssüflər olsun ki, həmin sensassion faktı təsdiqləməkdən ötrü sənədlər qalmayıbdır. Səbəb isə odur ki, həmin dövrdə Lissabonda təşkil olunan dənizçi ekspedisiyaları barəsindəki məlumatlar məxfi şəkildə kodlaşdırılırdı. Çünki Avropanın güçlü dəniz dövləti sayılan Venetsiya, Araqon kimi krallıqlar Atlantik okeanının sahillərində yerləşən naməlum əraziləri kəşf etmək üçün ekspedisiyalar təşkil edirdi və bu sahədə Portuqaliya ilə rəqabət aparırdı.

Portuqallar isə məxfi şəkildə həyata keçirdikləri kəşfləri rəsmiləşdirməkdən ötrü, Vatikanda əyləşən pontifiklərin bullalarını əldə edirdilər. Bir çox mütəxəssislər bildirirlər ki, onlar bu məsələdə rüşvətdən istifadə edərək, öz rəqiblərini Atlantikaya çıxmağa maneəçilik törədirdilər.

Andrea Bianko yaxşı oxunmayan əfsanə yazılmış və iri torpaq ərazisi göstərilmiş bir xəritə tərtib edir. Yul Oldemin (1894) fikrincə, portuqallar Braziliyanı hələ

1448-ci ilə qədər kəşf ediblər. O, əfsanəni oxuyan zaman *"hansısa bir adanın 1500 mil qərbdə yerləşdiyi"* kimi başa düşür. Oldem elə zənn edir ki, söhbət Yaşıl Burun adalarından 1520 mil qərbdə yerləşən Braziliyadan gedir.

Bu məsələyə dair Oldemin baxışlarını portuqal alimi Batalya-Reyş fəal müdafiə edir, lakin bu fikir ictimaiyyət arasında geniş əks-səda doğurmadı.[1]

Reallıq baxımından bu da qeyri-ciddi iddia sayılır. Ona görə ki, portuqal dəniz səyyahları gedib Braziliya sahillərinə çıxsaydılar, elə həmin tarixdən kəşf olunan torpaq ərazisini özününküləşdirərdilər. Həmin faktı gizlətməyin heç bir əsası yox idi. Ortaya səbəb qoysalar ki, Portuqaliya qonşu dövlətlərdən çəkinirdi, bu real fikir sayılmır. Çünki həmin dövrdə Kastiliyanın başı Rekonkistaya qarışmış, Venetsiya Aralıq dənizində hegemonluq etmək üçün Genuya və ərəb dəniz quldurları ilə münaqişə aparmış, Osmanlı Türkiyəsi Bizans ilə qarşıdurmada, Fransayla İngiltərə bir-biriləri ilə 100 ildən artıq idi ki, müharibə edirdilər. Onda Portuqaliya kimdən ehtiyat edirdi? Heç kimdən! Sadəcə, Yula Oldemin fikirinə zidd olaraq portuqal dəniz səyyahları nə Braziliya, nə də ki,

---

[1] Дж. Бейкер. История географических открытий и исследований. Перевод с англ. под редакцией и с предисловием Магидовича И. П. М., «Издательство иностранной литературы». 1950. стр. 44.

ona yaxın olan sahillərə gedib çıxmayıblar. Lakin bu o demək deyil ki, onlar passivlik edərək Atlantik okeanında ekspedisiyalar təşkil etməyiblər.

Dəniz ekspansiyaları ilə məşğul olan portuqallar təxminən 45 il ərzində Pireney yarımadasına və Afrikanın şimal-qərb sahillərinə yaxın olan bütün adaları kəşf edib, onları Portuqal krallığının ərazisinə daxil etdilər. 1419-cu ildə Bohador burnuna yollanan iki portuqal zadəganı Juan Qonsalviş Zarku və Triştan Vaş Teyşeyranın gəmiləri fırtına zamanı qərb istiqamətində qat-qat uzağa atılır və nəticədə onlar sıx meşə ilə örtülmüş ada ilə rastlaşırlar. Onlar Madeyra adasının kəşfinin təməlini qoyurlar. Qonsalu Velyu Kabralın başçılığı altında Portuqal kralı I Juanın oğlu şahzadə Enrike Dənizsəyyahının (1394-1460) tapşırığına əsasən, Portuqaliyadan qərb istiqamətinə göndərilən ekspedisiya ilə 1427-1432-ci illərdə Azör adalarını kəşf edir. 1456-cı ildə isə venetsiyalı Alvize (Luici) da Kadamosto və genuyalı Antonio Uzodimare Kobo Verde (Yaşıl Burun) adalarını aşkarlayırlar.

Ümumiyyətlə, portuqal dəniz səyyahları – Jal İoniş (1435-ci il), Afonso Qonsalviş Baldaya (1436), Antan Qonsalviş və Nunu Triştan (1441), Lansaroti Pisanya (1444-1445), Diniş Diaş (1445), Alvaru Fernandiş (1446), Ayriş Tinoku (1447), Dioqu Qomiş (1456), Alvi-

ze da Kadamosto və Antonio Uzodimare (1456), genuyalı Antonio Noli (1460), Dioqu Afonso (1462), Peru di Sintra (1461-1462), Fernan Qomiş (1469), Sueyru da Koşta (1470), Juan di Santaren və Peru di İşkular (1471),




***Şahzadə Enrike Dənizsəyyahının (1394-1460)***

Ruy di Sikeyra (1472), Fernan de Po (1472), Dioqu Azanbuj (1481), Dioqu Kan (1482-1484 və 1485-1487), Bartolomeu Diaş (1487-1488) - ara vermədən Afrikanın şimaldan tutmuş cənub nöqtəsinə kimi bütün qərb sahilini kəşf edərək, sonrakı dəniz səyahətləri üçün hazırlıq işlərini görməyə başladılar.

Beləliklə, portuqallar 1425-ci ildən Madeyrada, 1432-ci ildən Azör adalarında məskunlaşır, 1460-cı ildə isə Yaşıl Burun adalarını ələ keçirir. Dioqu Qomeş 1456-cı ildə 180 funtluq qızıl qumla Qambiyadan Lissabona gəlir. O, həmin qızılı yerli əhalidən adi şüşədən düzəldilmiş bəzəklərlə dəyişir. Bu xəbər tezliklə, Kastiliyaya çatır, lakin daxildə gedən Rekonkista, onu Atlantik okeanında sərbəst fəaliyyət göstərməyə imkan vermir. Bundan istifadə edən Portuqaliya atlantikadakı təsirini daha gücləndirir.

Atlantikada ekspansiyanı görən başqa dövlətlərin dənizçiləri öz bəxtlərini sınamaq üçün Portuqaliyaya üz tuturlar. Bu səbəbdən italyan, katalon və andaluz dənizçiləri portuqal dəniz donanmasında işlə təmin olunur və bununla da uzaq ölkələrə olan səyahətlərdə iştirak edirlər.

1448-ci ilə qədər portuqal dəniz səyyahları Jal İoniş, Afonso Qonsalviş Baldaya, Antan Qonsalviş, Nunu Triştan, Lansaroti Pisanya, Diniş Diaş, Alvaru Fernandiş

və Ayriş Tinokunun ekspedisiyaları yalnız Afrikanın şimal-qərb sahillərini tədqiq etməklə məşğul olublar və onlar azacıq da olsun qitənin sahillərindən kənara aralanmayıblar.

Okeana çıxıb naməlum torpaqları kəşf etmək üçün coğrafiyaşünasların, xəritəşünasların, riyaziyyatçıların, astronomların, naviqatorların, iqlimşünasların elmi nəzəriyyələrinə böyük ehtiyac duyulurdu. Ona görə də onların hər hansı bir elmi işi, həmişə səyahəti təşkil edənlərin və səyahətə çıxanların marağında olubdur.

XV əsrdə yaşayıb fəaliyyət göstərmiş astronomiya, tibb, coğrafiya, riyaziyyat sahəsində məşhur olan florentsiyalı alim Paolo del Pottso Toskanelli (1397-1482) nəinki Apennin yarımadasında yerləşən krallıqlarda, hətta bütün Avropada alimlər arasında nüfuz sahibi sayılırdı.

Ona şöhrət gətirən II əsrdə yaşamış yunan alimi Klavdi Ptolemeyin **“Coğrafiya”** əsərinin latın dilinə tərcümə edilməsidir, bütün Avropada tanıtdıran isə 1474-cü ildə ildə tərtib etdiyi məşhur dünya xəritəsidir. Paolo Toskanelli Portuqal kralı V Alfonsa Yerin kürə şəkildə olmasını və Hindistana qərb yolu ilə getməyin mümkünlüyünü bildirir: *“Mən bilirəm ki, Yer kürə şəklində olan halda bu yolun mövcudluğu təsdiq oluna bilər. Lakin buna baxmayaraq işinizi yüngülləşdirməkdən ötrü mənim tərəfimdən*

*tərtib olunan xəritəni sizə göndərirəm. Həmin xəritədə qərb istiqamətində üzməyin marşrutu, istədiyiniz adalar və sahillər göstərilib, hansı yerə gedəcəyiniz də qeyd edilibdir. Ekvatordan və qütbdən də nə qədər aralı üzəcəyiniz göstərilibdir. Təəccüblənməyin ki, ədviyyatların harada bitməsini və daş-qaşların olduğu ölkələri mən qərbdə göstəririrəm, halbuki hamı həmin yerləri şərq deyə adlandırırlar. Əgər quru torpaqla getsələr, onda dediyim yerə şərq istiqamətində çatmaq olar..."*





***Paolo del Pottso Toskanelli (1397-1482)***

***Paolo Toskanellinin 1474-cü ildə tərtib etdiyi dünya xəritəsi (rekonstruksiya)***

Katolik kilsənin qəzəbindən çəkinməyən alim Yerin kürə şəklində olması ideyasını Ptolemeyin elmi nəzəriyyələrinə və xüsusən də **"Almagest"** əsərinə (Ptolemey **"Almagest"** əsərində Yerin sferik olmasını göstərmişdir) əsasən müdafiə edirdi. Bəzi alimlər isə qeyd edirdilər ki, Hindistana qərb istiqamətində gedəndə yolda bir və ya bir neçə materiklə üzləşmək olar.

Bu məsələyə xüsusi diqqət yetirmək lazımdır. İlk növbədə bilmək lazımdır ki, kral V Alfons alimin təqdim etdiyi ideyaya necə reaksiya verdi? Məlumdur ki, belə bir ciddi layihələr və ya ideyalar ortaya çıxanda, bunu riyaziyyatçı, kosmoqraf, coğrafiyaşünas və astronomların fəaliyyət göstərdikləri **"Riyaziyyatçılar Xuntası"**nda müzakirə olunaraq, həmin sənədin nə dərəcədə əhəmiyyətli olduğunu üzə çıxarırdılar. Necə ki, bir neçə ildən sonra Xristofor Kolumb öz layihəsini portuqal kralı II Juana təqdim edəndə, həmin layihə **"Riyaziyyatçılar Xuntası"**na verilmiş və oradan, mənfi cavab almışdı. Məhz həmin cavabdan sonra Atlantik okeanın qərb hissəsinə ekspedisiya təşkil etmək üçün ona gəmilər verilməmişdi.

Toskanellidən 10 il sonra, daha dəqiq 1484-cü ildə həqiqətən də buna azacıq oxşar layihəni Kolumb portuqal



***Kral V Alfons***

kralı II Juana təqdim edir. Hindistana qərb yolu ilə get-məyin mümkün olduğunu qeyd edən genuyalının fikri sadə idi. Yerin kürə şəkilində olması və bu kürənin böyük hissəsinin quru torpaq – Avropa, Afrika və Asiya qitələri ilə üstünlük təşkil edir. Bunu nəzərə alanda Avro-panın qərb sahili ilə Asiyanın şərq sahilləri arasındakı

məsafə xeyli qısadır; yəni, qısa müddət ərzində Atlantik okeanını qərb yolu ilə üzməklə gedib Hindistana, Çinə və Yaponiyaya çıxmaq olar. Bu cür təsəvvür Kolumbun yaşadığı dövrdəki coğrafiyaşünasların təsəvvürlərinə uyğun gəlirdi.



***Orta əsrlərdə avropalıların arzusu sayılan Hindistan***

Paolo Toskanellidən əvvəl belə bir səyahətin reallığı barəsindəki fikri Aristotel, Böyük Pliniy, Strabon və Plutarx kimi dahilər bölüşdürürdülər. Orta əsrlərdə isə Vahid okean nəzəriyyəsini kilsə də qəbul etmişdi. Bu cür nəzəriyyəni İslam dünyası, o cümlədən, onun məşhur

coğrafiyaşünasları əl-Məsudi, əl-Biruni, İdrisi bölüşdürürdülər.

Atlantik okeanında yeni əraziləri mənimsəyən Portuqaliya gələcəkdə güçlü olan qonşusu ilə münaqişə yaranmasın deyə, İspan krallığı ilə müqavilə imzalamağı qərara alır. Roma papasının iştirakı ilə rəsmi müqavilə olmasa, İspaniya heç bir şeyə məhəl qoymadan Portuqaliyanın Atlantik okeanındakı ekspedisiyalarının sərbəst fəaliyyətinə maneəçilik törədər və kəşf edilmiş torpaqlara qarşı ərazi iddiası qaldıra bilərdi. Onlar 1479-cu ildə rəsmi Madridlə Alkasovasda müqavilə bağlayırlar. Həmin müqaviləyə əsasən, Cənubi Atlantika portuqalların nəzarəti altına keçir, ispanlar isə yalnız Kanar adalarında öz hegemonluqlarını saxladılar. 21 iyun 1481-ci ildə Roma papasının **"Aeterni Regis"** bullasına əsasən, İspan kralları Ferdinand Araqonlu və İzabella Kastiliyalı Portuqaliyanın xeyrinə Kanar adalarından cənubda yerləşən bütün məlum olan və məlum olmayan torpaqlardan imtina edirdilər. Yəni, ispan gəmiləri kəşfiyyat işləri ilə bağlı Şimal yarımkürəsinin 28-ci paralelindən aşağı enməməliydilər.

## Alonso Sançes de Uelva və Xristofor Kolumb

Nəzəri olaraq Florida yarımadasının yarısı, Antil adaları, Meksika, Cənubi Amerika bütünlüklə Portuqaliyanın tabeliyinə keçir. Məhz **"Aeterni Regis"** qüvvəyə minəndən sonra tarixçilər qeyd edirdilər ki, 1481-ci ilə qədər Amerika qitəsi portuqal dənizçiləri tərəfindən kəşf edilmiş və bu kəşfi münasib vaxta kimi gizlin saxlamağı lazım bilmişdilər. Bu fikri XVI əsrin bütün səlnaməçiləri – Bartolome de las Kasas, Fransisko Lopes de Qomara, Qonsalo Fernandes de Ovyedo-i-Valdes müdafiə edirdilər, peruan səlnaməçisi Qorsilaso de la Veqa (Estremadural ı idalqonun və ink şahzadəsinin oğlu), hətta portuqal şkiperi Alonso Sançes de Uelvanı həmin kəşfi həyata keçirən bir dənizçi kimi onun adını dəqiqliklə göstərir. Bundan əlavə Jorj Blon, Fransisko-de-Qomara Alonso və başqaları Uelvanın X. Kolumbla görüşdüyünü də bildirirlər.



***Бартоломе де лас Касас (1484-1566)***

Tarixi mənbələrdə X. Kolumbun 1478-ci ildə Portuqaliyaya növbəti gəlişi göstərilir və o, bir neçə illiyə Madeyra adalarında məskunlaşır. Genuyalı dənizçi orada gələcək həyat yoldaşı Felipa da Perestrella ilə tanış olur və 1479-cu ildə onunla evlənir. X. Kolumb üçün həmin nigah göydən düşmə olur. Onun daxil olduğu evin sahibləri vaxtilə şahzadə Enrike Dənizsəyyahının və on-

dan sonra gələn kralların təşkil etdikləri ekspedisiyalarda yaxından iştirak etmişdilər. Felipanın atası əslən Lombardiyadan idi və iyirmi il əvvəl dünyasını dəyişmişdi. O, cavanlıqda Portuqaliyanın dəniz səyahətləri sayəsində göstərdiyi xidmətlərinə görə şahzadə Enrikenin əyanları sırasına qəbul edilmiş və Portu–Santu adasının qubernatoru (X. Kolumb evlənəndə isə Felipanın qardaşı həmin adanın qubernator vəzfəsinə yiyələnir) vəzifəsinə təyin edilmişdi.

Venetsiyalı tacir və dəniz səyyahı Alvize da Kadamostonun söylədiyinə görə Kolumbun qayınatası tanınmış müstəmləkəçi sahibkar olmuşdu. Portuqal dəniz səyyahlarının Atlantik okeanındakı müxtəlif səyahətlərinə dair bir çox sənədlər Kolumbun əlinə keçir. Adı çəkilən okeanın qərb hissəsinin tədqiqi ilə bağlı layihənin hazırlanmasında, həmin sənədlər müəyyən mənada yardımçı olmuşdu.

Xristofor Kolumb praktiki naviqasiya üzrə ilk məktəbini elə Portu-Santuda keçir və oradan Azör adalarına səyahət edəndən sonra dənizçilik elminin kursunu, 1482 və ya 1483-cu ildə Afrikanın Qvineya körfəzinə gedən ekspedisiyalarda başa çatdırır. Qaynaqlarda göstərilir ki, Qvineya sahillərinə üzərkən Kolumb, qayınının onun haqqında Portuqaliya kralına göndərdiyi təqdimatına əsasən,

iki gəminin komandanı təyin edilir və o, həmin səyahət zamanı, Diyeqo de Azanbujun Qvineya körfəzinin sahillərində saldırdığı San-Jorji-da-Mina fortuna kimi gedib çıxır.

Təxminən 1484-cü ildə Nyebla qraflığının Uelva məntəqəsindən olan Alonso Sançes Uelvalı sahibi olduğu böyük olmayan bir gəmisi ilə İspaniyadan Kanar adalarına müəyyən mallar daşıyırdı. Kanar adalarında meyvə doldurub Madeyraya aparır, oradan isə şəkər və mürəbbə yükü ilə İspaniyaya gedirdi. Belə bir üçkünc marşrutu ilə üzən Alonso Sançes Kanar adalarından Madeyraya gedəndə, yolda gözlənilmədən şiddətli qasırğa ilə üzləşir. O, müqavimət göstərməkdə aciz olduğu üçün həmin qasırğanın əhatəsində, 28 və ya 29 gün getdiyini bilmədən... okeanda naməlum bir adaya yan alır. Güman edilir ki, bu indiki Santo-Dominqo adlandırılan ada idi. Kanar adalarında başlanan qasırğa (şərq küləyinin) solanonun istiqamətilə hərəkət etdiyindən və Santo-Dominqo həmin enlikdə yerləşdiyindən belə qənaətə gəlmək olur.[1]

Bir dəfə tale Portu-Santunun sahilinə qəzaya uğramış gəmini çıxarır. Bir neçə sağ qalmış dənizçinin arasında

---

[1] Горсиласо де ла Вега. Текст воспроизведен по изданию, История государства Инков. Л. «Наука». 1974. стр. 16-17.

tamamilə zəifləyib əldən düşmüş şturman Kolumbun diqqətini özünə cəlb edir. Matrosun biri sayaqlamış vəziyyətdə aramsız mahnı oxuyan rəngarəng quşların mahnılarından, naməlum heyvanlardan və qaradərili adamlardan danışırdı. Gəmi isə qərbdən gəlib sahilə çırpılmışdı. Diqqətlə qulaq asan Xristofor Kolumb həmin an can verən şturmanı evinə aparmaq üçün göstəriş verir. O, bacardıq qədər şturmanın qulluğunda durur və onun adının Alonso Sançes de Uelva olduğunu öyrənir. Özünə gələn dənizçi başına gələn odisseyanı Kolumba danışır. Fırtına zamanı onlar Qaranlıq dənizində (həmin dövrdə Atlantik okeanını belə adlandırırdılar – R. D.) azır və gəlib məftunedici bir adaya çıxırlar. Sançes öz xilaskarına xəritədə adanın harada olduğunu göstərir və ora getmək üçün hesablamaları verir.[1] Lakin həmin söhbətdən sonra Sançes dünyasını dəyişir. Sahilə yan alan o biri dənizçilər də qısa müddət ərzində vəfat edir, şturman isə Kolumbun evində ölür.[2]

Alonso Sançes de Uelvanın okeandakı macərası barəsində Peruan səlnaməçisi Qorsilaso de la Veqa qeyd edir ki, tarixçı Fransisko Lopes de Qomara **“Hindistanın**

[1] Жорж Блон, «Атлантический океан», стр. 15.

[2] Франциско-де-Гомара. «Общая история Индий», 1552 г., XIII глава, «Первая открытия Индии».

**ümumi tarixi”** əsərində tam olmasa da, lakin yığcam məlumat veribdir. İnk şahzadəsinin oğlu həmin yazıya dair belə bir irad bildirir: “De Qomara bu haqda sahildə



***Qorsilaso de la Veqa (1539-1616)***

gəzişən, Yeni Dünya sahillərində olmuş cəmiyyətin sıravi təbəqəsində - dənizçi və mülki şəxslərdən, özü isə Uelvanın qeyri-adi səgüzəştləri ilə bağlı söhbətləri atasından və atasının yanında olmuş yüksək vəzifəli şəxslər-

dən, o cümlədən, saraya yaxın olan adamlardan eşitmişdir”.

Belə bir tarixçəni ilk dəfə yepiskop Cozef Akosta danışıbdır. O, Peruda olarkən eşidir ki, hansısa bir matros okeanda baş verən güclü qasırğanın təzyiqi ilə gedib Yeni Dünya sahillərini kəşf etmiş və oradan Madeyraya gələndə Kolumbun ona göstərdiyi hörmətə görə, həmin hadisəni genuyalıya ərz etmişdi. Kolumb isə öz növbəsində bu barədə bir neçə yaxın adama, o cümlədən, saraydakı əyanlara danışmış və onlar da ekspedisiyanın təşkil edilməsində ona yardım göstərmişdilər.[1]

Yeni Dünya sahilləri kəşf ediləndə İspan monarxları tərəfindən Kolumba verilən vədlər həyata keçirilməliydi. Yola düşməzdən əvvəl, həddindən artıq böyük imtiyazlar istəmiş genuyalı dənizçiyə maneələr törətməyə başladılar. Yəni, nəticə etibari ilə Kolumb həmin imtiyazlara qismən sahib olur. Saraya yaxın olan adamlar, birinci səyahətdən sonra admiral titulu alan genuyalını monarxların gözündən salmaq üçün, ona qarşı intriqalar yaratmışdılar.

---

[1] Горсиласо де ла Вега. Текст воспроизведен по изданию, История государства Инков. Л. «Наука». 1974. стр. 17-18.



***Alonso Sançes de Uelva***

Amerikanın kəşfi ilə bağlı konkistadorlar arasında belə şayiə gəzirdi ki, guya oranı Alonso Sançes (Uelva – R.D.) adlı bir nəfər kəşf edibdir. Bu ona görə edilirdi ki, həmin dövrdə Kolumbun varisləri ilə Kastiliya taxt-tacı arasında vərəsəlik davası (1510-1550) gedirdi. Məhz bu səbəbdən kral məmurları okeanın o tayındakı ərazilərin

kəşfini Kolumbun yox, tamamilə başqa bir nəfərin adı ilə bağlamağa çalışırdılar.[1]

## Əldə edilən uğur fəlakətlə nəticələnəcəkdi

Xristofor Kolumba qarşı düşmənçilik mövqeyində duran tarixçilər iddia edirlər ki, ola bilsin, gücbəla ilə fəlakətdən qurtulan həmin şturman qərbdə olduğu üçün, II Juan həmin ərazilərin kəşf edilməsini məhz ona həvalə edəcək. Bundan ehtiyat edən Kolumb, bu məsələdə rəqib olmasın deyə, həmin adamı zərərsizləşdirir. Axı, necə olsa da Atlantikanın qərb hissəsində yerləşən ərazilərin tədqiq edilməsi ilə bağlı məhz genuyalının özü layihə hazırlamışdı.

Bu çox qərəzli fikirdir. Ona görə ki, həmin dənizçilər sahilə yan alanda Kolumbdan başqa orada çox adam olubdur və sorğu-suallar bir neçə adamın yanında aparılmışdı. Peruan səlnaməçisi Qorsilaso de la Veqa, Fransisko Lopes de Qomara, Jorj Blon Uelvanın adını çəkməklə və onun Kolumbla görüşdüyünü qeyd etməklə, heç də

[1] Путешествие Христофора Колумба. М., 1956. Свет Я. Колумб. 1973.

məşhur dəniz səyyahının şərəf və ləyaqətini alçaltmaq istəməmişdilər. Sadəcə olaraq dolayısı yolla vurğulamaq istəmişdilər ki, genuyalı dənizçi gələcəkdə transatlantik səyahətini həyata keçirmək üçün guya Uelvadan lazımi məlumatlar almışdı. Əslinə isə qalanda Kolumb kimi dənizçilik sənətinə həm nəzəri, həm də praktik cəhətcə yiyələnən bir naviqator heç vaxt belə bir qeyri-ciddi, dəqiqləşdirilməmiş məlumata inanmazdı. Çünki o, əmin idi ki, özünün nəzərdə tutduğu iri torpaq ərazisi Madeyra adalarından həddindən artıq uzaqda yerləşir və həmin yerin koordinatlarını təxmini olsa da bilməyəndə, ora gedib çıxmaq mümkün deyil. Sadəcə olaraq Alonso Uelva bir qədər aralıda olan hansısa ada ilə üzləşə bilərdi – bu çox güman ki, Yaşıl Burun adalarından biri olardı.

Qəribəliklərlə dolu olan həmin iddia Kolumbun taleyinə qaranlıq gətirə bilməz. Ona görə ki, Qorsilaso de la Veqanın kitabında göstərilibdir ki, Alonso Sançes qasırğaya düşəndə 28-29 gün naməlum istiqamətində, elə qasırğanın təsiri ilə üzmüş və çox güman ki, indiki Santo-Dominqo adasının sahilinə çıxmışdı. Belə bir dəqiqlik onda haradan ola bilərdi? Onda belə çıxır ki, qərb istiqamətində qovulan gəmi Qolfstrim cərəyanına düşmüş və çox asanlıqla da həmin cərəyanın caynağından qurtara bilmişdi? Bu nədənsə inandırıcı görünmür. Ona görə ki,

belə olsaydı, onda Kolumbun birinci səyahətinə qədər portuqalların Atlantikanın qərb hissəsində yerləşən naməlum torpaq ərazisi çoxdan kəşf olunardı. Necə olsa da həmin torpağın aşkarlanması üçün portuqallar okeanın məhz həmin hissəsinə Voqadonun, Tellesin, van Olmenin və başqalarının başçılığı ilə ekspedisiyalar göndərilmiş və heç bir səyahət uğurla nəticələnməmişdi.



***Fransisko Lopes de Qomara (1511-1566)***

Böyük və Kiçik Antil adalarının qarşısında baryer rolunu oynayan Qolfstrim cərəyanı Atlantikanın şərqində gələn hər bir nabələd gəmini caynağına alıb, dolayısı yolla həmin nəqliyyat vasitəsini, aparıb Avropa sahillərinə çıxara bilərdi. Ona görə ki, həmin dövrdə okeana çıxan hər bir gəmi hərəkət edərkən, istər-istəməz kurs üzrə hərəkət edən cərəyana daxil olub və müəyyən bir məsafəni qət etmək üçün məhz okean çayının köməyindən istifadə edirdi. Deməli, Şimal Yarımkürəsində şərqdən qərb istiqamətində fəaliyyət göstərən Şimali-Passat cərəyanından istifadə edən hansısa bir kapitan tabeliyində olan gəmini tanımadığı Karib dənizi akvatoriyasına aparıb çıxara bilməzdi. Çünki Şimali-Passat Atlantikanın həmin enliyində bir qədər şimala doğru qalxır və orada Qolfstrimlə birləşir.

Əgər, verilən məlumatlara inansaydıq, yəni, Uelvanın məlumatı Kolumbun layihəsinə müsbət təsir göstərsəydi, onda genuyalı birinci səyahəti zamanı Avropa sahillərini tərk edən kimi ekvatora yaxın bir yerdə, elə Cənubi-Passat cərəyanı ilə birbaşa Cənubi Amerika sahillərinə gedib Braziliyanı kəşf edərdi. Bu, qərbdə yerləşən materiki kəşf etmək üçün ən asan yol sayılırdı. Həm də vaxtilə Qvineya sahillərində üzmüş Xristofor Kolumb həmin cərəyanın mövcudluğundan hali idi.

Gəmiqayırma, naviqasiya, coğrafi biliklərin inkişaf edilməsi Böyük coğrafi kəşflərdə yüksək nailiyyətlərin əldə edilməsinə gətirib çıxarıbdır. Uzun məsafəli səyahətləri həyata keçirmək üçün təcrübəli və bacarıqlı dənizçilər lazım idi. Zamanına görə həmin kriteriyalar Kolumbda vardı. Çox güman ki, o, (Kolumb – R. D.) sistematik təhsil almış, müəyyən bacarıq keyfiyyətlərinin sayəsində hər şeyə maraq göstərən adam kimi, dövrünün coğrafi elminə yiyələnmiş, xəritəşünaslıq və naviqasiyadan yaxşı başı çıxırdı... o, Portu-Santu adasında portuqal dənizçinin qızı ilə evlənmiş və qayınatasından miras qalan dəniz xəritələri və gündəliklərini əldə edir.[1]

Yəni, bildirmək istəyirəm ki, bir çox namizədlərə nisbətən Kolumb transatlantik səyahətinə ciddi-cəhdlə hazırlaşmış və bunu çox böyük uğurla həyata keçirmişdir. Onun Alonso Uelvanın köməyinə heç bir ehtiyacı yox idi. Çünki o, əvvəlcədən yəni, 1484-cü ilə qədər öz layihəsini hazırlamağa başlamış və orada düzəlişlər etmək fikrində də deyildi. Mən, **“Əsrləri qabaqlamış alim – Nəsirəddin Tusi”** əsərində bu haqda dürüst

[1] История средних веков. Абрамсон М. Л., Кириллова А. А., Колесницкий Н. Ф. и другие. Под редакцией Колесницкого Н. Ф. – 2-е издание. исп. и доп. – М., «Просвещение». 1986. 393 стр.

məlumat vermişəm və axıra qədər də həmin ideyanın üzərində duracağam, hansında ki, Kolumbun məhz Nəsirəddin Tusinin Marağa rəsədxanasında tərtib etdiyi **“Zic Elxani”** astronomik kataloqundan istifadə etdiyini cəsarətlə qeyd etmişəm.

Braziliyanın həqiqi kəşfini kənara qoyanda, yəni, indiki yanlış saydığım rəsmi xəbərlərə istinad etsəm, onda deyə bilərəm ki, həmin ərazinin ilkin kəşf edilməsi yenə də İspaniyanın payına düşür. Lakin fransız tarixçiləri zənn edirlər ki, 1488-ci ildə onların həmyerlisi Jan Kuzenin gəmisi fırtına zamanı təsadüf nəticəsində Braziliya sahillərinə yan alır. Əlbəttə buna inanmaq çox çətindir, ona görə ki, həmin dövrdə fransızların gəmiləri portuqalların və ispanların qorxusundan nəinki ekvator xəttinə yaxın bir yerə, ümumiyyətlə Afrikanın şimal-qərb sahillərinə yaxınlaşmırdılar.

Kabraldan əvvəl Braziliyanın kəşf edilməsi ideyasını müdafiə edən alimlər demək olar ki, iki yerə bölünübdür. Əksəriyyəti bildirir ki, Kolumb hələ birinci səyahətinə yola düşməmişdən bir neçə il əvvəl portuqalar Braziliya sahillərində peyda olublar, az bir qismi isə qeyd edirlər ki, həmin ərazi 1492-ci ildən sonra Lissabon rəsmilərinə məlum idi. Bunu araşdırmaq üçün mən, ilk növbədə Kolumbun Lissabonda olan fəaliyyətini önə gətirdim.

Hadisələrin gedişatı ondan xəbər verir ki, Kolumb birinci səyahətindən evinə dönəndən sonra portuqalları Braziliya sahillərinə getmək üçün silkələmişdi. Yəni, məhz Kolumbdan sonra kral II Juan məxfi ekspedisiyanın yola düşməsinə qərar verməli olmuşdu.

## Ferdinand Van Olmen və Kolumbun transatlantik layihəsi

Kolumb Portuqaliyada yaşayarkən, 1484-cü ilin əvvəlində tərtib etdiyi transatlantik layihəsini kral II Juana təqdim edir. Lakin layihənin verildiyi vaxt Portuqaliyanın monarxı üçün münasib deyildi. Ona görə ki, kral ölkədə maqnatların xəyanətkarlıqla qaldırdıqları qiyamı yatızdırmaqla məşğul idi. Bundan əlavə onu başqa səyahətlərə nisbətən, yalnız Afrikanın qərb sahillərinə nəzərdə tutulan ekspedisiyalar maraqlandırırdı.

Məlumdur ki, Kolumb gələcəkdə təşkil olunacaq ekspedisiyanın uğurla nəticələnəcəyi halda və xidmətlərinə görə kraldan həddindən çox imtiyazlar istəmişdi. O qədər

imtiyazları hər hansı bir kraldan istəmək, sadəcə olaraq sırtıqlıq sayılırdı. Ona qədər heç kim, hətta vətən qarşısında böyük xidmətləri olan tanınmış zadəganlar kraldan belə bir imtiyazlar istəməmişdilər. Genuyalının tələbləri nədən ibarət idi? O, məlum olan okeanın baş admiralı olmaq, zadəgan rütbəsi, kəşf edəcəyi torpaqların vitse-kralı vəzifəsini, həmin torpaqlardan əldə olunacaq gəlirin onda bir hissəsini, kəşf edəcəyi yeni ölkələrdə təşkil olunacaq ticarətdən gələn verginin səkkiz faizini və qızıl mahmızlar istəmişdi. Krallığının tanınmış zadəganlarını ciddi nəzarət altında saxlayan II Juan, heç vaxt belə bir imtiyazları kiməsə verməzdi.

Məni həmin hadisədə bir şey maraqlandırır, II Juan bu qədər ciddi, tələbkar və sərt fikirli monarxdırsa, onda nəyə görə o, birbaşa Kolumba rədd cavabı verməmişdi? Birinci olaraq onun layihəsinə alimlər rəy verməliydilər. Kolumbun layihəsi, Seutanın arxiyepiskopu Diyeqo Ortis de Villeqasın rəhbərliyi altında, Portuqaliyanın ən istedadlı və bacarıqlı alimlərin, riyaziyyatçıların fəaliyyət göstərdikləri kiçik Lissabon akademiyasına – **"Riyaziyyatçılar Xuntası"**na – verilir. Bu təşkilatın bir neçə üzvü yəhudi alimləri idi; o dövrün astrolyabiyasını və sektantını təkmilləşdirmiş usta Rodriqo və naviqasiya astronomiyasının ustası Xose Vitsinqo. Adı çəkilən adamlar

dəqiq bilirdilər ki, layihədə göstərilmiş uzunluq barəsindəki ölçülər və həmin ölçülərə dair verilmiş məsafələr düzgün ola bilməz. İş ondadır ki, onların da Yer kürəsinin uzunluğunun dəqiq ölçüsü yox idi, lakin buna baxmayaraq həmin alimlər əmin idilər ki, elə Kolumbun da ortaya qoyduğu hesablamalar düzgün verilməyibdir.



***Xristofor Kolumb (1451-1506)***

Dəqiq bilinmir həmin şura hansı qərar verir, lakin o məlumdur ki, 1485-ci ildə çıxarılan qərar gözlənildiyi kimi Kolumbun xeyrinə olmayıbdır. Elə həmin ildə genuyalının həyat yoldaşı vəfat edir və o, İspaniyaya getməyi qərara alır.

Genuyalı dənizçi Lissabonu tərk edən kimi kral II Juan onun dediklərini yoxlamaqdan ötrü, Atlantik okeanının qərb hissəsinə ekspedisiya təşkil etməyi qərara alır. Kral və onun müşavirləri bu məsələdə yekdil fikirə gəlirlər.

Həmin dövrdə nəinki Pireney yarımadasında, hətta Avropanın tərkibinə daxil olan bir çox ölkələrdə Atlantik okeanının qərb hissəsində yerləşən **"Yeddi şəhər adası"**ndan, Xaldat və Antiliya adalarından çoxlu söz-söhbətlər gəzirdi. Portuqal dəniz səyyahları həmin adaların axtarılıb tapılması üçün bir neçə ekspedisiya təşkil etmişdilər.

Xaldat və ya Səadət adalarının harada yerləşməsi qədim və orta əsr alimlərini həddindən artıq çox maraqlandırırdı. Bəzi alimlər, xüsusən də görkəmli Azərbaycan alimi, Marağa rəsədxanasının banisi Mühəmməd Nəsirəddin Tusi (1201-1274) həmin adaların Qrinviç meridianından $35^0$ qərb istiqamətində yerləşdiyini bildirirdi.




***Portuqal kralı II Juan***

Bu məsələ ilə ciddi maraqlanan ingilis alimi Q. R. Kaye **"Hindistan astronomiyası"** əsərində göstərir ki, Səadət adaları Qrinviçdən $35^0$ qərbdədir.[1]

Maraqlıdır, Q. R. Kaye nəyə görə belə fikirdə olmuşdur? Həm qədim, həm də orta əsr alimlərinin əksəriyyəti

[1] Г.Р. Кауе «Индийская астрономия» 1924, стр. 52

üçün Səadət adaları Atlantik okeanının qərb hissəsində təsəvvür edilirdi.

Xorezm dövlətində yaradılan Məmun akademiyasının görkəmli alimi Əbu Reyhan Biruni (973-1048) bu haqda yazır: "Bəzi alimlər başlanğıc uzunluğunu Səadət adalarından, bəziləri isə Qərb dənizinin sahilindən hesablayırlar. Bunların arasında fərq $10^0$-dir".

Həmin adalar barəsində İspaniyada yaşamış ərəb coğrafiyaşünası Əli ibn əl Məğribi əl Əndəlüzi, Suriya alimi Marağa rəsədxanasının əməkdaşı Qriqori əbül Fərəc, həmin rəsədxananın görkəmli alimi Qütbəddin Şirazi, XIII əsrin məşhur coğrafiyaşünası və tarixçisi Mahmud Qəzvini, XIV əsrin tanınmış ərəb alimi Hərrani həmin adalar barəsində müxtəlif elmi fikirlər söyləmişdilər.

Hərrarinin açıqlaması daha maraqlıdır: "O ki qaldı Qərb torpağına, o Qərb zülmət bəhr - mühitindən başlayır. Bu elə dənizdir ki, onun o biri tərəfində heç kəs olmamış və bilmir ki, bunun ardında nə var. Burada külli-miqdarda üzərində həyat olan adalar vardır. Bunlardan ikisinə cəzair Xaldat deyilir. Bunların ikisi ən böyük adadır".

Ərəb aliminin bu fikri, N. Tusi elmi-irsini araşdırmış professor Həbibulla Məmmədbəylini heyrətləndirmiş və

o, bu məsələyə dair öz fikrini belə izah etmişdir: "Hərrarinin belə bir qeydi doğrudan da diqqəti cəlb edir, o həm Qərb torpağı, həm də Antiliya adaları haqqında danışır. Orta əsrlərdə Qərb dənizi, Qərb bəhr – mühiti və ya Zülmət dənizi dedikdə, Atlantik dənizini düşünürdülər. Hərrarinin dediyi adalar Atlantik dənizində yerləşmiş Kanar, Azör, Yaşıl Burun adaları və ya Antiliya adaları ola bilər. Kanar, Azör, Yaşıl Burun adaları ona görə sıradan çıxır ki, bunlar külli miqdarda olan adalardan ibarət deyildir və bundan başqa həmin adalar öz böyüklükləri etibari ilə bir-birindən çox az fərqlənir. Antiliya adalarına gəldikdə isə bunların sayı həqiqətən də çoxdur.

Bunlardan ikisi; yəni, Kuba və Haiti adaları o birilərinə nisbətən olduqca böyükdür...

Deməli, Hərrarinin dediyinə görə ancaq Kuba və Haiti adaları cəzair Xaldatdır..."[1]

Bir halda ki, XIV əsrin əvvəlində Hərrani Antiliya adaları haqqında danışmışdır, onda sonrakı coğrafiya ədəbiyyatlarında, xüsusilə xəritələrdə Antiliya adaları haqqında məlumatlar olmalıdır.

[1] H. C.Məmmədbəyli, Mühəmməd Nəsirəddin Tusi. Bakı, "Gənclik", 1980. səh.160-161.

Keçmiş alimlər Antiliya adalarının yalnız Asiya qitəsinin şərqində yerləşdiyini göstərmişdilər. Həqiqətən də adı çəkilən adaları göstərilən xəritələr Avropada geniş şəkildə yayımlanırdı.

İtalyan xəritəşünası Fransisk Pitsiano 1367-ci ildə Antiliya adalarını göstərməklə xəritə tərtib etmişdi. Hazırda həmin xəritə Parmanın İtaliya kitabxanasında saxlanılır. Naməlum bir xəritəşünas 1424-cü ildə xəritə tərtib etmişdi və həmin xəritə Almaniyanın Veymar şəhərindəki kitabxanada saxlanılır. Xəritəni alman alimi Humboldt tətqiq etmişdi. Fransız xəritəşünası Battista Bekkariya 1435-ci ildə xəritə hazırlamışdı. Həmin xəritədə Antiliya adı ilə bərabər onun sinonimi Stanahiya sözü də qeyd olunmuşdu. İtalyan xəritəşünası Andrea Biankini 1436-cı ildə, Antiliya adaları göstərilmiş Böyük Venetsian xəritəsini yaratmışdı. İtalyan alimi Paolo Toskanelli 1474-cü ildə tərtib etdiyi xəritədə Antiliyanı Atlantik okeanının mərkəzində göstərmişdir.

## Atlantikanın qərbində axtarılan torpaqlar

Əlbəttə ki, adları çəkilən xəritələrin tam əksəriyyəti Avropa alimləri tərəfindən müzakirə obyektinə çevrilirdi. Alimlər dəqiq bilirdilər ki, Köhnə Dünyadan qərb tərəfdə yerləşən Atlantik okeanının sahilləri sonsuz deyildi və uzaq qərbdə həmin okeanda böyük torpaq ərazisinin mövcudluğu heç kimdə şübhə doğurmurdu. Lakin maraqlandıran sual o idi ki, həmin ərazi Avropa sahillərindən neçə kilometr aralıda yerləşir?

Bütün bunları da yoxlamaq lazım idi. Lakin həmin işi II Juan Kolumba yox, tamamilə başqa bir adama, Portuqaliyada Fernan de Ulmo adı ilə tanınmış fələməngli Ferdinand van Olmenə tapşırır.

Ona qədər həmyerliləri Azör adalarının birində qubernator olmuşdular. Elə van Olmen də səyahətə yola düşməmişdən əvvəl həmin adaların birində qubernator vəzifəsində işləmişdir. Həmin dövrdə Portuqaliyanın xidmətində olan bir çox dənizçilər, maliyyəçilər, tacirlər öz pullarına bir çox ekspedisiyalar təşkil edirdilər; məsələn porrtuqaliyalı Kortereal qardaşlarının 1500, 1502 və 1506-cı illərdə təşkil etdikləri ekspedisiyalar buna bariz nümunədir. S. Morison, Ç. Verlinden, Vadim Magidoviç

və İosif Magidoviç öz elmi əsərlərində qeyd edirlər ki, "Van Olmen öz ekspedisiyasını təşkil edəndə, Madeyra adasından Estreyto adlı bir müstəmləkəçi ilə birləşir. Van Olmenin sözlərinə görə o, istəyirdi ki, Atlantik okeanın qərb hissəsində yerləşən bir neçə adanı və yaxud da bütöv bir qitənin sahilini kəşf etsin. Həqiqətən də kəşf etmək istədiyi ölkənin adı onun üçün qaranlıq qaldığından o, həmin yeri ənənəvi olaraq **"Yeddi şəhər adası"** adlandırırdı".

Əlbəttə ki, bu çaşdırıcı fikir sayılırdı. Çünki van Olmen birbaşa kralın tapşırığı ilə səyahətə yollanmış və Kolumbun layihəsini praktiki cəhətcə yoxlamalıydı.

Paolo Toskanellinin məşhur xəritəsi tərtib olunmamışdan əvvəl Portuqaliyanın hakim dairələri Atlantik okeanının naməlum qərb hissəsinə yetərincə diqqət yetirirdilər. Hamını bircə şey maraqlandırırdı, görəsən Atlantik okeanında Kanar, Madeyra, Azör və Yaşıl Burun adalarından qərb istiqamətində naməlum adalar yerləşir, ya yox? XV əsrin ortalarında portuqallar bir neçə dəfə adı çəkilən adalardan qərb tərəfə səyahətlər təşkil etmişdilər. Kral V Alfons 1462-ci ildə Voqado adlı bir kəsə, qərb istiqamətində yerləşən təxminən iki adaya sahib olmaq üçün böyük imtiyazlar verir. Telles adlı digər dənizçi Antiliyanı və yaxud da **"Yeddi şəhər adası"**nı axtarırdı. Bir

çoxları onların ardınca səyahətə yollanır, amma heç kim müvəffəqiyyət əldə edə bilmir.

Həmin dövrdə Portuqaliyada belə bir şayiələr gəzirdi, heç bir adanı yaxından kəşf etmək mümkün deyilsə, lakin uzaqdan həmin adaları görmək olur. Əlbəttə ki, belə bir qeyri-ciddi fikirə inanmaq olmaz. İşdir, həqiqətən də okeanda adalar qrupu görmək olsaydı, onda kral V Alfons həmin adaları tədqiq etməkdən ötrü heç olmasa bir dəfə ekspedisiya göndərərdi. Artıq heç kimdə, okeanın qərb hissəsində (yuxarıda adı çəkilən məlum adaların yaxınlığında) adaların yerləşməsinə dair şübhələr qalmamışdı. Bu fikri Kolumbun özü də bölüşdürürdü. Bütün bunlara baxmayaraq o, inanırdı ki, okeanın demək olar ortasında Mifik Antiliya və ya başqa adalar var. Genuyalı dənizçi Toskanellinin məktubuna əsaslanaraq belə düşünürdü. Asiya qitəsinə qərb yolu ilə üzərkən, okean keçidi zamanı həmin adalardan dayanacaq kimi istifadə etmək olar.

Van Olmen həm Voqadonun, həm də Tellesin səyahətlərinin nəticələri ilə tanış idi və çox yaxşı bilirdi ki, Hindistana qərb yolu ilə üzərkən, yolda heç bir adalardan istifadə edə bilməyəcək və təşkil etdiyi ekspedisiya yolda böyük çətinliklərlə üzləşəcək. Məhz bu səbəbdən II Juan




***Paolo Toskanellinin məşhur xəritəsi və Orta Amerikanın əsl təsviri***

ekspedisiyanın təşkilinə icazə versə də, səyahət zamanı tam uğur qazanılmasına şübhə ilə yanaşırdı. Yoxsa, həmin ekspedisiyanı o, öz puluna təşkil edərdi.

Ekspedisiya uğurlu keçəcəyi halda kral 1486-cı ildə van Olmenə bir çox imtiyazlar verir. O, həmin espedisiyanı öz hesabına hazırladığından belə bir addım atılmışdı.

**"Riyaziyyatçılar Xuntası"**ndan krala bildirirlər ki, Xristofor Kolumb öz layihəsini Paolo Toskanellinin Yer kürəsinin verdiyi hesablamalar sayəsində tərtib edibdir. Məhz buna görə də van Olmen Atlantik okeanında həmin hesablamalara uyğun olaraq axtarışlar aparmalı idi. Çox güman ki, genuyalının layihəsi **"Riyaziyyatçılar Xuntası"**nda olanda, orada həmin sənədin surəti köçürülmüş və sonradan van Olmenə ötürülür.

1487-ci ilin yaz fəsilində van Olmen iki karavella ilə səyahətə başlayır. O, Atlantik okeanını 40 gün müddətinə qət edəcəyini nəzərdə tutur. Xatırlatmaq istəyirəm ki, 1492-ci ildə Kanar adalarından Baham adalarına kimi olan məsafəni Kolumb 36 gün müddətinə qət etmişdi. Fələməngli dənizçinin bəyanatı professor Çarlz Verlindenə məlum olanda o, heyrətini gizlətmədən bildirmişdi ki, 1486-cı ilə qədər portuqal dənizçiləri məxfi şəkildə Atlantik okeanının qərb hissəsinə ekspedisiyalar təşkil

etmiş və təxmini də olsa, okeanın o tayında hansı adaların və ya naməlum qitənin harada yerləşdiyini bilirdilər.[1]

Şəxsən mən Çarlz Verlindenin bu fikri ilə razı deyiləm. Əgər, van Olmen təxmini də olsa bilsəydi ki, Köhnə Dünyaya məlum olmayan adalar və yaxud da ki, iri torpaq ərazisi Atlantik okeanın hər hansısa bir hissəsində yerləşir, onda çətinlik çəkmədən o, həmin coğrafi obyektləri kəşf edərdi. Həm də portuqal dənizçiləri Yeni Dünya sahillərinin şərq sahil zolağının konturlarına malik olsaydılar, onda Roma papası 1493-cü ildə öz bullası ilə Yer kürəsini iki krallıq arasında bölərkən, portuqal nümayəndələri təxmini də olsa öz mənafelərinə uyğun olaraq, demarkasion xəttin Atlantik okeanının hansı meridian üzrə keçməsini göstərməliydilər. Lakin bu baş vermədi. Məlum olduğu kimi portuqallar yalnız 1494-cü ildə Tordesilyasda öz istədiklərinə nail olurlar. Əgər, hər şey yuxarıda deyildiyi kimi olsaydı, onda II Juanın nümayəndələri demarkasion xəttin Yaşıl Burun adalarından qərbə tərəf 370 liq yox, Kolumbun kəşf etdiyi Antil adalarına kimi 470 liq çəkilməsini tələb edərdilər. Demə-

[1] Чарльз Верлинден, Покорители Америки: Христофор Колумб. “Феникс”, Ростов-на-Дону. 1997 г., стр.23.

li, portuqallar Atlantik okeanında Kanar, Madeyra, Azör və Yaşıl Burun adalardan qərbdə hər hansı bir adanın və ya iri torpaq ərazisinin mövcudluğundan xəbərsiz idilər. Van Olmenin okeanı 40 gün müddətinə qət etməsi fikrinə gəldikdə isə bunun səbəbini başqa bir şeydə axtarmaq lazımdır.

Kolumb Portuqaliyada olarkən bildirmişdi ki, Asiya qitəsinin şərq sahilinə çatmaq üçün Atlantik okeanını 30 gün və ya həmin müddətdən bir qədər artıq vaxta qət edəcək. Van Olmen də dolayısı yolla onun layihəsilə tanış olandan sonra həmin fikiri II Juan ilə bölüşdürmüşdü. Deməli, fələməngli dənizçinin başçılıq etdiyi ekspedisiya Paolo Toskanellinin tərtib etdiyi xəritədən əlavə, paralel olaraq Kolumbun hazırladığı transatlantik layihəyə əsasən səyahətə yollanmışdır.

Zəmanəsinin təcrübəli və bacarıqlı dənizçilərindən biri olan Xristofor Kolumb belə bir gedişatı gözləyirdi. Ona görə də o, yanlış rəqəmlərdən ibarət olan layihəsini təqdim etmişdi, həm də onun hamıdan gizlətdiyi (gələcəkdə "Kolumbun itmiş xəritəsi" hallanacaq) bir xəritə var idi ki, həmin materialı ən yaxın adamlarına göstərməyi belə lazım bilmirdi. Elə van Olmenin də səyahət boyu uğur qazanmamasının səbəbi bu idi.



*Kolumb transatlantik layihəsini müzakirə edir*

Nəzərdə tutulan səyahətə ciddi hazırlaşan fələmənglі dəniz səyyahı ekspedisiyanın Portuqaliya sahillərinə altı aydan sonra qayıdacağını planlaşdırırdı. Lakin nəticədə o, müvəffəqiyyət qazana bilmir. Van Olmenlə Estreyto-nun uğursuzluqla üzləşməsi, onların ilin münasib olma-yan vaxtında yola düşmələri və Kolumbdan fərqli olaraq,

okeanda hərəkət edən passatlardan lazımi şəkildə istifadə etməmələri ilə izah etmək olar.

Genuyalı dənizçinin müasiri olan, Yeni Dünya sahillərinin konkistadorlar tərəfindən işğal olunmasını ilk dəfə qələmə alan səlnaməçilərindən biri Bartolomeu de Las Kasas hekayələrinin birində Ernan de Olmosun (çox güman ki, o, Ferdinand van Olmeni nəzərdə tutur) səyahətindən xəbər verir. O, yazır ki: "həmin səyahət onu bir dəfə İrlandiyanın qərb sahillərinə, Kolumbun gələcəkdə qoyduğu marşrutdan xeyli şimala gətirib çıxarır".

Təəssüflər olsun ki, van Olmenə həmin səyahətdən qayıtmaq müəssər olmamışdı. Ç. Verlinden qeyd edir ki: "bütün bunlara baxmayaraq Amerikanı, Kastiliyanın xidmətində olan genuyalıdan qabaq, Portuqaliyanın xidmətində olan fələməngli kəşf edə bilərdi. Qərbin tarixi tamamilə başqa cür olardı. Əgər, Olmen öz məqsədinə nail ola bilsəydi, onda nəinki Braziliyada, hətta 17 latınamerikan respublikalarında danışıq dili portuqallara məxsus olacaqdı. Bəzən tarixin taleyi bir adamın taleyindən asılı olur!"[1]

[1] Чарльз Верлинден, Покорители Америки: Христофор Колумб. "Феникс", Ростов-на-Дону. 1997г., стр.24.

İş ondadır ki, II Juan Kolumbun təklifini qəbul etsəydi, onda hazırda Atlantik okeanının qərb hissəsində yerləşən keçmiş müstəmləkələrin əksəriyyətində portuqal dilində danışacaqdılar.

Hər iki ekspedisiyanın gedişatını analiz edəndən sonra qətiyyətlə deyə bilərəm ki, fələməngli dənizçiyə nisbətən Kolumb öz səyahətinə daha ciddi hazırlaşmış və zəhməti hesabına qarşısına qoyduğu məqsədə tam nail ola bilmişdi. Onun təşkil etdiyi ekspedisiya Atlantik okeanında uğur qazanandan sonra "**Riyaziyyatçılar Xuntası"**nın bütün üzvləri, uzun müddət həmin səhvi özlərinə bağışlaya bilməmişdilər.

Nəzəri cəhətcə mükəmməl hazırlaşan və dənizçilik işlərinə praktik iş qabiliyyətinə malik olan Xristofor Kolumb ispan monarxları Ferdinand Araqonlu və İzabella Kastiliyalının razılığı əsasında, 3 avqust 1492-ci ildə tərkibində 90 nəfərlik heyəti olan üç gəmidə - *"Santa-Mariya", "Pinta"* və *"Ninya"* – Palos limanını tərk edib, həmin ilin oktyabrın 12-də, cümə günü Baham adaları sisteminə daxil olan, indiki Uotlinq adasını kəşf edərək, oranı "San-Salvador adlandırır".

İspanlardan fərqli olaraq portuqallar, Kolumbun ümumiyyətlə, gedib Şərqi Asiyaya çıxmasına şübhə edirdilər. Bəzi alimlər admiralın getdiyi marşrutu təhlil edəndə

inana bilmirdilər ki, Yer kürəsinin dairə çevrəsinin uzunluğu bu qədər qısadır. Lakin İspaniyanın özündə də təklikdə fəaliyyət göstərən skeptiklər vardı.



***Xristofor Kolumbun ekspedisiyası birinci səyahətə yola düşür***

Mən belə qənaətə gəlmişəm ki, Xristofor Kolumb çətin ki, florentsiyalı kosmoqrafın dedikləri ilə razılaşsın. Məşhur dəniz səyyahı bu barədə, ilk növbədə Yer kürəsi çevrəsinin uzunluğunun ölçüsü ilə razılaşa bilmirdi. Deməli, Asiya qitəsi bilavasitə, Paolo Toskanellinin fikir-

ləşdiyi kimi Atlantik okeanında, Kanar adalarından 10000-12000 km. kənarda qərb istiqamətində yerləşmir. Lakin Kolumb fərdi şəkildə hesablamalar aparmışdı ki, Atlantik okeanının qərb hissəsində yerləşən quru ərazi Avropadan təxminən 4500-5000 km. aralıdadır. Belə çıxır ki, həmin torpaq Köhnə Dünyaya bəlli olmayan, tamamilə başqa bir torpaqdır. Dəniz səyyahı belə bir qənaətə təsadüf nəticəsində gəlməmişdir. Bu haqda mən, **"Əsrləri qabaqlamış alim Nəsirəddin Tusi"** əsərində geniş şəkildə göstərmişəm.

Həmin illərdə Barselonada yaşamış, kral sarayına yaxın olan italyan humanisti Pyetro Martire (Əzablı Pyotr), öz yerliləri ilə yazışmalar aparırdı. 1493-cü il noyabrın 1-də yazdığı məktubda belə ifadələr var: "Kolon (Kolumb) adlı birisi özünün bildirdiyi kimi, Hindistan sahillərinə qədər, qərb antipodlarının yanına gedib çıxıbdır. O, kosmoqrafların fikirləşdikləri kimi... şərq okeanının o tayında Hindistana yaxın bir yerdə yerləşən çoxsaylı adalar kəşf edibdir. Mən bu haqda iddia aparmaq istəmirəm, halbuki Yer kürəsinin ölçüsü, məndə başqa qənaət yaradıbdır".

Deməli, Xristofor Kolumb səyahətə yola düşməmişdən əvvəl və Paolo Toskanellinin Yer kürəsinin ölçüsü barəsində verdiyi hesabatlarının əksi olaraq, Pyetro Mar-

tire kimi başqa fikirdə idi. Söz yox ki, çoxsaylı elmi ədəbiyyatları nəzərdən keçirən Kolumb da Pyetro Martire kimi fikirləşə bilərdi.



***Xristofor Kolumb Yeni Dünya sahillərinə ilk dəfə qədəm qoyur***

## Duarti Paşeku Pireyra və Braziliyanın qeyri-rəsmi kəşfi

Bəzi tarixçilər Alkasovasdakı bağlanan müqaviləni əsas tutaraq bəyan edirlər ki, guya portuqal dəniz səyyahları 1479-cu ilə kimi 28-ci paraleldən aşağıda və Atlantik okeanının qərb hissəsində yerləşən torpaqları kəşf etmiş, sadəcə olaraq onu hüquqi cəhətcən rəsmiləşdirirlər. Deməli, papa IV Sikstin bullası ilə yuridik olaraq həmin ərazilər Portuqaliyanın tabeliyinə keçir. Əvəzinə isə Kastiliya ilə gedən ərazi iddiaları ilə bağlı müharibələrə son qoyulur. Pireney yarımadasındakı sülh hər iki krallığın dənizçilik sahəsində inkişaf etməsinə səbəb olur.

Düzdür, həmin dövrdə gəmilərin takelajının təkmilləşdirilməsi idarəetməni xeyli asanlaşdırsa da, naviqasiya əsasən, həm küləyin səmti, həm də cərəyanların hərəkəti ilə həyata keçirilirdi. Deməli, bu şəkildə külək və cərəyanların köməyi ilə gedib indiki Braziliya sahillərinə çatmaq və çətinlik çəkmədən geri qayıtmaq olardı. Avropanın bir çox ölkələrində olan konstruktorlar daha mükəmməl, daha sürətli, daha tutumlu gəmilərin tikintisinə nail olurlar.

Bəzi alimlər belə bir fikir yürüdürlər ki, bir çox dənizçilər guya Braziliyanın axtarışı ilə məşğul olublar. 1486-cı ildə ingilis tacirləri İngiltərə kralı VII Henrixə ticarətlərinin zəif olması ilə şikayət etmiş və daha uzaq dənizlərdə üzmək üçün icazə istəmişdilər. 1480-ci ildə Con Cey adlı bir nəfər okeanda Brazil adasını axtarıb tapmaq üçün şəxsi vəsaitinə ekspedisiya təşkil edir. Onun fikirincə, həmin ada İrlandiyadan əks tərəfdə qərbdə yerləşirdi. Ekspedisiya altı həftəlik səyahədən sonra müsbət nəticə əldə etmədən geri qayıtmışdı.

1490-cı ildən başlayaraq Bristolun tacirləri Brazil adasının aşkarlanması üçün ildə iki, üç ya da dörd gəmi göndərirdilər, lakin istədiklərinə nail ola bilmirdilər.[1]

Söhbət heç də indiki Braziliyadan gedə bilməzdi. Ona görə ki, ingilis dənizçiləri yalnız şimal enliklərdə üzürdülər və ispanlarla portuqallara “məxsus” olan əraziyə daxil olmaq istəmirdilər. Deməli, ingilislərin axtardıqları Brazil adası indiki Braziliyadan qat-qat şimalda yerləşirdi, hansındakı ispan və ya portuqal dəniz səyyahları tədqiqat işləri axtarmırdılar.

---

[1] Дж. Бейкер. История географических открытий и исследований. Перевод с англ. под редакцией и с предисловием Магидовича И. П. М., «Издательство иностранной литературы». 1950. стр. 44.

Tarixi qaynaqlarda göstərilir ki, Kabralın ekspedisiyasının iştirakçısı Duarti Pireyra Atlantikanın o biri tayındakı torpaqlarda olubdur. Bu bir qədər inandırıcı görünə bilər. Ona görə ki, Kabrala Hindistana gedən zaman yolda "Braziliyanın kəşfinin" rəsmiləşdirilməsi tapşırığı verildiyindən, yolda heç bir gözlənilməz hadisələrlə üzləşməsinlər deyə, həmin sahilləri yaxşı tanıyan adam lazım idi. Bu isə Pireyra sayılırdı.

Tanınmış gəmi kapitanı, tədqiqatçı və xəritəşünas Duarti Paşeku Pireyra (1469-1533) XV əsrin 80-ci illərin ikinci yarısından sonra Afrikanın qərb sahillərindəki ekspedisiyalarda iştirak etmiş və 1488-ci ildə Prinsip adası yaxınlığında qəzaya uğramışdı və bir neçə dənizçi ilə birlikdə, Ümid burnundan vətənə qayıdan Bartolomeu Diaşın ekspedisiyası tərəfindən xilas olunmuşdu. Bundan sonra o, Afrika sahillərinə marşrutu, coğrafi koordinatları və sahil konturları kodlaşdırılmış, missiyası məxfi saxlanılan bir neçə ekspedisiyalarda iştirak etmişdi.

Pireyra ömrünün bir neçə ilini Atlantik okeanın şərq hissəsində, sonra isə orta hissəsində üzərək, həmin akvatoriyada naməlum adaların axtarışı ilə məşğul olmuşdu. Hələlik böyük torpaq ərazisindən söhbət gedə bilməzdi. Ona görə ki, həmin dövrdə üç materik məlum olduğundan adi dənizçilər ağıllarına belə gətirə bilməzdilər ki,

böyük okeanda dördüncü və ya beşinci materik də ola bilər. Yəni, XV əsrin sonunda okean sularını fəth edən dənizçilər Yer kürəsinin indiki şəkildə böyük olduğunu təsəvvür etmirdilər. Lakin Pireyra gizli tapşırıq nəticəsində gedib Braziliya sahillərinə çıxmışdır. Sadəcə dəqiqləşdirmək lazımdır ki, neçənci ildə?




***Duarti Paşeku Pireyra (1469-1533)***

Pireyra bu haqda təxminən 1505-1508-ci illər arasında yazdığı **"Esmeraldo de Sita Orbis" ("Yerin vəziyyəti barəsindəki zümrüd")** əsərində, özünün atlantikanın o biri tayında yerləşən torpaqlarda olmasını göstərmişdir. Həmin əsər çıxarılmış surət olduğundan alimlər tərəddüd qarşısında qalırlar. İş ondadır ki, beş hissədən ("kitablar") yalnız üçü və dördüncünün bir parçası portuqal kitabxanalarında aşkarlanır və ilk dəfə 1892-ci ildə çap edilib ictimaiyyətin ixtiyarına verilir.

Həmin kitabda müəllif Atlantik okeanının o tayındakı torpaqların mövcudluğu barəsində məlumatlar verir və qeyd edir ki, o, ilk dəfə həmin torpaqlarla hələ Kabralın ekspedisiyasından təxminən altı il əvvəl tanış olmuşdu.[1]

Bunu əsas götürərək, 1494-cü ildə, bəlkə hələ də əvvəl Cənubi Amerikanın kəşfini Pireyranın adına yazmaq istəyirlər. Pireyranın Cənubi Amerikanın kəşfi barəsində Pireyra da Silvanın **"Braziliyanın Portuqal müstəmləkəçiliyinin tarixi"** əsərinin I cildindəki böyük məqaləsində göstəri-libdir.[2] J.Roşa-Pombunun fikrinə görə "Kabraldan, hətta Kolumbdan da əvvəl Amerika qitəsinə gedib çıxan ilk portuqal dəniz səyyahının adını çəkmək

---

[1] И. П. Магидович, В. И. Магидович. Очерки по истории географических открытий, II том. Москва, "Просвещение". 1982. стр.55

[2] Portu, 1923 il, portuqal dilində.

lazım gəlsə, portuqallar kifayət qədər öz səyyahlarının namizədliyini irəli sürə bilərlər.” Başqa adlar yox, elə Pireyranın adının üstündə dayansaq bir çox mətləblərin üstünü açmaq olar.

Orijinal sənədlər olmasa da, Pireyranın Kabraldan əvvəl Braziliya sahillərinə yan alması çox inandırıcı səslənir. Burada konkret tarix də göstərilir – 1494-cü il. Apardığım araşdırmalar nəticəsində mən də belə qənaətə gəldim ki, Pireyra ilk dəfə Braziliya sahillərinə gedib çıxıbdır. Bəzən mürəkkəb görünən işin açılması üçün sadə üsullardan istifadə etməli olursan. Bu sadə üsul nədən ibarətdir?

Bu məsələni araşdıran zaman mən, birdəfəlik Alkasovas müqaviləsinin qaranlıq görünən təfərrüatlarına aydınlıq gətirəcəm. Axı, bəzi alimlər bildirirlər ki, portuqallar 1480-ci ilə qədər Braziliyanın varlığından hali idilər, məhz buna görə də onlar Roma papasından o cür əlverişli maddələr əldə edə bilmişdilər.

İlk növbədə mən, Roma papalarının XV əsrdə dünyanın bölüşdürülməsilə bağlı bullalarını nəzərdən keçirməyi özüm üçün məqsəd qoydum. Məhz ondan sonra başa düşdüm ki, portuqallar Braziliya sahillərinə məhz 1494-cü ilin əvvəlində gedib çıxıblar.

Şimal yarımkürəsində Atlantik okeanını şərqdən qərbə qət etmək üçün, 1000 km. enində olan Kanar cərəyanının akvatoriyası ən perspektivli yol sayılır. Ona görə ki, $20^0$ qərb uz. şimaldan cənuba doğru Afrika sahilboyu ilə $30^0$ ş. en dairəsindən $10^0$ ş. en dairəsinə kimi, saniyədə 10-30 sm. hərəkət edən okean çayı yavaş olsa da, ekvatora yaxınlaşmaq üçün gəmilərə yardım edir. Kanar cərəyanının orta dərinliyi 500 metrdir. Məlumdur ki, Kolumb özünün transatlantik səyahəti zamanı məhz Kanar cərəyanından istifadə etmişdi. Onun layihəsini həyata keçirmək istəyən van Olmen də həmin cərəyanın köməyindən istifadə etməyə çalışmışdı. İş ondadır ki, onlardan biri uğur qazanır, digəri isə fəlakətlə üzləşir. Bu nəyə görə belə olur? Keçid zamanı okeanda buraxılan kiçicik bir səhv faciə ilə nəticələnir.

Atlantik okeanın qərb sahillərindən başlanan cərəyanların xüsusiyyətlərini öyrənməyə çalışan Kolumb özü üçün müəyyənləşdirmişdi ki, heç vaxt cərəyanlar düz xəttlə hərəkət edə bilməz. Gec-tez həmin okean çayı gah sola, gah da sağa burulur. Bunu əsas tutan genuyalı dənizçi həmin cərəyanın ağuşuna daxil olanda, birmənalı şəkildə qərar vermişdi ki, torpaqla üzləşənə kimi yalnız qərb istiqamətində hərəkət edəcək. Van Olmen isə Kanar, sonradan Şimali-Passat cərəyanının köməyi ilə okeanın

qərb hissəsinə üzmüş və eləcə də Qolfstrim cərəyanının vasitəsilə həmin sahillərdən uzaqlaşmışdı. Gəmilər şimala doğru hərəkət edən zaman o, həmin marşrutdan yayınmalı idi.

Bu faciə ilə Pireyra da üzləşə bilərdi. Lakin onun bəxti gətirir ki, o, kralın tapşırığını yerinə yetirəndə qış fəsli olur. Xronologiyanı pozmamaq üçün bu məsələyə növbəti bölümdə tam aydınlıq gətirəcəm.

## Roma papalarının bullaları və ya dünyanın bölüşdürülməsi

Kastiliyanın başı ərəblərə qarşı azadlıq müharibəsinə qarışdığı bir zaman portuqallar Afrikanın şimal-qərb sahillərinin mənimsənilməsilə məşğul idi. Bunu qanuniləşdirmək istəyən portuqallar Vatikanda Müqəddəs Pyotrun taxt-tacında əyləşmiş V Nikolaydan fərman imzalamağı xahiş edir. Həmin vaxt yəni, 18 iyun 1452-ci ildə **“Dum diversas”** adlı bulla verilir və bu dünyanın bölüşdürülməsi ilə bağlı ilk tarixi sənəd sayılır. Sonradan

hərc-mərclik olmasın deyə, portuqal kralı I Juan Roma papasından məsələyə aydınlıq gətirməsini xahiş edir. Məhz buna görə də Roma papası V Nikolay 8-i yanvar 1455-ci ildəki bullada **(“İnter caetera”**) Afrika sahilləri ilə ticarətin inhisarının portuqallara məxsus olduğu göstərilir. Faktiki olaraq Afrika materiki Portuqal kralının ixtiyarına verilir.



***Папа Николай V (1397-1455)***

Lakin buna baxmayaraq yalnız 1479-cu ili portuqallar üçün dönüş ili hesab etmək olar. Həmin ilin sentyabr ayında Alkasovasdakı bağlanan müqaviləyə əsasən, Atlantik okeanı iki hissəyə bölünür. Bu məsələdə mütləq Kastiliyanın razılığı lazım idi. Alkasovasdakı müqaviləni təsdiqləmək üçün Roma papası IV Sikst 21 iyun 1481-ci ildə hər iki tərəfi danışıqlar masası arxasına dəvət edib, **"Aeterna Regis"** bullası ilə onları tanış edir. Müqəddəs atanın İzabella Kastiliyalıya hörməti olsa da, o, Kanar adalarından cənubda yerləşən bütün əraziləri Portuqaliyanın ixtiyarına verir. Burada portuqalların roma pontifikinə bəxşiş verməsi bir çoxlarına məlum olur. Məhz buna görə də IV Sikst portuqal nümayəndələrinin bütün tələblərini artıqlaması ilə yerinə yetirir.

Bundan əlavə həmin dövrdə Portuqaliya krallığı Kastiliya krallığına ərazi iddiası ilə çıxış edərək, arada yaranacaq müharibədən belə çəkinmirdi. Kastiliya isə ixtiyarında olan torpaqlarının bir qarışını qonşusuna qaytarmaq fikirində deyildi.

Kastiliyanın ərazilərinə olan iddiadan əl çəkən kral V Alfons Portuqaliya üçün həddindən artıq əlverişli imtiyazlar əldə edir: Kanar adaları Kastiliyanın tabeliyində qalır, Azör və Madeyra adaları isə Portuqaliyanın ayrılmaz ərazisi kimi sənədləşdirilir. İspan gəmiləri hər hansı

bir ekspedisiyanı təşkil edəndə Şimal yarımkürəsinin 28-ci paralellindən aşağı enməməliydi. Nəzəri olaraq Florida yarımadasının yarısı, Böyük və Kiçik Antil adaları, Meksika, Panama, Cənubi Amerika bütünlüklə Portuqaliyanın tabeliyinə keçir.



***Roma papası IV Sikst (1471-1484)***

Alkasovasdakı müqavilə də davamlı olmur. Kolumbun birinci səyahətindən sonra ispanlar sülh yolu ilə dünyanın yenidən bölünməsi tələbini irəli sürürlər. Artıq təxmini də olsa bilmək olardı ki, Kolumbun kəşf etdiyi

ərazilərdən də cənubda iri torpaq əraziləri yerləşir. Elə olur ki, taleyin hökmü ilə Valensiyanın yaxınlığında yerləşən Hativa şəhərindən milliyyətcə ispan olan Rodriqo Borxa adlı araqonlu Vatikanda müqəddəs Pyotrın taxt-tacında əyləşir. Maraqlı budur ki, Kolumb birinci transatlantik səyahətinə yola düşən zaman (1492-ci il avqust ayı), araqonlu yepiskop Roma pontifiki vəzifəsinə seçilir. Bu ikinci araqonlu idi ki, belə bir yüksək vəzifəyə layiq görülürdü. Birincisi Valensiyanın yepiskopu Alonso de Borxa III Kalikst adı ilə Roma papası olmuşdu.

Belə bir təsadüfi heç kim gözləmirdi. Yeni Roma papası VI Aleksandr (Borxa və ya Borcia) 4-ü may 1493-cü ildə bulla **"İnter caetera"** verir. Bullada göstərilir ki, Atlantik okeanının qərb hissəsində ispanlar tərəfindən yenicə kəşf olunmuş torpaqlar katolik krallarının (Ferdinand Araqonlu və İzabella Kastiliyalı – R.D.) tabeliyinə verilir. Bir şərtlə ki, orada yaşayan əhali mərhələ-mərhələ xristianlaşdırılacaqlar. İki krallıq bir-birilərinə mane olmasınlar deyə, demarkasion xətt Azör adalarından 100 liq qərbdə çəkilir.

Bu yerdə Braziliyanın qeyri-rəsmi kəşfinə qayıtmaq istərdim. Tarixçilərin verdiyi tarixlər ki, var, mən onları əsassız saymaq istərdim. Yuxarıda göstərilir ki, guya Braziliya 1480-ci ilə qədər və ya 1490-cı illərdəki (dəqiq

rəqəm göstərilmədən), hətta Jan Kuzen, Alonso Uelva, Martin Behaym və başqalarının adı hallanmaqla, kəşflə bağlı öz fərziyyələrini irəli sürürlər. Ən inandırıcı tarix 1494-cü il sayılır. O da nəyə görə?

Xristofor Kolumb Yeni Dünya sahillərinə olan birinci səyahətini 15-i mart 1493-cü ildə başa çatdırır. Bu o deməkdir ki, ispanlar gözləmədikləri halda Atlantik okeanının qərb hissəsində yerləşən torpaq ərazilərinə sahib çıxa bilərlər. Lakin burada bir anlaşılmamazlıq ortaya çıxır; axı, 1481-ci il müqaviləsinə əsasən, onlar 28-ci paralleldən aşağıda yerləşən ərazilərə iddia edə bilməzdilər. Ona görə ki, Alkasovasda bağlanan müqaviləyə görə yuridik olaraq $28^0$ ş.en dairəsindən aşağıda olan ərazilərin hamısı Portuqal taxt-tacına məxsus idi. Bu izdivaca baxmayaraq ispanlar 28-ci paraleldən aşağı düşmüşdülər, amma bunu gizlin saxlamağa çalışırdılar.

Yeni Dünaya sahillərinin kəşfindən sonra hər itirilən gün portuqalların ziyanına idi. Kolumb Avropa sahillərinə qayıdanda birinci olaraq həmin kəşfdən elə portuqalların özləri xəbər tutmuşdular. Ona görə ki, admiralın gəmisi qeyri-ixtiyari olaraq Madeyra adalarına yan almış, ondan sonra isə həmin gəmini Lissabona ötürürlər. Ən maraqlı cəhət odur ki, portuqallar üçün zidd olan kəşfi həyata keçirən Kolumbu, kral II Juan tamtəraqla öz

sarayında qəbul edir. Məhz həmin görüşdən sonra kral adekvat addımlar atmaq qərarına gəlir. Bunun üçün II Juan Yeni Dünya sahillərinə missiyası məxfi saxlanılan ekspedisiya təşkil edir.

Çox güman ki, yuxarıda göstərildiyi kimi Duartu Pireyra həmin ekspedisiyanın rəhbəri təyin edilir. Çünki sonrakı proseslər və Pireyranın 1505-1508-ci illər arasında yazdığı **"Esmeraldo de Sita Orbis" ("Yerin vəziyyəti barəsindəki zümrüd")** kitabında göstərilir ki, o, Braziliya sahillərində Kabraldan altı il əvvəl olubdur.

Məlum olduğu kimi ispan monarxlarının təkidi ilə, yəni, Yeni Dünya sahillərinin kəşfinin üstündən heç iki ay keçməmiş, Roma papası VI Aleksandrın mayın 4-ü 1493-cü ildə verdiyi **"İnter caetera"** bullası portuqalları şok vəziyyətinə salır. Sənədə əsasən, Azör adalarından 100 liq qərbdə yerləşən bütün ərazilər Kolumbun səyahəti nəticəsində yuridik olaraq ispanların tabeliyinə keçir. Belə bir bölgü ilə razılaşmaq portuqalların atlantikadakı fəaliyyətini minimuma endirirdi. Lakin ortaya bir sual çıxır, əgər nəzərdə tutulan demarkasion xətdən qərb tərəfdə və $28^0$ ş.en dairəsindən aşağıda strateji əhəmiyyət kəsb edən, coğrafi mövqeyinə görə hər hansı bir önəm daşıyan böyük torpaq ərazisi yoxdursa, onda sonsuz görünən okeanın suları kimə lazımdır? Çünki onda olan

məlumata görə Azör, Madeyra və Yaşıl Burun adalarından qərb tərəfdə heç bir torpaq ərazisi yoxdur.

Praktik cəhətcə həmin sularda torpaq axtaran Voqadonun və Van Olmenin ekspedisiyaları müsbət nəticə əldə edə bilməmişdilər.

Artıq ispanlar VI Aleksandrın mayın 4-də verdiyi bulla ilə öz istədiklərinə nail olmuşdular. İndi söz portuqalların idi. Kolumb Kanar adalarını tərk edib qərbdə böyük torpaq ərazisi kəşf edibsə, bunu nə üçün potuqallar həyata keçirə bilməsinlər? Axı, dənizçilik məktəbi və naviqasiya məhz Potuqaliyada yüksək zirvəyə qalxmışdı. Deməli, portuqallar da Kolumb kimi, Pireney yarımadasına yaxın adaların birini tərk edib, qərbdə naməlum torpaqların kəşfinə nail ola bilərdilər. Onlar üçün əlçatmaz olan Afrikanın cənub nöqtəsi fəth edilmiş və bununla da Hind okeanına çıxış yolu əldə edilmişdi.

Amma hamını bircə sual düşündürürdü; həmin torpaqlar Köhnə Dünyadan neçə min km. aralıda və hansı enliklərdə yerləşir? Kral II Juan yaxşı bilirdi ki, Kolumbun səyahəti yeddi aya yaxın davam etmişdi. Dəqiq bilinmirdi o, neçə gün müddətinə okeanda yol qət edibdir? Buna baxmayaraq kral boş-boşuna vaxt itirmək fikirində deyildi. İspanların xəbəri olmadan məxfi ekspedisiyanın hazırlanmasına start verilir.




***Tordesilyas müqaviləsinə əsasən demarkasion xətt***

Bu minvanla Braziliyanın əsl kəşfinin qıfılını elə bu-radaca açmaq mümkün olar. 1493-cü ili başa vurmamış ekspedisiya səyahətə çıxmalı idi. Çox güman ki, həmin hazırlıq Pireney yarımadasından kənarda, elə Madeyra

adalarında aparılırdı. Lakin isti havalar geridə qaldığından və payızda bu enliklərdə fırtına və qasırğalar tüğyan etdiyindən bunu Afrikanın şimal-qərb sahilində həyata keçirmək lazım idi. Artıq risqə getməmək üçün onlar plasdarm kimi başqa adalardan istifadə etməliydilər. Bunun üçün isə ən münasib coğrafi mövqe Yaşıl Burun adaları və ya Afrikanın Qvineya körfəzi sahillərinə yaxın ucqar qərb nöqtəsi sayılırdı.

Əvvəlcə həmin bölgüyə münasibət bəsləmək istəməyən Portuqaliya bir ildən sonra öz narazılığını bildirir və təzyiq nəticəsində Roma papasından demarkasion xətti daha 270 liq qərb tərəfdə göstərilməsini tələb edir. VI Aleksandrın iştirakı ilə hər iki krallığın nümayəndələri 1494-cü ildə Tordesilyas şəhərində görüşür və iyunun 7-də bağlanan növbəti müqaviləyə əsasən, demarkasion xətt Azör adalarından 370 liq (həmin adalardan 2200 km. qərbə) qərbdə göstərilir. Tordesilyas müqaviləsinə görə demarkasion xətdən şərq tərəfdəki bütün ərazilər Portuqaliyanın, qərb tərəfdəki ərazilər isə İspaniyanın tabeliyinə keçir.

Bir sözlə, Roma papasının bullasına əsasən "İspaniya Braziliyadan başqa bütün Amerika qitəsinin, Portuqaliya isə Afrikanın və Hindistanın sahibi sayılırdı."[1]

Rekonkista İspaniyada başa çatan kimi (1492), bütün Avropada bu krallığın nüfuzu birə-beş artdı. Necə olsa da, VIII əsrin əvvəlindən Pireney yarımadasında kök salan Ərəb əmirlikləri siyasi xəritədən silinirdi. Bütün bunları nəzərə alan Roma papası VI Aleksandr ispan krallarına xüsusi hörmətlə yanaşmağa başladı. Tarixçilərin fikirincə bu pontifik Atlantik okeanının qərb hissəsində yerləşən qitənin İspaniyanın tabeliyinə keçməsində müstəsna rol oynamışdır. Ona görə ki, Kolumb birinci səyahətini başa çatdıran kimi o, tərəddüd etmədən 3-ü may 1493-cü ildəki **"İnter caetera"** bullasında İspaniyanı həmin ərazilərin varisi elan edir. Bundan əlavə VI Aleksandr, Pireney yarımadasında və yenicə kəşf edilmiş torpaqlarda Kilsənin işlərini idarə etmək hakimiyyətini Kastiliya ilə Araqona verir.

İş ondadır ki, Kolumb birinci səyahətdən qayıdan kimi İspan monarxları mart ayında Romada olan səfirə Bernardino de Karvahala (Ernan Kortesin və Badaxosun

[1] История средних веков. Абрамсон М. Л., Кириллова А. А., Колесницкий Н. Ф. и другие. Под редакцией Колесницкого Н. Ф. – 2-е изд. исп. и доп. – М., «Просвещение», 1986. стр.393.

yepiskopunun uzaq qohumu) oradakı fəaliyyətinin aktivləşdirilməsinə dair xüsusi tapşırıq verirlər. Səfir də bütün səy və bacarığını səfərbər edərək, iki ay ərzində Roma papasından məşhur **"İnter caetera"** bullasının verilməsinə nail olur. Bu fərmanın verilməsi VI Aleksandr üçün məsuliyyətli iş sayılırdı, ona görə ki, bir tərəfdən o, əvvəlki sələflərinin işinə müdaxilə etmək istəmir, digər tərəfdən isə Rekonkistadan ayrılmış qalib-xaçpərəstlər kimi katolik krallarının hüquqlarını tapdalamaq niyyətində deyildi. Necə olsa da, ispanlar Avropadan çox-çox uzaqda Atlantik okeanının o biri tayında naməlum torpaqları kəşf etmiş və müəmmalı sənədi xatırlayan məşhur bullaya əsasən, onların öhdəsinə həmin ərazilərdə yaşayan insanların xristianlaşdırılması missiyası düşmüşdü.

Sənəddə göstərilir ki, *"qərbdə Hindistan istiqamətində, həddindən artıq uzaqda dəniz-okeanda, heç vaxt gəmilərin üzmədiyi bir yerdə yerləşən adalar və iri torpaq ərazisi"* ispan krallarına verilir. Portuqalları qıcıqlandırmaq istəməyən pontifik bullada izah edir ki, necə portuqallar "Afrikada, Qvineyada və Qızıl Sahildə" (Afrikanın Qvineya körfəzinin şimalında yerləşən sahil zolağı) verilən səlahiyyətlərə, eləcə də ispanlar okeanın o



***Roma papası VI Aleksandrın Tordesilyasdakı bullası (1494)***

biri tayında yerləşən ərazilərə eyni səlahiyyətlərə malik olurdular.

İlkin mərhələdə Portuqal kralı II Juan kəskin şəkildə narazılığını bildirmək istəmirdi, lakin bir neçə aydan sonra 1481-ci ildəki müqaviləni əsas gətirərək, həmin torpaqlara olan de-fakto hüquqlarını müdafiə etməyə başladı. Məhz bundan sonra Roma papası verdiyi qərara təkrarən baxmağa məcbur olur və bir ili arxada qoyan kimi elə mayın 4-də o, tərəfləri masa arxasına dəvət edərək, portuqallara güzəştə gedir. Həmin tarixdən bir ay sonra iyunun 7-də, müəyyən güzəştlərlə, VI Aleksandr Tordesilyasada bir il əvvəlki müqaviləyə əsaslı dəyişikliklər etməklə, həmin sənədi "ratifikasiya" edir. Tordesilyasdakı müqaviləni ispanlardan çox portuqalların qələbəsi adlandırmaq olar. Ona görə ki, 1493-cü ildə ispanların təklifi ilə demarkasion xətt Azör adalarından 100 liq qərbdə, portuqalların isə təkidilə Yer kürəsinin iki krallıq arasında bölüşdürülməsini bildirən demarkasion xətt Azör adalarından 370 liq qərbdə müəyyən edilir.

Tordesilyas müqaviləsinə əsasən, ispan-portuqal xüsusi komissiya 1495-ci ilin sonuna qədər demarkasion xəttin haradan keçdiyini dəqiqləşdirməliydi. Lakin ispan və portuqal kosmoqraflarının arasında yaranan narazılığa görə həmin məsələ yerinə yetirilmir (gözlənildiyi kimi

artıq 1512-ci ildə Cənubi Amerikadakı bəzi torpaqlara görə iki krallıq arasında münaqişə yaranır).[1]

Beləliklə, 4-ü may 1493-cü ildəki müqaviləyə əsasən, $38^0$ qərb uzunluğundan sol tərəfdə yerləşən bütün ərazilər ispan monarxlarının yurikdiksiyasına verilir. Portuqallar bunu eşidən kimi adekvat addımlar atmaq barəsində düşünməyə başlayırlar.

Portuqal diplomatları Tordesilyas müqaviləsinə qədər çevik addımlar atırlar. Onlar çox yaxşı başa düşürdülər ki, rəsmi olaraq okeanın o biri tayındakı ərazi, dəxli olmadan hansı paralleldə yerləşir, əllərindən çıxacaq, ispanlarla birbaşa danışıqlara cəhd göstərirlər. Portuqalların nümayəndəsi Tordesilyasa gedən yolda olarkən, Xristofor Kolumb 25-i sentyabr 1493-cü ildə 17 gəmidə 1500 nəfərlik heyətlə, Yeni Dünya sahillərinə özünün ikinci səyahətinə yola düşür. Ona qədər isə, hələ iyul ayında VI Aleksandr Borcia 3 may tarixi ilə imzaladığı bullanın üçüncü redaktəsini, **“Eximiae devotionis”** adı altında buraxdırır. Bu sənəd hər iki tərəf üçün kompramiss variant təklif edirdi.

Məlumat üçün qeyd etmək lazımdır ki, Roma papasının iştirakı olmadan tərəflər yaranan problemin həllinə

[1] Португальская колониальная империя, СИЭ, т. 11, с. 451-452.

nail olmasına az qalmış, 1493-cü ilin dekabr ayında VI Aleksandr **"Dudum siquidem"** adı altında, keçmiş tarixlə - guya 25-i sentyabrda dördüncü bullanı buraxır. Məhz həmin sənəddən sonra portuqallar Roma papasına etirazlarını bildirirlər. İş ondadır ki, müəyyən edilmiş demarkasion xətdən qərb tərəfə, Hindistanın şərq hissəsinə kimi



***Roma papası VI Aleksandr Borcia***

bütün ərazilər İspaniyanın tabeliyinə keçirdi. Halbuki Alkasovasa müqaviləsinə əsasən, Hindistan Portuqaliya-

nın şəxsi ərazisi sayılır və bu sənədə ispanlar öz razılıqlarını bildirmişdilər. Bunu əsas tutan portuqallar bildirirlər ki, indiki müqavilə onların maraqlarına tamamilə ziddir. Onların Hindistanla dəniz əlaqəsi qurmağa demək olar ki, heç nə qalmamışdı. Ona görə ki, Kolumbun səyahətinə qədər Bartolomeu Diaş (1488) Afrikanın ucqar cənub nöqtəsini kəşf etmiş və Hind okeanına çıxış yolunu tapmışdır.

Papa VI Aleksandrın 1493-cü ilin dekabr ayında buraxdığı dördüncü bullası portuqal nümayəndələrini pis vəziyyətdə qoyur, məhz ondan sonra onlar çevik addım atmağı qərara alırlar. Cənubu Amerika sahillərinə ekspedisiya göndərilməsi gündəmə gəlir. Onsuz da onlar Kolumbun kəşf etdiyi əraziyə ikinci dəfə yola düşməsindən hali idilər.

## Portuqalların Braziliya sahillərinə olan ehtiyat marşrutu

Əsl dənizçı, peşəkar şturman əvvəlki səyahətlərdən nəticə çıxarmalıdır. Əgər, Pireyra Kanar və Şimali-Passat

cərəyanlarından istifadə etsəydi, onda o da van Olmenin səhvini təkrarlaya bilərdi. Onun bəxti gətirir ki, yola düşməmişdən əvvəl Şimal yarımkürəsində qış fəsli idi. Bunun üçün qasırğaların əhatəsinə düşməməkdən ötrü alternativ cərəyandan istifadə edilməsi məqbul sayılırdı. Həm də elə etmək lazım idi ki, onlar yolda ispan bayrağı altında üzən gəmilərlə üzləşməsinlər.

Okeanın ortasında qərb istiqamətində hərəkət etmək üçün ən münasib cərəyan Cənubi Passat sayılır. Ona görə ki, təxminən Qvineya körfəzi sahillərində, $1^0$ ş. en dairəsindən $2^0$-$2^0$ $30^/$c. en dairəsi akvatoriyasında başlanan cərəyan (həmin yerdə cərəyanın eni 300-350 km-dir) qərbə uzandıqca enniləşir. Getdikcə enniləşən okean çayı Palma burnu meridianında $2^0$ ş. en dairəsindən, hətta bir qədər artıq $5^0$ c. en dairəsini əhatə edir. $10^0$ qərb uzunluğunda isə cərəyanın eni $8^0$-$9^0$ (800-900 km.) olur. Ferro adasının meridianından bir qədər qərbdə cərəyandan şimal-qərb istiqamətində qol ayrılır və onun eni $20^0$, bəzi yerlərdə isə $30^0$ ş. en dairəsinin sərhədinə kimi uzanır. Cənubi Passat cərəyanının özü isə Braziliya sahillərində San-Roka burnu yaxınlığında iki qola – şimala doğru Karib dənizi hövzəsinə qədər hərəkət edən Qviana və cənuba doğru Cənub Küləklərinə qədər uzanan Braziliya cərəynına ayrılır.

Maraqlıdır ki, Afrikadan Cənubi Amerika sahillərinə kimi üz tutan bu cərəyanın sürəti stabil deyil: başlanğıcında sürət bir günə 4-5 km. edir, Palma burnu meridianında (yayda) bəzən 8-12 km., $10^0$ qərb uz. 6 km-ə enir, lakin 11 km-ə qədər arta bilir.

Çox güman ki, Pireyra Qvineya sahillərinin girişinə yaxın bir yerdə Cənubi-Passat cərəyanına daxil olmuş və Braziliya sahillərinə doğru kurs götürmüşdü. O, istədi-istəmədi güçlü və böyük okean çayı ekspedisiyanı nəzərdə tutulan məntəqəyə aparıb çıxarır. Pireyra bir xəritəşünas kimi həmin sahil zolağının konturlarını çəkir, oranın enlik və uzunluq koordinatlarını müəyyənləşdirir. Artıq vaxt itirmədən geriyə qayıdır. Tələskənlik başlanan işin axıra çatdırılmasına imkan vermir.

Mənim fikirimcə, kral II Juan məxfi saxlanılan həmin ekspedisiyanı okeanın qərb hissəsinə göndərəndə, əsas tapşırıqlardan biri o idi ki, elə ki, onlara hava-su kimi lazım olan torpaq aşkarlandı, dənizçilər vaxt itirmədən şad xəbərlə vətənə qayıtmalıydılar. Hadisələrin gedişatını təsəvvür edəndə, demək olar ki, elə də olur. Ekspedisiya üzvləri orada su ehtiyatı əldə edən və gəmini təmir edən zaman bir aya yaxın vaxt itirə bilərdilər. Məhz buna görə də təməli qoyulan səhv altı ildən sonra Kabralın səyahəti zamanı bir daha təkrarlanır.

Həmin səhv nədən ibarət idi? Kəşf olunan torpaq ərazisini tədqiq etmək vaxt itkisinə səbəb olacağından, bu kral təlimatına zidd sayılırdı. Ona görə ki, portuqal dənizçiləri torpağı kəşf edən kimi dərhal həmin sahillərdən uzaqlaşmalıydılar. Elə bu səbəbdən sahil zolağını yoxlamağa imkan tapmayan Pireyra elə zənn edir ki, qarşılaşdığı torpaq materik yox, hansısa bir adadır. Axı, Kolumb da birinci səyahətindən geri qayıdan kimi, okeanın qərb hissəsində çoxsaylı adalar qrupunun kəşf etdiyini bəyan etmişdi. Elə Kabral da həmin əraziyə ilk dəfə qədəm qoyanda, elə bilimişdi ki, həmin ərazi böyük bir adadır.

Bütün bunlara baxmayaraq, çox güman ki, Pireyra 1494-cü ilin birinci rübündə Lissabona qayıdır. Hazırlanan hesabatda hər bir detal bütün incəliklərinə kimi yoxlanılır. Lissabondan, Afrikanın ucqar qərb sahilindən, Madeyra və Yaşıl Burun adalarından Braziliya sahillərinə kimi olan bütün məsafələr hesabatda öz əksini tapır. Ən əsas isə yenicə kəşf olunan və müəyyən vaxta qədər gizlin saxlanılacaq həmin ərazinin uzunluq koordinatları diqqət mərkəzində saxlanılırdı. Koordinatlar baxımdan mən bir neçə variantı nəzərdən keçirməli olmuşam və belə bir nəticəyə gəldim ki, Pireyra təxminən indiki San-Luis və Belen şəhərləri ərazisində $1^0$ c. en dairəsi və



*Atlantik okeanında fəaliyyət göstərən cərəyanlar*

$42^0$-$43^0$ qərb uzunluğunda Braziliya sahillərinə çıxmışdı. Həmin ərazidə sahil zolağı yarıq-yarıq olduğundan, xüsusən də San-Luisin yerləşdiyi quru torpaq yarımadada yerləşdiyindən o, adalar qrupu ilə üzləşdiyini zənn edir.

Bu yerdə sual verilə bilər ki, nəyə görə mən Pireyranın indiki San-Luisin yerləşdiyi əraziyə gəlib çıxdığını ortaya qoyuram? Mənim fərziyyəmə görə Pireyra özü üçün tanış olan Qvineya sahllərinə yaxın bir yerdə Cənubi-Passat cərəyanının vasitəsilə qərbə yola düşür və Cənubi Amerika materikinin astanasında, iki yerə bölünən Qviana və Braziliya cərəyanları ilə rastlaşır. Şimala doğru üz tutan Qviana cərəyanı Pireney yarımadasının yerləşdiyi enliklərə qalxdığından o, həmin cərəyanı seçir və təxminən $1^0$ c. en dairəsinə kimi yol qət edir. Həm də vaxt itirməmək baxımdan oradan Avropaya qayıtmaq daha münasib idi.

Kolumbun koordinatlar hesabatı kodlaşdırılsa da portuqallar təxmini bilirdilər ki, ispanlar $50^0$ qərb uzunluğundan qərb istiqamətində torpaqla üzləşiblər. 1494-cü ilin əvvəlinə kimi coğrafi enlik məsələsi Pireyranı maraqlandırmırdı. Bu məsələdə iki amil mühüm rol oynayırdı. Birincisi, Alkasovas müqaviləsinə əsasən, ispanlar Şimal yarımkürəsinin 28-ci parallelindən aşağıda tədqiqat işləri apara bilməzdilər. Ona görə ki, qanun çərçivəsində hə-

min kəşflərin heç bir yuridik əsası olmayacaqdı. İkincisi, Pireyra kralın verdiyi tapşırığı qış fəslində icra etdiyindən ekvator xəttindən aşağısda, qərb istiqamətində hərəkət edən Cənubi-Passatdan münasib yol kimi istifadə etməyi qərara almışdı. Məhz bunun sayəsində portuqallar istədiklərinə nail olurlar. Lakin onlar ağıllarına belə gətirə bilməzdilər ki, aşkarladıqları torpaq materikdir.

Artıq 6 ildən sonra kral I Manuelin tapşırığı ilə təşkil olunan ekspedisiya, Pedru Kabralın başçılığı altında Yaşıl Burun adalarından üzü cənuba doğru hərəkət edəndə, çox güman ki, onlar Cənubi-Passat cərəyanının köməyi ilə qərbə doğru üz tutmuş, lakin materikə yaxınlaşanda bu dəfə, cənub istiqamətində hərəkət edən Braziliya cərəyanının suları ilə sahil zolağına yaxınlaşmışdılar. Bu işdə Pireyranın əməyinin əvəzsiz olduğunu zənn etsək yanılmarıq. Lakin təcrübəli dənizçilərin ekspedisiyanın tərkibində olması, həmin missiyanın məxfi saxlanmasına ziyan gətirməzdi ki? Necə olsa da Atlantikanın suları Bartolomeu Diaşa tanış idi və onun kimi peşəkar dənizçinin okeanda azmaq nağılı ilə, camaatın başını qatmaq qeyri-mümkün iş sayılırdı. Lakin bütün bunlara baxmayaraq, Bartolomeu Diaş baş verən hiyləni dərk etsə də o, bu sirri özü ilə okeanın dibinə aparır.

Kabralın ekspedisiyasında zamanın ən təcrübəli, ən bacarıqlı, Pireney yarımadasının tanınmış dənizçiləri olan Bartolomeu Diaşla, Duarti Pireyra vardı ki, onlar gəmiləri fırtınalı havada idarə etməklə istədikləri kursdan yayına bilməzdilər. Yəni, həmin adamlar Kabraldan fərqli olaraq Atlantik okeanın şərq sularını yaxşı tanıyır və Portuqaliyanın ən nüfuzlu naviqasiya məktəbinin məzunları sayılırdılar. Həm də onlar bir-biriləri ilə yaxın dost idilər. Çünki B. Diaş Afrikanın cənubundakı Ümid burnunu kəşf edəndən sonra Lissabona qayıdarkən yolda qəzaya uğramış Pireyranı xilas etmişdi.

Onların arasındakı fərq ondan ibarət idi ki, Bartolomeu Diaş Afrikanın şimaldan cənubə qədər qərb sahillərini, Pireyra isə Atlantik okeanında yerləşən portuqal dənizçilərinə məlum olan ada və arxipelaqları yaxşı tanıyırdı və çətinlik çəkmədən həmin akvatoriyalarda sərbəst şəkildə üzə bilirdi. Elə okeandakı arxipelaqların və cərəyanların yerləşdiyi akvatoriyaları yaxşı tanıdığından Braziliyanın kəşf edilməsi, məhz ona tapşırılmalı idi. Ona görə tələm-tələsik hazırlanan ekspedisiya Voqado, Telles, Van Olmen və digərlərinin ekspedisiyaları kimi uğursuzluğa düçar olmamalıydı.

Lakin taleyin hökmü ilə Kabralın Hindistana olan səyahəti avropalılar üçün Ümid burnunu kəşf edən Bar-

tolomeu Diaş üçün sonuncu səyahət oldu. Tarixi qaynaqlarda göstərilir ki, ekspedisiya Braziliya sahillərini tərk edib Ümid burnuna çatanda may ayının sonunda güclü qasırğa ilə üzləşir və dörd gəmi heyət qarışıq okeanın dibinə qərq olur. Məhz həmin faciəli gündə Diaş əbədiyyata qovuşur.

Braziliyanın müəmmalı kəşfinin sirlərinə malik olan adamlardan biri ekspedisiyanın səlnaməçisi Peru Vaş Kaminya da həmin səyahətdən sağ-salamat geri qayıtmır. Hindistanın Kalikut şəhərində yerli əhali portuqalların üzərinə hücum çəkəndə, 50 nəfər ekspedisiya iştirakçısı, o cümlədən, P. V. Kaminya qətlə yetirilmişdi. Əsas şahidlər Braziliyanın kəşfi ilə bağlı olan sirri özləri ilə axirət dünyasına aparırlar. Bu da Portuqal kralına sərf edirdi.

Bir sözlə, Duarti Pireyranın sayəsində Portuqaliya krallığı nəhəng bir əraziyə sahib olurlar. Halbuki həmin ekspedisiya əvvəlki səyahətlər kimi uğursuzluqla nəticələnsəydi, onlar Atlantik okeanında kəşf etdikləri adalarla kifayətlənməliydilər.

Əllərində lazımi məlumatlar olan portuqallar, guya Braziliyanın varlığından bixəbər kimi ədalətli bölgü olsun deyə, demarkasion xəttin $50^0$ qərb uzunluğuna qədər çəkilməsini tələb edirlər. Yerin kürə şəkilində olması

sübuta yetirilmədiyindən tam əksəriyyət yer səthinin düz olmasına əmin idilər. Portuqallar yaxşı bilirdilər ki, Tordesilyas danışıqlarını önə çəkəndə, Roma papasını aldatmaq üçün məhz bu amil nəzərə alınmalı idi. Yer səthi düz olduğu üçün demarkasion xəttdən qərbdən üzü şərqə doğru yerləşən bütün ərazilər portuqallara məxsus olmalıydı.

Pireyranın ekspedisiyasının səyahət zamanı əldə etdiyi nəticələrdən xeyli razı qalan kral II Juan növbəti danışıqlar üçün öz diplomatlarını təlimatlandırır. İspan nümayəndələrinin, o cümlədən, pontifikin verəcəyi suallarının cavabları əvvəlcədən onlarda hazır idi.

Roma papasının iştirakı ilə ispanlarla danışıqlar elə aparılmalıydı ki, portuqallar heç kimi şübhələndirmədən ədalətli bölgü kimi demarkasion xəttin Azör adalarından 100 liq yox, 370 liq qərb istiqmətində keçirilməsinə nail olmalıydılar. Bu xətt Kolumbun kəşf etdiyi torpaqlardan xeyli sağ tərəfdə, üzü Avropaya yaxın bir yerdə yerləşirdi. İspan nümayəndələri əmin idilər ki, qərb torpaqlarından bixəbər olan portuqallar, okean sularında öz gəmilərinin təhlükəsizliyini təmin etmək üçün atlantikada bir qədər artıq su hövzəsinə yiyələnmək istəyirlər. Maraqlıdır ki, nəyə görə ispan nümayəndələri o qədər də kəskin müqavimət göstərmədən rəqiblərinin tələblərilə razılaşır-

lar? Onlar artıq münaqişə yaranmasın deyə və bütün narazılıqlara son qoymaq üçün, heç kimə lazım olmayan ucsuz-bucaqsız okean sularını portuqallara güzəştə getməyə etiraz etmədilər.

Bu məsələdə Kolumbun birinci səyahəti zamanı baş verən kəşfin nəticələri portuqal nümayəndələrinə xeyir verir. İş ondadır ki, genuyalı admiralın kəşf etdiyi adalar $65^0$-$70^0$ qərb uzunluğunda, Pireyranın sahilə yan aldığı ərazi $42^0$-$43^0$ uzunluğunda yerləşirdi. Əldə olunan kəşflərin arasında $25^0$-$30^0$-lik bufer zonası əmələ gəlirdi və portuqallar bunu əsas tutaraq əmin idilər ki, ispanlar demarkasion xəttin 45-$47^0$ qərb uzunluğuna qədər çəkilməsinə heç bir etiraz bildirməyəcəklər.

Xüsusilə qeyd etmək istəyirəm ki, burada da bəxt portuqalların üzünə gülür. İş ondadır ki, transatlantik keçidi zaman Baham adaları, Haiti və Kuba adaları Kolumbun qarşısına çıxan ilkin torpaq ərazisi sayılırdı və onlardan şərq tərəfdə heç bir quru ərazisi yerləşmirdi. Deməli, məlum olan adalardan şərq tərəfdə nə ərazi vardısa, portuqallar həmin ərazilərə sahib çıxa bilərdilər. Onsuz da admiralın hesabatında 65-ci və 70-ci meridianlardan şərq tərəfdə yalnız okean suları göstərilirdi. İspanların belə bir kobud səhvindən istifadə edən portuqallar tələsik olaraq, Cənubi Amerika sahillərinə məxfi ekspedisiya göndərir

və qəribə olsa da, nəzərdə tutulan meridiandan qat-qat şərq tərəfdə iri br torpaq ərazisi aşkarlayır və bunu dünya ictimaiyyətindən gizlin saxlamağa məcbur olurlar. Ona qədər isə II Juan ispanları danışıq masası arxasına dəvət edib, bunu yuridik şəkildə, yəni gizlincə kəşf etdiyi torpaqları sənədlər şəkilində əldə etməli idi.

Hansısa bir müddətdə danışıqlar heç bir əhəmiyyət kəsb etməsə də, sonradan yenidən bərpa olur və 7-i iyun 1494-cü ildə Tordesilyas müqaviləsi bağlanır. Məlum olduğu kimi həm şimal və cənubu, həm də şərq və qərbi bildirən demarkasion xətt Azör adalarından 370 liq qərbə, $46^{0}\,30^{/}$ çəkilir və Braziliya avtomatik olaraq Portuqal taxt-tacının mülkiyyətinə çevrilir. İndiki Braziliyanın ucqar qərb hissəsindən başqa Amerika qitəsi bütünlüklə ispan krallarının tabeliyinə keçir. Lakin buna baxmayaraq, bu ispanların tam qələbəsi sayılmırdı. Bununla da, Yeni Dünya sahillərinin siyasi coğrafiyası yaranır və bu da Roma papasının möhürü ilə möhkəmlənir.

Beləliklə, portuqallar Roma papası VI Aleksandr Borcianın vasitəsilə ispanlara kələk gələrək, gələcəkdə 8,5 $mln.^{2}$ km. ərazini əhatə edən Braziliya ölkəsinin əldə edilməsinə nail olurlar. Belə bir ədalətsiz bölgü ispanların haqlı zəhmətlərinin üstündən xətt çəkirdi. Ona görə ki, rəsmi olaraq ilk dəfə Braziliya sahillərinə ispan dəniz

səyyahları – Visente Pinson və Diyeqo Lepe qədəm qoymuşdular. Lakin bizim dövrdə Latın Amerikasının ən böyük ölkəsinə sahib olmaqda portuqallar Pedro Kabral-dan çox, taxt-taca bütün varlığı ilə sadiq olmuş Duarti Pireyraya minnətdar olmalıdırlar. Ona görə ki, bir çox-larına Atlantik okeanının qərbində torpaq tapmaq tapşırı-ğı verilsə də, onlar həmin işi yerinə yetirə bilməmişdilər. Pireyra isə həmin missiyanın öhdəsindən artıqlaması ilə gəldi. Çünki kral II Juana hava-su kimi lazım olan torpaq aşkarlanmış və təcrübəli kapitan, ispanlarla növbəti danı-şıqlara başlanmamışdan əvvəl özünü Avropaya çatdıra bilmişdi. Bu azmış kimi o, Tordesilyas danışıqlarında bilavasitə iştirak etmiş və Roma papasının vasitəsilə ispanların aldadılmasında mühüm rol oynamışdır. Bun-dan əlavə Pireyra Portuqal kralına öz sədaqətini nümayiş etdirərək, ölənə qədər həmin sirri daxilində saxlamağa məcbur olmuşdu.

Bu məsələdə portuqalların mahir hipnozçu kimi rəqib-lərinə manipulyasiya etmələrini önə çəkmək lazımdır. Onlar danışıqlar zamanı özlərini elə aparırdılar ki, guya ispanlar onların halalca torpaqlarını əllərindən alıblar. Ona görə də qara məni basınca, mən qaranı basım prin-sipini əldə şüar tutaraq, həyasızcasına öz tələblərini irəli

sürürlər. Nəticədə demarkasion xətt xeyli qərbə tərəf çəkilir.

Elə həmin il pontifik rəsmi olaraq Ferdinand Araqonlu ilə İzabella Kastiliyalıya “Katolik kralları” titulunu verir.

Kral II Juan Kastiliya ilə olan müqavilədən razı idi. Ona görə ki, Portuqaliyaya Amerika qitəsində yerləışən Braziliya ərazisi məlum idi və onu da əldə edə bilirlər. Braziliyadan o tərəfdə olan ərazilər portuqallara bəlli deyildi, ümumiyyətlə onlar elə zənn edirdilər ki, Braziliya Madeyra, Azör, Yaşıl Burun adaları kimi, lakin böyük bir adada yerləşir.

Bu məsələdə portuqallar Kabraldan çox Pireyraya minnətdar olmalıdırlar. Məhz onun səyahətindən sonra Braziliya sahillərinin hansı uzunluqda yerləşdiyi bəlli olur və Portuqal krallığı Braziliya kimi böyük bir tikəni ispanların əlindən almağa müvəffəq olurlar.

Sonrakı illərdə Pireyra hərbi komandir kimi də məşhurlaşır. Kral I Manuelin xüsusi tapşırığı ilə o, 1503-cü ildə Hindistanın Koçin şəhərinə gəlir və qarnizonda olan 8 minlik əsgərlə beş ay ərzində Kalikut şəhərinin müttəfiqinin 60 minlik ordusuna müqavimət göstərir. Yerli hökmdar portuqalları birdəfəlik Hindistandan qovmaq istəyirdi, lakin buna nail ola bilmədi.

Göstərdiyi çoxsaylı xidmətlərinə görə Pireyra Afrikanın “Qızıl sahil”ində yerləşən El-Mina fortunun komendantı təyin olunur. Lakin çox keçməmiş o, intriqaların qurbanına çevrilir və məhkəmə qarşısına çıxarılır. Məhkəmədə onu qondarma ittihamla - oğurluqda və korrupsiyada günahlandırır və həbsxanaya salırlar. Sonradan Pireyra bəraət qazanır, lakin azadlığa çıxanda o, həm vəzifəsini, var-dövlətini, həm də nüfuzunu itirmiş olur. O, kasıbçılıq və səfalət içərisində ölür.

## Hindistana gedib çıxan Pedro Kabralın aqibəti

Xristofor Kolumb üçüncü səyahətinə yolda düşən ərəfədə İspaniyadan Yeni Dünya sahillərinə bir-birinin ardınca müxtəlif xarakterli ekspedisiyalar göndərilir. Ekspedisiyalar nəinki Karib dənizi akvatoriyasında yerləşən Antil adalarının, hətta akvatoriyadan şimalda və cənubda qütblərə doğru uzanan materiklərin ərazisini tədqiq etmək üçün təşkil olunurdu. Belə çıxırdı ki, $28^0$ ş.

en dairəsindən cənubda yerləşən torpaqlar portuqalların tabeliyindən ispanların tabeliyinə keçir.

Roma papalarının əvvəlki bullalarına əhəmiyyət vermək istəməyən ispan dəniz səyyahları, əlbəttə ki, öz monarxlarının xeyir-duası ilə mərhələ-mərhələ 28-ci paralleldən aşağı enərək, yavaş-yavaş orada yerləşən əraziləri mənimsəməyə başlayırlar.

Mayın 2-də Braziliya sahillərini tərk edən ekspedisiya 11 gəmi ilə demək olar ki, çətinlik çəkmədən gəlib Afrikanın cənubuna çatır və Ümid burnundan bir qədər aralıda, Hind okeanının sərhəd sularında güclü fırtınanın caynağına düşür. Burada dörd gəmi bütün heyətlə birlikdə fəlakətə uğrayaraq, suya qərq olur. Kral I Manuelin ümid bəslədiyi Bartolomeu Diaş okean sularında yoxa çıxır. Maraqlıdır ki, həmin təlatümdə Bartolomeunun qardaşı Dioqu Diaş öz gəmisi ilə ekspedisiyadan aralı düşərək, xoşbəxtlikdən gedib Madaqaskar adasına çıxır və bununla da Afrika materikinin ən böyük adasının kəşfinin təməlini qoyur. Lakin Kabral elə zənn edir ki, o, da fırtına zamanı başqaları kimi həlak olubdur və heç bir axtarış həyata keçirmədən yolunu davam etdirir. Ekspedisiya 6 gəmi ilə portuqalların Afrikanın cənub-şərqində yerləşən platsdarm rolunu oynayan Malindi limanına

gəlir, oradan isə Kalikut (indiki Kojikod) şəhərinə yollanır.



***Duarti Pireyra Koçin şəhərinə yan alır***

Nəzərdə tutulan plana əsasən, itkilərlə Hindistana çatan Kabral, Kalikut şəhərində faktoriya yarada bilir. Lakin müsəlman tacirlərinin təsiri və nüfuzu portuqalların sərbəst fəaliyyətinə maneəçilik törədir və onlarla müsəlmanlar arasında silahlı toqquşma baş verir. Həmin

toqquşmada 50 nəfərə yaxın portuqal, o cümlədən, istedadlı yazıçı Peru Vaş Kaminya öldürülür. Cavabında Kabralın əmri ilə şəhər toplardan bombardımana məruz qalır və müsəlmanların limanda olan bütün gəmiləri yandırılır. Sonra isə onlar Koçində alternativ ticarət əlaqəsi yaradırlar.[1]

1501-ci ilin əvvəlində geriyə qayıdan portuqallar yolda, Mozambik yaxınlığında daha bir gəmi itirir və xilasetmə əməliyyatından sonra, onlar 4 gəmidə Yaşıl Burun adalarına üz tuturlar. Təsadüf nəticəsində Madaqaskar adasını tərk edən Dioqu Diaş eskpedisiya iştirakçıları ilə həmin adalarda görüşür və onlarla birlikdə vətənə yola düşür.

Xüsusilə qeyd etmək istəyirəm ki, həmin ekspedisiyaya daxil olan gəmilərdən biri, Hindistan səfərindən qayıdandan sonra Afrikanın cənub-şərq sahillərində heyətdən kənar düşür və müstəqil şəkildə hamıdan birinci Lissabona çatır. Belə olan halda əlbəttə ki, onları kral sarayına dəvət edib səyahət barəsində bütün vacib məlumatları, o cümlədən, faciəli hadisələri əyanlara ərz edirlər. Nəyə görə mən bu məqama toxundum? İş ondadır ki,

---

[1] История средних веков. Абрамсон М. Л., Кириллова А. А., Колесницкий Н. Ф. и другие. Под редакцией Колесницкого Н. Ф. – 2-е изд. исп. и доп. – М., «Просвещение», 1986. стр. 394.

Kabral vətənə qayıtmamışdan əvvəl, artıq kralın istədiyi ümidini doğrultmadığından onun gözündən düşmüşdü. Çünki Kabralın ekspedisiyası həm gəmilərin, həm də insan resurslarının çoxluğuna görə, Vasko da Qamanın ekspedisiyasına nisbətən çox böyük idi, amma nəticə qənaətbəxş sayılmırdı. Təkcə, təsəlliverici hal o idi ki, Duarti Pireyra həmin səyahətdən salamat qurtulmuş və Braziliyanın "kəşfi" rəsmiləşdirilmişdi.

Təxminən il yarımlıq səyahətdən sonra ekspedisiya 6 gəmi itkisi ilə Pireney yarımadasının sahillərində görünür. Sentyabrın 6-sı 1501-ci ildə ekspedisiya, içərisi həddindən çox qiymətli mallarla dolu olan 5 gəmi ilə səyahətdən qayıdır.

Gətirilən qiymətli malların dəyərinə əhəmiyyət verməyən kral I Manuel ekspedisiyanın nəticəsindən narazı idi. Ona görə ki, qoyulan məqsədə nail olunmamışdı. Bütün bunlara baxmayaraq ekspedisiyaya qoyulan xərc iki dəfədən çox gəlir gətirmişdi.

XVI əsrdə Avropada tərtib olunan xəritələrdə Kabral tərəfindən aşkarlanan torpaq gah **"Terra Brasilis",** gah da **"Santa Kruz do Brasil"** adlandırılırdı. Xalq arasında isə ora başqa cür də adlandırılırdı – **"Tutuquşular ölkəsi"** və ya **"Braziliya torpağı".**

Kabral saraydan kənarlaşdırılır və 1502-ci ildə təşkil olunan növbəti ekspedisiyanın komandoru yenidən Vasko da Qama təyin olunur, Kabrala ikinci kapitan vəzifəsi verilsə də o, həmin səyahətdə iştirak etməkdən boyun qaçırır.

Tamamilə gözdən düşən keçmiş komandor 1509-cu ildə Beyra-Bayşa vilayətinə gedir və ömrünün sonuna kimi orada qalır. Lakin gec də olsa I Manuel 1515-ci ildə, **“Vera Kruz”** torpaqlarını “kəşf” etdiyi üçün Kabrala illik məvacib ayırır. Hamıdan təcrid olunan və sakit həyat tərzi sürən keçmiş komandor 1526-cı ildə vəfat edir və bir səyahətə dörd qitənin sahillərində - Avropa, Cənubi Amerika, Afrika və Asiyada olmuş onu “İgreja da Graca” adlı qotik kilsənin ümumi qəbristanlığında dəfn edirlər. Onun yaşadığı bağdan nadir ağac növü tapılır. Həmin ağaclar, qırmızı-bənövşəyi boya əldə etmək üçün xam-mal kimi Avropaya gətirilməyə başlayır və onun adı (pau-brasil) ilə bütün ərazi Braziliya adlandırılır.

XIX əsrdə tapılan sadə qəbir daşından müəyyən etmək olur ki, XVI əsrdə “Böyük kəşfin” sahibin şəxsiy-yətinə o qədər də önəm vermirdilər. Əksinə həyat yol-daşını İzabell Kaştrunun qəbr daşının üstündəki yazıda, onun Portuqal kralı III Juanın qızlarının birinin kame-ristka olması bildirilir.




***Pedru Kabralın səyahətinin marşrutu (1500-1501)***

1848-ci ildə braziliyalı tarixçi Fransisko Adolfo Varnhagen uzun müddət baxımsız qalan Pedru Kabralın qəbrini identifikasiya edir. 1968-ci ildə Braziliya və Portuqaliya tamtəraqla Kabralın anadan olmasının 500 ilini qeyd edir. Braziliya kimi qiymətli xəzinəni Portuqal taxt-tacına bəxş etdiyinə görə Kabralın xatirəsini əbədiləşdirmək üçün həm Lissabonda, həm də Rio-de-Janeyroda ona heykəl qoyublar. Maraqlıdır Braziliyanı əsl aşkarlayan adamın adı bəlli olandan sonra ona da həmin ölkələrdə heykəl ucaldacaqlar, ya yox? Mənim əminəm ki, yaxın gələcəkdə həqiqət bütün bəşəriyyət qarşısında acıqlanacaq.

XVI əsr başlayana qədər bir neçə dünya miqyaslı kəşflər vardısa, onların hər birisi ayrı-ayrılıqda dünya ictimaiyyətində müəmma doğurur. Öz varisləri üçün böyük bir qitəni əldə etmək istəyən Xristofor Kolumb Seviliyanın Kafedral məbədində uyuyur, “İgreja da Graca” qəbristanlığında dəfn olunan sirr gizlətməkdə kral I Manuelə sadiqliyini nümayiş etdirən Pedro Alvareş Kabral, böyük ambisiyalarla yaşamış və hiyləgər fəndləri ilə dünya ictimaiyyətini aldatmış Ameriqo Vespuççi və böyük kəşfi daxilində dövlət maraqları naminə qurban edən Duarti Paşeku Pireyra Lissabonda şəhər qəbristanlığında adi vətəndaşlar kimi dəfn edilmiş və heç bir

şübhə doğurmadan əsl həqiqəti gizlətməyə çalışıblar. Bununla onlar, daha doğrusu portuqal monarxları nəyə nail olmaq istəyiblər? Arada silahlı münaqişə baş verməsin deyə, ispanları uşaq kimi aldatmaq? Onlar demək olar ki, buna nail ola bilmişdilər. Faktiki olaraq Vatikanda Müqəddəs Pyotrun taxt-tacında əyləşmiş müqəddəs ataların vasitəsilə portuqallar ispanları aldatmağa müvəffəq olmuşdular. Özü də bunu elə həyata keçirmişdilər ki, heç kimi ruhu da incimir.

Əlbəttə, ən yaxşı üsul hər şeyi səhlənkarlığın boynuna yıxmaqdır. Necə ki, bunu 1500-cü ildə Pedro Kabral edir və istər-istəməz Braziliya kimi nəhəng ərazini Portuqaliya taxt-tacının mülkünə qatır. Xristofor Kolumbun birinci səyahətindən sonra eyforiya içərisində olan sadəlövh ispanlar, hələ XV əsrin sonlarında uydurulan belə bir cəfəngiyyata inanmağa məcbur olmuşdular. Onlar Karib dənizi akvatoriyasında yerləşən əraziləri Braziliyadan üstün tutdular.

## Əldə olunan nəticələr

**1.** Hər şeyi ardıcıllıqla araşdıranda bəlli olur ki, Pedru Kabralın kəşfində çoxlu qaranlıq məqmalar var. Ekspedisiya Yaşıl Burun adalarından sonra ekvator xəttini keçən kimi qərb istiqamətində hərəkəti davam etdirib, aprelin 22-də $17^0$ c. en dairəsində Braziliya sahillərinə yan alır. San-Nikolau adası təxminən $24^0$ qərb uzunluğunda, Braziliyanın Korumban burnu isə $39^0$ qərb uzunluğunda yerləşir. Belə başa düşmək olar ki, eskadra yolda olarkən, cənub ilə hərəkət etdiyi xəttdən $15^0$ qərbə doğru uzaqlaşır. Bu isə təxminən 1600 km. məsafə edir.

Pedru Kabralın təsadüf nəticəsində "kəşf" etdiyi Korumban burnu qərbdə $17^0$ c. en dairəsində yerləşir. Belə çıxır ki, ekspedisiya əsas marşrutdan yayınaraq 1600 km. yanlış istiqamətdə üzübdür, lakin belə bir səhvin baş verməsi təcrübəli heyətlə inandırıcı görünmür. Ona görə ki, kompas olduğu halda bu qədər məsafəni azmış şəkildə qət etmək absurd sayılır. Bundan belə nəticə çıxarmaq olar ki, portuqallar yolda azmamış və bilərəkdən əvvəlcədən müəyyən edilmiş kursla Braziliya sahillərinə gedərək, həmin "kəşfi" həyata keçirmişdilər.

Yuxarıda qeyd edildiyi kimi həmin ekspedisiyada Bartolomeu Diaş, Dioqu Diaş, Duarti, Paşeku Pireyra kimi təcrübəli komandor və kapitanlar iştirak edirdi və həmin dənizçilər şəxsi təcrübələrini genişləndirmək üçün hər gün qət etdikləri yolu öz gündəliklərində qeyd edir, hansı kursla hərəkət etdiklərini diqqətlə izləyirdilər. Heç kim də bilməsə, məhz onlar ekspedisiyanın əsas kursdan yayındığını hiss etməli və bu haqda Pedru Kabrala məlumat verməliydilər. Ekspedisiyanın gedişatı onu göstərir ki, komandoru belə bir səhv qane etmiş və o, okean keçidi zamanı marşrut kursunu köməkçilərinə həvalə etmişdi.

Əlavə etmək olar ki, hava əlverişli olan zaman mütəmadi olaraq, səyyahların ən böyük dənizçilik silahı olan qladştok vasitəsi ilə üzdükləri coğrafi enliyi müəyyənləşdirmək mümkündür. Belə olan halda onlar yolda necə aza bilərdilər? deməli, onlar əvvəlcədən müəyyənləşdirilmiş kursla hərəkət etmiş və istədiklərinə nail olmuşdular.

2. Maraqlı odur ki, portuqallar sahilə çıxandan sonra, həmin ərazinin onların krallığına məxsus olduğunu bildirən əlamət olan daş padran yox, taxtadan düzəldilmiş böyük xaç qoyurlar. Bu nədir, növbəti səhlənkarlıq, yoxsa kəşf etdikləri ərazinin xüsusi önəm daşımamasıdır?

Halbuki hər hansı bir dəniz səyyahı belə bir qeyri-adi kəşfə ciddi yanaşmalı idi. Ona görə ki, portuqallar on illər idi Atlantikanın bu hissəsində torpaq ərazisi axtarırdılar və qəribə olsa da bu xoşbəxtliyə nail ola bilmirdilər. Lakin birdən-birə Kabralın başına səadət quşu qonur o, isə belə bir “kəşfə” biganəlik göstərir.

Məlumdur ki, Braziliya kəşf edildikdən düz 10 gün sonra ekspedisiyanın rəhbəri Qaspar de Lemuşu gəmisi ilə birlikdə, yazdığı məktubla Portuqaliyaya yola salır. Bu o vaxt edilirdi ki, kəşf edilən coğrafi məntəqə xüsusi əhəmiyyət kəsb edirsə, onda həmin məlumat tələsik halda lazımi yerə çatdırılmalıydı. Deməli, Braziliyanın kəşfi əvvəlcədən nəzərdə tutulmuş və bu haqda dünya ictimaiyyəti xəbərdar olmalıydı.

3. Tordesilyas müqaviləsindən sonra ispan monarxları mütəmadi olaraq Cənubi Amerikanın, xüsusən də Braziliyanın sahillərinə ekspedisiyalar göndərməyə başladılar. Visente Pinson $8^0$, Diyeqo Lepe $10^0$, $5^0$ $30^/$, Bartolome Roldan $5^0$ $30^/$, Alonso de Mendosa isə təxminən $7^0$ c.en dairəsində sahilə çıxıb, orada tədqiqat işləri aparmışdılar. Visente Pinson, Diyeqo Lepe, Pedro Alonso Ninyo, Alonso Oxeda sahilə yan alan kimi şimal-qərb, Bartolome Roldan, Alonso de Mendosa isə cənub-qərb istiqamətində Braziliya sahillərini tədqiq etmişdilər. Hətta onlar-

dan biri Pedro Alonso Ninyo demarkasion xətdən qərb tərəfə çıxıb həmin ərazilərin tədqiqi ilə məşğul olmuşdu.

Visente Pinsonun ekspedisiyasında iştirak edən Ameriqo Vespuççi $5^0$-$6^0$ c.en dairəsində Braziliya sahillərinə yan alır və oradan cənub istiqamətində hərəkət edir. Onun missiyasına Braziliyanın cənub sahillərinin hara kimi uzandığını müəyyənləşdirmək idi. Lakin o, da həmin missiyanın öhdəsindən gələ bilmir. Sanki onların hər birinə ayrı-ayrılıqda xüsusi tapşırıq verilmişdi ki, oranın hər bir qarış torpağı ispanların diqqətindən yayınmasın.

İspanların əsas məqsədi ondan ibarət idi ki, portuqalların rəsmi şəkildə özləri üçün müəyyənləşdirdikləri demarkasion xəttin üzərində torpaq ərazisi var, ya yoxdur? Kəşfiyyat ekspedisiyaları həmin akvatoriyaya göndəriləndən sonra ispanlar başa düşürlər ki, portuqallar onları aldadıblar. Lakin aldatmanın miqyası dəqiq müəyyən olmadığından ispanlar elə bir ciddi etiraz bildirmədilər.

Hazırda onları yalnız bircə şey maraqlandırırdı, Tordesilyas müqaviləsinə əsasən, portuqalların əldə etdikləri ərazi nə boydadır və hansı enliklərdə yerləşir? Paralellər arasındakı məsafə hesablananda onların həddindən artıq böyük əraziyə malik olduqları üzə çıxır. Deməli, belə çıxır ki, portuqal dəniz səyyahları heç bir əziyyət çəkmə-

dən həddindən artıq böyük əraziyə sahib çıxmışdılar. Axı, onlar ikinci bölgü zamanı demarkasion xəttin birdən-birə 270 liq artırmağa müvəffəq olmuş və indiki Braziliya boyda iri bir ərazini ispanların əlindən ala bilmişlər. Əgər, elədirsə, onda portuqallar 1494-cü il müqaviləsinə qədər Braziliyanın mövcudluğundan xəbərdar imişlər.

4. Məlumdur ki, Kolumb ilk olaraq öz layihəsini Lissabonun **"Riyaziyyatçılar Xuntası"**na təqdim edir, onlar isə genuyalı dənizіyə yox cavabı verirlər. Lakin Atlantik okeanın qərbində torpaq axtarılması gözlənilmədən fələməngli dənizçi Ferdinand van Olmenə tapşırılır. O, birbaşa kral II Juanın tapşırığı ilə səyahətə yollanmış və Kolumbun layihəsini praktiki cəhətcə yoxlamalıydı. 1487-ci ilin yaz fəsilində van Olmen iki karavella ilə səyahətə başlayır. O, Atlantik okeanını 40 gün müddətinə qət edəcəyini nəzərdə tutur. Xatırlatmaq istəyirəm ki, 1492-ci ildə Kanar adalarından Baham adalarına kimi olan məsafəni Kolumb 36 gün (genuyalı dənizçi bildirmişdi ki, o, istədiyi sahilə 30 günə çatacaq) müddətinə qət etmişdi. Bu ondan xəbər verir ki, portuqallar Kolumbu məlumatlandırmadan məhz onun layihəsi ilə səyahətə yollanaraq, istədikləri torpaqları aşkarlamaq fik-

irində olmuşdular. Lakin kifayət qədər hazırlıqlı olmadıqları üçün onlar həmin işin öhdəsindən gələ bilmədilər.



Hələ 1462-ci ildə kral V Alfons Voqado adlı bir kəsi Atlantik okeanın qərb hissəsində yerləşən naməlum ada-

ları kəşf etmək üçün ekspedisiya başında həmin səmtə göndərmişdi. Telles adlı digər dənizçi okeanın qərb hissəsində Antiliyanı və yaxud da **"Yeddi şəhər adası"**nı axtarmışdı. Bir çoxları onların ardınca səyahətə yollanır, amma heç kim müvəffəqiyyət əldə edə bilmir.

Bütün bunları nəzərə alaraq mən belə bir nəticəyə gəldim ki, 1493-cü ilə qədər portuqallar Braziliya sahillərinin mövcudluğundan xəbərsiz olublar. Əgər, onlar Cənubi Amerikanın sahillərində olmuşdularsa, onda 1494-cü ildə Tordesilyasda bağlanan müqavilə zamanı II Juanın nümayəndələri demarkasion xəttin Yaşıl Burun adalarından qərbə tərəf 370 liq yox, Xristofor Kolumbun kəşf etdiyi Antil adalarına kimi 470 liq çəkilməsini tələb edərdilər. Deməli, portuqallar Atlantik okeanında Kanar, Madeyra, Azör və Yaşıl Burun adalardan qərbdə hər hansı bir adanın və ya iri torpaq ərazisinin mövcudluğundan xəbərsiz idilər.

5. Portuqalların uğursuzluğu ondan ibarət idi ki, onlar Paolo Toskanellinin hesabatlarını rəhbər tutaraq səyahətə yollanmışdılar. Kolumb isə alimin ortaya qoyduğu Yer kürəsi çevrəsinin uzunluğunun ölçüsü ilə razılaşa bilmirdi. Genuyalı dənizçi Toskanellinin fikirləşdiyi kimi Asiya qitəsinin Kanar adalarından 10000-12000 km. kənarda qərb istiqamətində yerləşdiyinə şübhə ilə yanaşmış və

fərdi şəkildə hesablamalar aparmışdı ki, Atlantik okeanının qərb hissəsində yerləşən quru ərazi Avropadan təxminən 4500-5000 km. aralıdadır. Belə çıxır ki, həmin torpaq Köhnə Dünyaya bəlli olmayan, tamamilə başqa bir torpaqdır. Lakin Atlantikanın qərb hissəsində bir neçə ekspedisiyanın köməyi ilə tədqiqat işini aparan portuqallar, sonda əmin olmuşdular ki, okeanın həmin hissəsində heç bir torpaq ərazisi yoxdur.

6. Bir çox alimlər iddia edirlər ki, Xristofor Kolumba qədər bir neçə dənizçi Amerika sahillərində, o cümlədən Braziliyada olmuşdular. Alonso Sançes de Uelva, Jan Kuzen, Martin Behaym və başqaları adı çəkilən sahillərdə üzəndən sonra, həmin torpaqların varlığı barəsində məlumatlar yaymışdılar. Deyilənə görə Uelva ilə olan görüşdən və Paolo Toskanellinin 1474-cü ildə tərtib etdiyi xəritədən sonra, Kolumb özünün məşhur transatlantik layihəsini tərtib etmişdir. Lakin mən başqa fikirdəyəm və uzunmüddətli tədqiqatlardan sonra bildirmək istəyirəm ki, o, yola düşməmişdən əvvəl Nəsirəddin Tusinin tərtib etdiyi **"Zic Elxani"** astronomik kataloqun köməyi ilə öz layihəsini hazırlamışdı. Bəs, Kolumbun Braziliya sahillərinə nə aidiyyatı var?

İş ondadır ki, məhz onun birinci səyahətindən sonra portuqallar tələsik halda məxfi şəkildə ekspedisiya təşkil

etmiş və qısa müddət ərzində Pedro Kabrala qədər Braziliyanın harada yerləşdiyini müəyyənləşdirə bilmişdilər.

Lakin bəzi tarixçilər Alkasovasdakı bağlanan müqaviləni əsas tutaraq bəyan edirlər ki, guya portuqal dəniz səyyahları 1479-cu ilə kimi 28-ci paraleldən aşağıda və Atlantik okeanının qərb hissəsində yerləşən torpaqları kəşf etmiş, sadəcə olaraq onu hüquqi cəhətcən rəsmiləşdirirlər. Deməli, papa IV Sikstin bullası ilə yuridik olaraq həmin ərazilər Portuqaliyanın tabeliyinə keçir. Əgər, elə olsaydı, onda illər, əsrlər keçəndən sonra həmin səyyahın adı dünya ictimaiyyətinə bəlli olardı.

7. Tarixi qaynaqlarda göstərilir ki, başqa səyyahlarla yanaşı Duarti Paşeku Pireyra Atlantikanın o biri tayındakı torpaqlarda olubdur. Bu bir qədər inandırıcı görünə bilər. Ona görə ki, Kabrala Hindistana gedən zaman yolda "Braziliyanın kəşfinin" rəsmiləşdirilməsi tapşırığı verildiyindən, yolda heç bir gözlənilməz hadisələrlə üzləşməsinlər deyə, həmin sahilləri yaxşı tanıyan adam lazım idi. Bu isə Pireyra sayılırdı.

Pireyra ömrünün bir neçə ilini Atlantik okeanın şərq hissəsində, sonra isə orta hissəsində üzərək, həmin akvatoriyada naməlum adaların axtarışı ilə məşğul olmuşdu. Mənim fikrmcə, Pireyra gizli tapşırıq nəticəsində gedib

Braziliya sahillərinə çıxmışdır. Sadəcə dəqiqləşdirmək lazımdır ki, neçənci ildə?

Pireyra bu haqda təxminən 1505-1508-ci illər arasında yazdığı **"Esmeraldo de Sita Orbis" ("Yerin vəziyyəti barəsindəki zümrüd")** əsərində, özünün, Kabraldan hələ 6 il əvvəl Atlantikanın o biri tayında yerləşən torpaqlarda olmasını göstərmişdir. Orijinal sənədlər olmasa da, Pireyranın Kabraldan əvvəl Braziliya sahillərinə yan alması çox inandırıcı səslənir.

8. Roma papalarının dünyanın bölüşdürülməsilə bağlı bullalarını nəzərdən keçirəndə başa düşdüm ki, portuqallar Braziliya sahillərinə məhz 1494-cü ilin əvvəlində gedib çıxıblar.

Xristofor Kolumb Yeni Dünya sahillərinə olan birinci səyahətini 15-i mart 1493-cü ildə başa çatdırır. Bu o deməkdir ki, ispanlar gözləmədikləri halda Atlantik okeanının qərb hissəsində yerləşən torpaq ərazilərinə sahib çıxa bilərlər. İspan monarxlarının təkidi ilə, Yeni Dünya sahillərinin kəşfinin üstündən heç iki ay keçməmiş, Roma papası VI Aleksandrın mayın 4-ü 1493-cü ildə verdiyi **"İnter caetera"** bullası portuqalları şok vəziyyətinə salır. Sənədə əsasən, Azör adalarından 100 liq qərbdə yerləşən bütün ərazilər Kolumbun səyahəti nəticəsində yuridik olaraq ispanların tabeliyinə keçir. Belə bir bölgü

ilə razılaşmaq, portuqalların atlantikadakı fəaliyyətini minimuma endirirdi.



***Xristofor Kolumb ölüm yatağında***

Kral II Juan boş-boşuna vaxt itirmək fikirində deyildi. İspanların xəbəri olmadan məxfi ekspedisiyanın hazırlanmasına start verilir. 1493-cü ili başa vurmamış portuqalların ekspedisiyası səyahətə çıxmalı idi.

İlkin vaxt həmin bölgüyə münasibət bəsləmək istəməyən Portuqaliya bir ildən sonra öz narazılığını bildirir və təzyiq nəticəsində Roma papasından demarkasion xətti daha 270 liq qərb tərəfdə göstərilməsini tələb edir. VI Aleksandrın iştirakı ilə hər iki krallığın nümayəndələri 1494-cü ildə Tordesilyas şəhərində görüşür və iyunun 7-də bağlanan növbəti müqaviləyə əsasən, demarkasion xətt Azör adalarından 370 liq (həmin adalardan 2200 km. qərbə) qərbdə göstərilir. Tordesilyas müqaviləsinə görə demarkasion xəttdən şərq tərəfdəki bütün ərazilər Portuqaliyanın, qərb tərəfdəki ərazilər isə İspaniyanın tabeliyinə keçir.

Tordesilyasdakı müqaviləni ispanlardan çox portuqalların qələbəsi adlandırmaq olar. Ona görə ki, 1493-cü ildə ispanların təklifi ilə demarkasion xətt Azör adalarından 100 liq qərbdə, portuqalların təkidilə Yer kürəsinin iki krallıq arasında bölüşdürülməsini bildirən demarkasion xətt Azör adalarından 370 liq qərbdə müəyyən edilir.

Papa VI Aleksandrın 1493-cü ilin dekabr ayında buraxdığı dördüncü bullası portuqal nümayəndələrini pis vəziyyətdə qoyur, məhz ondan sonra onlar çevik addım atmağı qərara alırlar. Cənubu Amerika sahillərinə ekspedisiya göndərilməsi gündəmə gəlir. Onsuz da onlar,

Kolumbun kəşf etdiyi əraziyə ikinci dəfə yola düşməsindən hali idilər.

9. Qış fəslində Şimal yarımkürəsində səyahətlərdə iştirak etmək təhlükəli olduğundan çox güman ki, 1493-cü ilin dekabrında Pireyra ekvatordan aşağıda Braziliya sahillərinə doğru kurs götürmüşdü. O, istədi-istəmədi güclü və böyük okean çayı ekspedisiyanı nəzərdə tutulan məntəqəyə aparıb çıxarır. Pireyra bir xəritəşünas kimi həmin sahil zolağının konturlarını çəkir, oranın enlik və uzunluq koordinatlarını müəyyənləşdirir. O, artıq vaxt itirmədən geriyə qayıdır.

Elə bu səbəbdən sahil zolağını yoxlamağa imkan tapmayan Pireyra elə zənn edir ki, qarşılaşdığı torpaq ərazisi materik yox, hansısa bir adadır. Axı, Kolumb da birinci səyahətindən geri qayıdan kimi, okeanda çoxsaylı adalar qrupunun kəşf etdiyini bəyan etmişdi.

Çox güman ki, Duarti Pireyra 1494-cü ilin birinci rübündə Lissabona qayıdır. Koordinatlar baxımdan mən bir neçə variantı nəzərdən keçirəndə belə bir nəticəyə gəldim ki, Pireyra təxminən indiki San-Luis və Belen şəhərləri ərazisində $1^0$ c. en dairəsi və $42^0$-$43^0$ qərb uzunluğunda sahilə çıxmışdı. San-Luisin yerləşdiyi quru torpaq yarmadada yerləşdiyindən o, adalar qrupu ilə üzləşdiyini zənn edir.

Mənim fərziyyəmə görə Pireyra özü üçün tanış olan Qvineya sahllərinə yaxın bir yerdə Cənubi-Passat cərəyanının vasitəsilə qərbə yola düşür və Cənubi Amerika materikinin astanasında, iki yerə bölünən Qviana və Braziliya cərəyanları ilə rastlaşır. Şimala doğru üz tutan Qviana cərəyanı Pireney yarımadasının yerləşdiyi enliklərə qalxdığından o, həmin cərəyanı seçir və təxminən $1^0$ c. en dairəsinə kimi yol qət edir. Həm də vaxt itirməmk baxımdan oradan Avropaya qayıtmaq daha münasib idi.

Portuqallar Braziliya sahillərini kəşf etməklə istədiklərinə nail olurlar. Lakin onlar ağıllarına belə gətirə bilməzdilər ki, aşkarladıqları torpaq materikdir.

Artıq 6 ildən sonra Pedru Kabralın başçılığı altındakı ekspedisiya Yaşıl Burun adalarından üzü cənuba doğru hərəkət edəndə, onlar birbaşa Cənubi-Passat cərəyanının köməyi ilə qərbə doğru üz tutmuş, lakin materikə yaxınlaşanda bu dəfə şimala doğru yox, cənub istiqamətində hərəkət edən Braziliya cərəyanının suları ilə sahil zolağına yaxınlaşmışdılar. Həmin səyahət zamanı portuqalları bircə şey maraqlandırırdı, Afrika ilə əks tərəfdə yerləşən torpaq ərazisi nə irilikdədir? Bütün bunlara baxmayaraq, ispanlara nisbətən onlar hələ də dərk etmirdi-lər ki, yan aldıqları sahil zolağı böyük materikə məxsusdur. Ona görə ki, onlar həmin ərazini kifayət qədər tədqiq

etmədiklərindən bu faktı müəyyənləşdirə bilməmişdilər. İspanlar isə Amazonka çayının mənsəbini kəşf edəndən sonra anlamışdılar ki, Tordesilyas müqaviləsinə əsasən təyin edilmiş demarkasion xətdən şərq tərəfdə qalan ərazi materikdir. Onların fikirincə, Amazonka kimi elə bir bol sulu çay yalnız materik boyda ərazidən keçə bilər.

Bir sözlə, Duarti Pireyranın sayəsində Portuqaliya krallığı nəhəng bir əraziyə sahib olur. Halbuki həmin ekspedisiya əvvəlki səyahətlər kimi uğursuzluqla nəticələnsəydi, onlar Atlantik okeanında kəşf etdikləri adalarla kifayətlənməliydilər.

10. Lazımi məlumatlara malik olan portuqallar, 1494-cü ildə Tordesilyasda guya Braziliyanın varlığından bixəbər kimi ədalətli bölgü olsun deyə, demarkasion xəttin $50^0$ qərb uzunluğuna qədər çəkilməsini tələb edirlər.

Pireyranın ekspedisiyanın səyahət zamanı əldə etdiyi nəticələrdən xeyli razı olan kral II Juan növbəti danışıqlar üçün öz diplomatlarını təlimatlandırmışdı.

Roma papasının iştirakı ilə ispanlarla danışıqlar elə aparılmalıydı ki, portuqallar heç kimi şübhələndirmədən ədalətli bölgü kimi demarkasion xəttin Azör adalarından 100 liq yox, 370 liq qərb istiqmətində keçirilməsinə nail olmalıydılar. Bu xətt Kolumbun kəşf etdiyi torpaqlardan xeyli sağ tərəfdə, üzü Avropaya yaxın bir yerdə yerlə-

şirdi. Kolumbun birinci səyahəti zamanı baş verən kəşfin nəticələri portuqal nümayəndələrinə xeyir verir. İş ondadır ki, genuyalı admiralın kəşf etdiyi adalar $65^0$-$70^0$ qərb uzunluğunda, Pireyranın sahilə yan aldığı ərazi $42^0$-$43^0$ uzunluğunda yerləşirdi. Əldə olunan kəşflərin arasında $25^0$-$30^0$-lik bufer zonası əmələ gəlirdi və portuqallar bunu əsas tutaraq əmin idilər ki, ispanlar demarkasion xəttin $50^0$ qərb uzunluğuna qədər çəkilməsinə heç bir etiraz bildirməyəcəklər.

7-i iyun 1494-cü ildə Tordesilyas müqaviləsi bağlanır. Məlum olduğu kimi həm şimal və cənubu, həm də şərq və qərbi bildirən demarkasion xətt Azör adalarından 370 liq qərbə, $46^0$ $30^/$ çəkilir və Braziliya avtomatik olaraq Portuqal taxt-tacının mülkiyyətinə çevrilir. İndiki Braziliyanın ucqar qərb hissəsindən başqa Amerika qitəsi bütünlüklə ispan krallarının tabeliyinə keçir. Lakin buna baxmayaraq, bu ispanların tam qələbəsi sayılmırdı. Bununla da, Yeni Dünya sahillərinin siyasi coğrafiyası yaranır və bu da Roma papasının möhürü ilə möhkəmlənir.

Beləliklə, portuqallar Roma papası VI Aleksandr Borcianın vasitəsilə ispanlara kələk gələrək, Braziliya ölkəsinin əldə edilməsinə nail oldular. Belə bir ədalətsiz bölgü ispanların haqlı zəhmətlərinin üstündən xətt çəkir-

di. Ona görə ki, rəsmi olaraq ilk dəfə Braziliya sahillərinə ispan dəniz səyyahları – Visente Pinson və Diyeqo Lepe qədəm qoymuşdular. Lakin onlara nisbətən Pireyra bu məsələdə böyük dönüş yaratmışdı. Kral II Juana hava-su kimi lazım olan torpaq aşkarlanan kimi təcrübəli kapitan, ispanlarla növbəti danışıqlara başlanmamışdan əvvəl özünü Avropaya çatdıra bilmişdi. Bu azmış kimi o, Tordesilyas danışıqlarında bilavasitə iştirak etmiş və Roma papasının vasitəsilə ispanların aldadılmasında mühüm rol oynamışdır. Bundan əlavə Pireyra Portuqal kralına öz sədaqətini nümayiş etdirərək, ölənə qədər həmin sirri daxilində saxlamağa məcbur olmuşdu.

Bu məsələdə portuqallar Kabraldan çox Pireyraya minnətdar olmalıdırlar. Məhz onun səyahətindən sonra Braziliya sahillərinin hansı uzunluqda yerləşdiyi bəlli olur və Portuqal krallığı Braziliya kimi böyük bir tikəni ispanların əlindən almağa müvəffəq olurlar.

## Rəy

**"Braziliyanın müəmmalı kəşfi"** əsəri bəşəriyyətin Böyük coğrafi kəşflər dövrünün (XV-XVII əsrlər) əvvəlinə - çox maraqlı, ziddiyyətli, qaranlıq məqamları ilə dolu olan zaman kəsiyinə həsr olunub. O vaxt böyük dəniz dövlətləri (İspaniya, Portuqaliya, Hollandiya, Fransa, İngiltərə və s.) arasında Atlantik və Hind okeanlarında hegemonluq uğrunda çox gərgin mübarizə gedirdi. Demək olar ki, Yerin bütün hissələrinə tez-tez ekspedisiyalar bir məqsədlə göndərilirdi: rəqib ölkələri qabaqlamaq və yeni torpaq və əraziləri kəşf etməyə çalışırdılar.

Amerikanın və Afrikaya dəniz yolunun kəşfi, yeni torpaqların müstəmləkələşdirilməsi, xammal və əmtəə mübadiləsinin getdikcə artması bütövlükdə ticarətin, dənizçiliyin, manufakturan inkişafına təkan verərək metropoliyaların varlanmasına şərait yaradırdı. Buna görə Hindistanın və Çinin zəngin sərvətləri avropalıları çox cəlb edirdi.

Məlumdur ki, antik və orta əsr dövrlərinin elmləri arasında əlaqə var: orta əsr antik coğrafi biliklərə əsaslanır. Orta əsrlərdə dini təsəvvürlərdə də Dünya okeanı konsep-

siyası əsasında bütün okean və dənizlərin bir-biri ilə əlaqəli olması fikri qəbul edilmişdir.

Erkən və Orta əsrlər (IX-XVI ə.) əslində elmin tənəzzülü, dini təsəvvürlərin hakim mövqe tutması dövrüdür. Bununla belə, bu mərhələdə də səyahətlər nəticəsində coğrafi kəşflər və biliklərin toplanması davam edirdi, səyyahların və alimlərin səyləri nəticəsində onlara məlum ərazilərin coğrafi təsvirlərini, sxem və xəritələrini yaratmaq mümkün olmuşdur. Yeni davamlı gəmilər hazırlanması ilə yanaşı, dəniz xəritələrinin tərtibi və gəmiçilik cihazlarının (səma qlobusu, astrolyabiya, qladştok, kompas və s.) kəşfi dənizçilərə daha uzaq ərazilərə səyahət təşkil etməyə imkanlar verirdi.

Orta əsrlərdə elmin inkişafına yunan alimi Klavdi Ptolemey (II ə.) böyük təsir göstərmişdir. Səkkiz kitabdan ibarət **"Coğrafiya"** əsərində Ptolomey coğrafiyanın öyrəndiyi sahələri gösərmiş, xəritə tərtib edilməsi üsullarını, onun üçün kartoqrafik proyeksiyaları vermiş, coğrafiyanın xəritəşünaslıq və ölkəşünaslıq kimi iki sahədən ibarət olmasını qeyd etmişdir. Onun digər kitablarında 8 minə qədər məntəqə və ərazilərin koordinatları, 27 xəritə əlavə verilmişdir. Onlardan biri bütün məlum ərazilərin xəritəsidir. Ptolemeyin xəritəsində Eratosfenin xəritəsinə nisbətən Afrika və Asiyada daha geniş ərazilər, onların

sahilləri isə daha dəqiq təsvir olunur. Yerin əyriliyi nəzərə alınır, dərəcə toru çəkilir.

Orta əsrlərdə ərəb ölkələrində coğrafiya inkişaf edirdi, səyahətlər nəticəsində müxtəlif ölkələr haqqında zəngin məlumatlar toplanırdı. Bu səyyahlardan VII əsrdə yaşamış Übeyd İbn Şərqiyyəni, IX-X əsrlərdə yaşamış İbn Ruslanı, Əl-Məsudini, XIV əsrdə ortalarında yaşamış İbn-Bəttutəni qeyd etmək olar. Ərəb səyyahı Əl-Məsudi X əsrdə Ön Asiyanın, Mərkəzi Asiyanın, Qafqazın, Şərqi Afrikanın, İndoneziyanın, Çinin təbiəti, tarixi və xalqları haqqında əsər yazmışdır. O inanırdı ki, Hind və Atlantik okeanları arasında əlaqə mövcuddur. Mərakeşli İbn-Bəttutə Böyük Səhranı iki dəfə keçmiş, Afrikanın şərq sahillərində olmuş, Volqa çayı boyu Bulqar şəhərinə qədər getmişdir. Bundan sonra Bəttutə Ön Asiyada, Mərkəzi Asiyada, Hindistanda, Hind-Çində və Çində olmuşdur. 1498-ci ildə Vasko da Qama bu ərazilərə gələrkən ərəblər Hindistan, Hind-Çin ölkələri və Çin ilə geniş ticarət əlaqələrinə malik olmuşlar.

1271-1292-ci illərdə Çin, Hindistan və Hind-Çində olan Marko Polo bu ərazilər haqqında Avropaya ilk dəfə məlumatlar gətirmişdir. Bu ölkələrdə zəngin təbii sərvətlər, xüsusilə ədviyyat olması barədə səyyah öz kitabında yazır. Venetsiyalı Konti Nikolo da bu dövrdə (1424-

1444) Hindistan, Hind-Çin, İndoneziya, Seylonda olmuş, bu ölkələr haqqında zəngin məlumatlar vermişdir.

XV əsrin ikinci yarısında (1466-1471) Hindistana səyahət edən rus taciri Afanasi Nikitin bu təsəvvürləri daha da genişləndirdi.

Beləliklə, tarixi mənbələrin öyrənilməsi bir nəticəyə gətirib çıxarır: orta əsrlər dövründə avropalılar əmin idilər ki, Avropa və Hindistan yaxındırlar, bu səbəbdən Atlantik okeanından keçməklə gəmi səfəri praktiki cəhətdən realdır.

Yuxarıda qeyd olunan səyahətlər onu göstərir ki, artıq XV əsrin ikinci yarısında qərb istiqamətində dəniz yolu ilə Asiyaya gəmi səfəri ideyası tam "yetişmişdir" və artıq həyata keçirmək mərhələsinə çatmışdı. Uzaq şərq ölkələrinin – Hindistan və Çinin tükənməz sərvətləri avropalıları maqnit kimi cəlb edirdi.

XV əsrdə Avropada intibah dövrü başlanmışdır. Bu zaman yeni ərazilərin kəşf edilməsi, öyrənilməsi və zəngin sərvətlər toplanması zərurəti yaranmışdır. Lakin quru yollarla həmin ölkələrə gedib çıxmaq üçün çox vaxt lazım idi və yollar təhlükəli idi. Avropa ölkələri bu dövrdə sürətlə inkişaf edirdilər və güclü dəniz yollarının açılması qarşıda əsas məqsəd kimi dururdu.

Xristofor Kolumb “Yeni Dünya”nı kəşf etmiş böyük dəniz səyyahıdır.

Kolumb Genuyada (İtaliya) anadan olmuş, uzun müddət Portuqaliyada yaşamış, burada evlənmişdi, burada onun oğlu doğulmuşdu, Atlantik okeanda onun ilk səyahətləri məhz Portuqaliyadan baş vermiş, lakin sonra İspaniyanı təmsil edən dənizçi Valyadolid şəhərində (İspaniya) vəfat etmişdir.

Genuyalının Transatlantik proyektini Portuqaliya qəbul etməyəndən sonra, dəniz səyyahı həmin proyekti İspaniyaya təklif etmiş və İspaniyanın razılığını ala bilmişdir. Kolumb Hindistana dəniz yolu axtarmaq üçün daim düşünmüş, Paolo Toskanellinin xəritəsi və məktubuna əsasən yolun çox olmadığını duymuşdur. O, belə nəticəyə gəldi ki, qərbə hərəkət etməklə Şərqi Asiyaya çatmaq olar.

Xristofor Kolumb Yerin kürə formasında olması fikrinə əsaslanaraq 1492-ci il avqustun 3-də Palos (indiki Uelva) limanından Hindistana dəniz yolunu açmaq üçün qərbə doğru üzməyə başladı. 12 oktyabr 1492-ci ildə onun ekspedisiyası Baham adalarına çatdı. Həmin gün Amerikanın kəşf olunduğu vaxt hesab edilir. Kəşf edilən ərazilərin Hindistan olduğunu fərz edən Kolumb yerli əhalini hindular, əraziləri isə Vest-Hind (Qərbi Hindis-

tan) adlandırmışdır. Səyahət nəticəsində Atlantik okeanda Şimal Passat cərəyanı, Sarqass dənizi, Böyük Antil və Kiçik Antil adaları kəşf olundu.

1493-cü ilin martın 16-da Kolumb qalb kimi İspaniyaya qayıdır. Bir-biriləri ilə rəqabət aparan İspaniya və Portuqaliya arasında yeni gərginlik yaranır: İspaniyanın bir ekspedisiyası portuqalların yarım əsrlik səylərinin üstündən xətt çəkirdi. Bütün təşəbbüslərə, şöhrət gətirmiş çoxlu kəşflərə baxmayaraq ən başlıca məqsəd – Hindistan – portuqalların öz təqsiri üzündən sıyrılıb əldən çıxırdı. Bu azmış kimi, İspaniya öz qələbəsini təsbit etmək, yeni torpaqları kəşf etmək üçün növbəti ekspedisiyanı təşkil etməyə çalışırdı.

Xristofor Kolumbun birinci səyahəti sonrakı hadisələrin gedişatına mühüm təsir göstərmiş və portuqallar Braziliya sahillərinə getmək üçün hərəkətə gəlmişdilər. Məhz Kolumbdan səyahətindən sonra portuqal kralı məxfi ekspedisiyanın yola düşməsinə qərar verməli olmuşdu.

Atlantik okeanın qərbində böyük torpaq ərazisinin, adaların mövcudluğu Avropada şübhə doğurmurdu. Lakin maraqlı sual o idi ki, həmin ərazi Avropa sahillərindən neçə kilometr aralıda yerləşir? XV əsrin ortalarında portuqallar Kanar, Madeyra, Azör və Yaşıl Burun

adalarından qərb tərəfə səyahətlər təşkil etmişdilər, amma heç kim (o cümlədən, 1487-ci ildə fələməngli dənizçi Ferdinand van Olmen) müvəffəqiyyət əldə edə bilmir.

Əsərin müəllifi van Olmenin və digər portuqal dənizçilərin uğursuzluqları onların ilin münasib olmayan vaxtında yola düşmələri, zəif hazırlıqlı olmaları və Kolumbdan fərqli olaraq, okeanda passatlardan, cərəyanlardan lazımi şəkildə istifadə etməmələri ilə izah edir.

Nəhayət XV əsrin sonunda portuqallar öz inadkarlıqları ilə fəaliyyətlərinin ikitərəfli (eyni vaxtda həm şərqə, həm qərbə) təşkil olunması hesabına uğursuzluq zolağından çıxırlar. 1498-ci ildə portuqal dəniz səyyahı Vasko da Qama Afrikanın cənubundan keçərək Hindistana dəniz yolunu kəşf etmişdir. Səyahət zamanı Afrikanın böyüklüyü və forması dəqiq müəyyən edilir. Hind okeanının öyrənilməsi nəticəsində onun digər okeanlarla əlaqəsinin olması müəyyən olur.

Yazıçı-tədqiqatçı Ramiz Dəniz hesab edir ki, XV ə. Sonun-da coğrafi kəşflər tarixi yeni avantüra ilə üzləşir. Martın 9-u 1500-ci ildə Pedro Alvareş Kabralın başçılıq etdiyi ekspedi-siya Lissabon limanından Hindistana yola düşür. Kabralın missiyası əsasən Hindistanda Portuqaliyanın təsirini möhkəmlətmək, ticarət əlaqələri yaratmaq-

dan ibarət idi. Aprelin 22-i 1500-ci ildə portuqallar Braziliya sahilini görürlər və bununla da Braziliyanın kəşfi rəsmiləşdirilir. Tarixə isə həmin kəşf "təsadüfən baş verən kəşf" kimi düşür. Braziliyanın flora və faunası hamını heyrətə gətirir, yerli əhali isə portuqallara ağac kəsməkdə köməklik göstərirlər. Sonrakı illərdə portuqallar Braziliyadan "pau-brazil" adlanan qiymətli qırmızı ağac aparmağa başlayırlar (Braziliya sözü də buradandır).

Əsərin müəllifi Ramiz Dənizin fikrincə, Kabralın Atlantik okeanın qərb sahilində aşkarlığı böyük torpaq, təsadüfi kəşf yox, Portuqal krallığının XV əsrdə dünya ictimaiyyətinə təqdim etdiyi ən böyük yalandır. Ona görə ki, ekspedisiyanın hərəkət marşurutuna nəzər yetirəndə aydın başa düşmək olar ki, elə bir heyrətlə, elə bir təcrübəli şturman və kapitanlarla okeanda azıb, kor-korana uzun müddət üzərək minlərlə kilometr məsafəni arxada qoymaq mümkün deyildi.

Yazıçı-tədqiqatçı Ramiz Dəniz qeyd edir ki, bəzən tarix elminin ən tanınmış alimləri, xüsusi əhəmiyyət kəsb edən müəyyən bir coğrafi kəşflə bağlı bir çox məqamları axıra qədər araşdırmadan, həmin kəşfi olduğu kimi qəbul etmiş və o, tarixin səhifələrinə "təsadüf nəticəsində baş

verən kəşf" kimi düşmüşdür. Buna bariz nümunə Braziliyanın "təsadüfi" kəşfidir.

Pedru Kabralın müəmmalı kəşfi ilə bağlı sualların sayı xeylidir. Əsas suallardan biri odur ki, bəlkə Kabral portuqal kralı I Manuelin məxfi tapşırığı ilə həmin səhvə yol varmiş, yəni nəzərdə tutulan kursdan yayınmışdır?

Ramiz Dəniz belə nəticəyə gəlir ki, Kabralın ekspedisiyası, gəmiləri idarə edən peşəkar dənizçilər kral I Manuelin verdiyi məxfi tapşırığı yerinə yetirmişdilər. Yəni, bi ekspedisiyanın heyəti nəyin bahasına olursa olsun, Atlantik okeanın qərb sahillərində yerləşən portuqallara məlum olan, lakin dünya icimaiyyətindən gizlin saxlanılan torpaqların varlığını rəsmiləşdirmək idi.

Tarixi mənbələrdə göstərilir ki, Kabralın ekspedisiyanın iştirakçısı Duarti Pireyra Atlantikanın o biri tayındakı torpaqlarda olubdur. Pireyra gizli tapşırıq nəticəsində 1494-cü ildə ilk dəfə Braziliya sahillərinə gedib çıxmışdır. Yazıçı-tədqiqat-çının araşdırmaları da bunu təsdiqlədi. Deməli, Pireyra Kabraldan 6 il əvvəl Braziliya sahillərinə çatmışdır və ora aparan yolu da tanıyırdı.

Braziliyanın sahillərinə çatan Duarti Pireyra həmin sahil zolağının konturlarını çəkib, oranın koordinatlarını təyin edir. Lakin kralın tapşırığını yerinə yetirməyə tələsən və bu səbəbdən sahil zolağını yoxlamağa imkan

tapmayan Pireyra elə zənn edir ki, qarşılaşdığı torpaq materik yox, hansısa bir adadır. Bu səhvi 6 ildən sonra P. Kabral bir daha təkrarlayır. Portuqallar istədiklərinə nail olurlar, lakin onlar bilmirlər ki, aşkarladıqları torpaq materikdir.

Lazımi məlumatları əldə edən portuqallar, guya Braziliyanın varlığından bixəbər kimi ədalətli olsun deyə, demarkasion xəttin $50^0$ q. uz-na. qədər çəkilməsini tələb edirlər. İspan nümayəndələri əmin idilər ki, qərbdəki torpaqlardan xəbərsiz olan portuqallar Atlantikadan bir qədər artıq su hövzəsinə yiyələnmək istəyirlər. İspanlar artıq münaqişə yaranmasın deyə, heç kimə lazım olmayan okean sularını portuqallara güzəştə getməyə etiraz etmirlər. Burada portuqalların həm bəxti gətirmiş, həm də Kolumbun birinci səyahəti onlara xeyir vermişdi. Belə ki, onun hesabatında $65^0$ və $70^0$ q. uz-dan. şərq tərəfdə yalnız okean suları göstərilirdi.

1494-cü ildə bağlanan Tordesilyas müqaviləsinə görə demarkasion xətti Azor adalarıdan 270 liq qərbə doğru ($46^0$ $30^/$ q.u.) çəkilir və Braziliya avtomatik olaraq portuqal taxt-tacının mülkiyyətinə çevrilir. Beləliklə, portuqallar Roma papası VI Aleksandrın vasitəsilə ispanlara kələk gələrək Braziliyanın əldə edilməsinə nail olurlar.

Əsərin müəllifi düzgün olaraq qeyd edir ki, belə bir ədalətsiz bölgü ispanların haqlı zəhmətlərinin üstündən xətt çəkirdi. Ona görə ki, rəsmi olaraq ilk dəfə Braziliya sahillərinə ispan dəniz səyyahlar – Visente Pinson və Diyeqo Lepe qədəm qoyduqları üçün (1500-cü ilin yanvar-fevral ayları) bu kəşf onların adı ilə bağlanmalıdır.

XV əsrdə təşkil olunan dəniz səyahətlərinin aqibəti və müvəffəqiyyət qazanması bəzi hallarda təsadüfdən asılı olurdu. Məsələn, kral II Juan Kolumbun təklifini qəbul etsəydi, onda Amerikada yerləşmiş keçmiş müstəmləkələrin əksəriyyətində portuqal dilində danışacaqdılar. Yaxud, Amerikanı Portuqaliyanın xidmətində olan F. Van Olmen kəşf edə bilsəydi, onda qərbin tarixi tamamilə başqa cür olardı.

Tarixdə baş vermiş maraqlı təsadüflərdən biri də dörd məşhur səyyahın hər birinin eyni fikir söyləməsidir: X. Kolumb, D. Pireyra, C. Kabot və P. Kabral Amerika sahillərinə çıxanda oranın Şərqi Asiya olduğunu zənn etmişdilər. Səyahətini X.Kolumbdan 5 il sonra (1497-ci ildə) başlamış Con Kabot yeni materik torpağına ondan tez ayaq basmışdır çünki Kolumb Cənubi Amerikanı üçüncü səfərində, yəni, 1498-ci ildə kəfş etmiş, lakin sahilə çatmamışdır.

Əsərin müsbət cəhətlərindən biri də verilmiş illüstrativ (şəkillər, xəritə-sxemlər, xəritə üzərində demarkasion xətti, qədim və yeni xəritələrin, qlobusun təsvirləri və s.). Həmin illüstrasiyalar oxucunun diqqətini cəlb edir və böyük maraq doğurur.

Yazıçı-tədqiqatçı Ramiz Dəniz öz əsərində coğrafi kəşflər tarixinə, dəniz səyahətləri nəticəsində əldə olunmuş biliklərə, böyük səyyahların fəaliyyətinə tənqidi münasibət göstərməklə, həm də elmin, o cümlədən, xəritəşünaslığın inkişafına da toxunur. Əsərdə müəllif Martin Behaymın düzəltdiyi qlobusda (1492) Amerika qitəsinin təsvir olunmadığına aydınlıq gətirir və həmin qlobusun açılmış vəziyyətdə maketinin təsvirini verir.

Florentsiyalı alim Paolo Toskanelli 1474-cü ildə tərtib etdiyi məşhur dünya xəritəsinə görə Avropada böyük şöhrət qazandı. Toskanelli Portuqal kralı V Alfonsa Yerin kürə şəkildə olması və Hindistana qərb yolu ilə getməyin mümkünlüyü-nü bildirmişdi. Yazıçı-tədqiqatçı Ramiz Dəniz öz tədqiqatlarına əsaslanaraq yeni bir fikir söyləyir ki, Kolumb özünün transatlantik layihəsini Toskanellinin tərtib etdiyi xəritəsindən deyil, Nəsirəddin Tusinin tərtib etdiyi **“Zic Elxani”** astronomik kataloqunun köməyi ilə hazırlanmışdı.

XV əsrdə planisfer və portolan adlanan xəritələrdən istifadə edilirdi, İtaliyanın Genuya şəhəri isə o vaxt tanınmış xəritəşünaslıq mərkəzi sayılırdı. Planisfer xəritələri meridian paralelsiz dairəvi şəkildə tərtib olunurdu. Dəniz ticarətinin inkişafı ilə əlaqədər olaraq, kompas xəritələri, yaxud portolan adlanan xüsusi dəniz xəritələri tərtib etməyə başladılıar. Onlarda meridian və paralellər əvəzinə, bir sıra nöqtələrdə cəhətləri göstərən 32 istiqamət (rumb) çəkilirdi. Bu xəritələr kompas vasitəsilə gəminin istiqamətini təyin etmək üçün cızılırdı. Planisfer və portolan xəritələrin bir çox müsbət cəhətlərinə baxmayaraq, məntəqənin, obyektin dəqiq coğrafi koordinatını (enliyi və uzunluğu) təyin etməyə imkan vermirdi. XV əsrdə tərtib olunan xəritələrin başqa qüsurları da olurdu: qurunun sahil xətləri, ölçüləri dəqiq göstərilmirdi, məsələn, H. Martelin xəritəsində (1489) Qərbi Afrika sahillərindən Şərqi Asiya sahilinə qədər uzunluq məsafə $130^0$ əvəzinə $240^0$-dir.

Keçmiş komandor Pedru Kabral 1526-cı ildə vəfat edir, lakin bir səyahətdə dörd qitənin sahillərində - Avropa, Cənubi Amerika, Afrika və Asiyada olmuş dəniz səyyahı kimi tarixə düşür. Kabralın xəritəsini əbədiləşdirmək üçün 1968-ci ildə həm Lissabonda, həm də Rio-de-Janeyroda ona heykəl qoyurlar.

XV əsrin ikinci yarısında İspaniya və Portuqaliya arasında dünyanın bölüşdürülməsi uğrunda gedən mübarizənin nəticəsi kimi həmin dövrün dəniz ekspedisiyalarının bir çoxu məxfi qrif altında verilən tapşırıqları gizli şəkildə yerinə yetirirdilər. Bu səbəbdən coğrafi kəşflər tarixində bəzi mühüm kəşflərin əsl müəlliflərinin adı gizli olaraq açıqlanmırdı. Ona görə də "Braziliyanın müəmmalı kəşfi" əsərində uzun müddət ərzində aparılan tədqiqatlar nəticəsində "Braziliyanı kim kəşf edib?" sualının cavablandırılmasını müsbət qiymətləndirmək lazımdır.

Ramiz Dəniz XV əsrin çox mürəkkəb tarixin, ziddiyyətli hadisələrin bəzi qaranlıq məqamlarına aydınlıq gətirməyə çalışır, məntiqi analiz və tənqidi yanaşma əsasında tarixi mənbələri və xronologiyasını öyrənərək buna nail olur. Böyük coğrafi kəşflər dövrünü (əsasən XV əsr) xronologiyasını, dəniz səyahətlərini öz baxışından keçirərək Ramiz Dəniz yeni fikir və nəticələr təklif edir. O, tarixin olduqca zəngin, mürəkkəb lakin çox maraqlı zaman kəsiyinə cəsarətlə müraciət edir. Tarixi nöqteyi nəzərdən bu zaman kəsiyini informasiya zənginliyi (tarixi şəxsiyyətlər, hadisələr, məşhur alimlər, kəşflər, yeni qitə və ərazilər, dünyanın bölüşdürülməsi, gəmiçiliyin, coğrafiyanın və xəritəşünaslığın inkişafı, alimlə-

rin təzadlı fərziyyələri və s.) demək olar ki, tükənməzdir. Olduqca maraqlı və zəngin tarixi-coğrafi informasiyadan istifadə etməklə tədqiqat əsərinin yazılması bizə arzu olunan təklif kimi görünür.

Bizim fikrimizcə, yazıçı-tədqiqatçı Ramiz Dənizin ***"Brazi-liyanın müəmmalı kəşfi"*** əsəri oxucuların böyük marağına səbəb olacaq uğurlu əsərdir. Müəllifin özünə bundan da böyük uğurlar arzulayırıq!

Ramiz Məmmədov AMEA-nın həqiqi üzvü,
texniki elmlər doktoru, akademik
AMEA-nın akademik Həsən Əliyev adına
Coğrafiya İnstitutunun direktoru.

Şamil Əzizov
AMEA-nın akademik Həsən Əliyev adına
Coğrafiya İnstitutunun "Xəritəçilik
və coğrafiyi informasiya" şöbəsinin müdiri,
coğrafiya elmləri fəlsəfə doktoru.

## Rəy 2

Ramiz Dəniz (Qasımov) ***"Xristofor Kolumb, Nəsirəddin Tusi və Amerika qitəsinin həqiqi kəşfi", "Əsrləri qabaqla-mış alim – Nəsirəddin Tusi", "Braziliyanın müəmmalı kəşfi"*** elmi-tədqiqat əsərlərini yazarkən, heç bir alimin köməyindən istifadə etməyibdir, lakin buna baxmayaraq görkəmli alimlər AMEA-nın həqiqi və müxbir üzvləri həmin tədqiqatlara dair özlərinin rəy və fikirlərini bildiriblər.

Adları çəkilən növbəti əsərlər də coğrafiya, tarix, astronomiya sahəsində çalışan alimlərin heyrətinə səbəb olubdur. Ramiz Dəniz yeni tədqiqat obyektlərini üzə çıxarmaqla, Xristofor Kolumbun Amerikanı kəşf edərkən, Marağa rəsədxanasında Nəsirəddin Tusi tərəfindən hazırlanan ***"Zic Elxani"*** əsərindən istifadə etdiyini sübut etməyə çalışmış və Braziliyanın kəşfində isə bir çox mətləblərə toxunaraq, qətiyyətlə bildirir ki, Pedru Kabraldan hələ 6 il əvvəl digər portuqal dəniz səyyahı Duarti Pireyra, həmin kəşfi həyata keçirmişdir.

Azərbayacan dünya ölkələri arasında iqtisadi, mədəni, siyasi əlaqələri qurmaqla, ölkəmizin dünyaya inteqrasiyası baş verir və həmin ölkələr bizim diyarda baş verən bütün hadisələrə, o cümlədən elm, təhsil, mədəniyyət,

ədəbiyyata olan maraqlarını gizlətmir və belə olan halda Ramiz Dənizin ərsəyə gətirdiyi elmi-tədqiqat əsərləri həm alimlər, həm də coğrafi kəşflər tarixini izləyən sıravi oxucular arasında təşəkkül tapacaq. Ola bilsin ki, onun müzakirələrini dinlə-mək üçün, bir mütəxəssis kimi xaricdə keçirilən elmi konfranslara dəvət edəcəklər. Çünki Ramiz Dəniz öz tədqiqatları ilə yeniliklər gətirməklə, bir çox stereotiplərin üstündən xətt çəkibdir.

Ən əsası isə dünya alimlərinə əyan olacaq ki, coğrafiyanın və coğrafiya tarixin mürəkkəb sayılan erkən və orta əsrlər coğrafi kəşflər tarixi sahəsi Azərbaycanda da tədqiq olunur və həmin zəka sahibləri, növbəti əsərlərin ərsəyə gəlməsini səbirsizliklə Ramiz Dənizdən gözləyəcəklər.

2002-cü ildə "Təhsil" Cəmiyyətində alimlər, təhsil işçiləri və ictimaiyyətin iştirakı ilə dahi Azərbaycan alimi Nəsirəddin Tusinin 800 illik yubileyinə həsr olunmuş *"Nəsirəddin Tusinin elmi xidmətləri və Nəsirəddin Tusi yazıçı-tədqiqatçı Ramiz Qasımov yaradıcılığında"* elmi-praktik konfrans keçirilmişdir. AMEA-nın həqiqi üzvü, akademik Maqsud Əliyev, AMEA-nın həqiqi üzvü, akademik Cəlal Allahverdiyev, AMEA-nın müxbir üzvü, professor Ramiz Məmmədov, AMEA-nın müxbir üzvü, professor Eybali Mehrəliyev, professor Əjdər Ağayev,

pedaqogika elmləri fəlsəfə doktoru Afət Bakıxanova ilə Qənirə Əmircanova tədbirdə çıxış edərək, əsərin mahiyyəti barəsində öz fikirlərini söyləmişdilər.

Konfrans iştirakçılarının müraciətindəki bir abzasda qeyd edilir ki: Gənc yazıçı Ramiz Qasımovun axtarışları və tədqiqatları əsasında mühüm bir məsələ - X. Kolumbun Amerika qitəsini kəşfində N. Tusinin koordinatlar sistemi və xəritəsindən istifadə etməsi barədə dəlilləri böyük maraq doğurur. Atıq müəllif birdəfəlik sübut edib ki, X. Kolumb özünün transatlantik səyahətinə yola düşməmiş əvvəlcədən Tusinin sayəsində Amerika qitəsinin varlığından xəbərdar idi.

***"Braziliyanın müəmmalı kəşfi"*** əsəri isə müəllifin coğrafi kəşflər tarixi sahədə başladığı işin davamı hesab etmək olar və oradakı iddialar, dəlillər həmin sahədə çalışan alimlər üçün əlverişli mənbədir. Çoxsaylı tarixi hadisələrin, xüsusilə zamanın ən tanınmış dəniz səyyahlarının əhəmiyyətli dərəcədə mühüm sayılan dəniz ekspedisiyalarının ardıcıllıqla göstərilməsi, bəzi dəniz səyyahlarının şəxsi ambisiyalarının açıqlanması, Katolik kilsənin prinsiplərini hər şeydən üstün tutan Roma papalarının dünyanın primitiv qaydalarla iki krallıq (İspaniya və Portuqaliya) arasında necə bölüşdürülməsi əsərə xüsusi kalorit verir.

Müəllifin tədqiqatına görə Braziliyanın əsl kəşfi hələ 1494-cü ildə baş veribdir və əminəm ki, belə bir məlumat alimlərin diqqətindən yan ötməyəcək.

Hər il bu mövzularda çıxan əsərlərin miqyasından başa düşmək olar ki, bu məsələ hələ də öz aktuallığını itirmir. İllər ötdükcə ispanlar dəqiq ayır edə bilmirlər ki, Roma papsının iştirakı ilə 1494-cü ildə Tordesilyasda bağlanan müqavilə zamanı portuqallar onları aldadıblar, yoxsa Braziliya kimi nəhəng ərazi təsadüf nəticəsində demarkasion xəttdən şərq tərəfdə qalır. Elə maraqlı budur ki, Ramiz Dəniz məhz bu məsələyə aydınlıq gətirərək, bölgü zamanı portuqal dövlət nümayəndələri Roma papasının vasitəsilə ispanları aldadır və Braziliyaya məhz hiylə yolu ilə yiyələnməsini birdəfəlik sübut etməyə çalışıbdır.

İlk olaraq həmin əsərlə bağlı İspaniyada, Portuqaliyada, Braziliyada və Atlantik okeanı sahilində yerləşən ölkələrdəki alimlər, dəyirmi masa arxasında müzakirələr aparmaq üçün Ramiz Dənizin əsərlərinə reaksiya verəcəklər.

Nuğay Əliyev
texniki elmləri fəlsəfə doktoru,
"Təhsil" Cəmiyyəti İdarə heyətinin sədri

# Ədəbiyyatların siyahısı


1. **Абрамсон, М. Л. Кириллова, А. А. Колесницкий Н. Ф**. и др.; Под ред. Колесницкого Н. Ф. История средних веков: 2-е изд. испр. и доп. Москва, «Просвещение», 1986.

**2. Авадяева Е. Н., Зданович Л. И.** Сто великих мореплавателей. Москва, «Вече», 1999.

**3. Андре М**. Подлинное приключение Христофора Колумба. Пер. с фран. М-Л., Земля и фабрика, 1928

**4. Атлас истории географических открытий и исследований.** М., «Главное управление геодезий и карт», 1959.

**5. Афанасьев. В. Л.** Текст воспроизведен по изданию: Бартоломе де Лас Касас. История Индии. Ленинград, «Наука», 1968.

**6. Бейкер Дж.** История географических открытий и исследований. пер. с англ. М., «Издательство иностранной литературы»., 1950.

**7. Бейклесс Дж**. Америка глазами первооткрывателей. Пер. с англ. М., «Прогресс», 1969.

**8. Блон Жорж.** Атлантический океан.

**9. Верлинден Ч.** Христофор Колумб, Эрнан Кортес. Ростов-на-Дону, «Феникс», 1997.

**10. Вязов Е. И.** Васко да Гама. М., «Географгиз», 1956.

**11. Голант В. Я.** Планету открывали сообща. М., «Наука», 1971.

**12. Гуляев В. И.** Доколумбовые плавания в Амерку: мифы и реальность. Москва, «Международные отношения», 1991.

**13. Гумилевская М. А.** Как открывали мир. Москва, «Д.Л.», 1997.

**14. Daniz R.** Amerigo Vespucci, Martin Waldsemuller – secret bargain. “Lap Lambert Academic Publishing”, Mauritus. 2019.

**15. Daniz R.** Christopher Columbus, Nasiraddin Tusi and real discovery of America. “Lap Lambert Academic Publishing”, Riga. 2019.

**16. Daniz R.** The scientist passed ahead of centuries – Nasiraddin Tusi. “Lap Lambert Academic Publishing”, Mauritus. 2019.

**17. Дитмар А. Б.** От Птолемея до Колумба. М., 1989, С. 230.

**18. Исаченко А. А**. Развитие географических идей. Москва, «Мысль», 1971.

**19. Константинова Н. С.** Путешествие в прошлое. Нави-гационная ошибка или секретная миссия? «Латинская Америка», № 5, М.2000, С.8.

**20. Ле Пти Фюте.** Путеводитель «Бразилия». Москва 1997 г.

**21. Магидович И. П.** История открытия и исследования Центральной и Южной Америки. М., «Мысль», 1965.

**22. Магидович И. П., Магидович В. И.** Очерки по истории географических открытий. I Том. Москва, «Просвещение», 1982.

**23. Магидович И. П., Магидович В. И.** Очерки по истории географических открытий. II Том. Москва, «Просвещение», 1982.

**24. Морисон С. Э.** Христофор Колумб мореплаватель. Перевод с англ. М., «Издательство иностранной литературы». 1958.

**25. Муромов И. А.** Сто великих путешественников. Москва, «Вече», 2000.

**26. Окно в мир.** Путеводитель «Южная Америка». Москва, 1998 г.

**27. Письма Амриго Веспуччи.** Перевод с латиньского и итал. «Издательство иностранной литературы». – В сб. Бригантина – 71. М., «Молодая гвардия», 1971.

**28. Помбу (Роша-Помбу) Ж. Ф.** История Бразилии. Пер. с порт. 7-е изд. М., «Издательство иностранной литературы». 1962.

**29. Путешествия Христофора Колумба.** Дневники, письма, документы, 4-е издание. М., «Географгиз», 1961.

**30. Qasımov R. Ə.** Xristofor Kolumb, Nəsirəddin Tusi və Amerika qitəsinin həqiqi kəşfi. Bakı, “Çaşıoğlu”, 2002.

**31. Голант В. Я.** Планету открывали сообща. М., «Наука», 1971.

**32. Слёзкин Л. Ю.** Земля Святого Креста. Открытие и завоевание Бразилии. М., «Наука». 1970.

**33. Свет Я. М.** Колумб. М., «Молодая гвардия», 1973.

**34. Верлинден Ч.** Покорители Америки. Ростов-на-Дону, «Феникс», 1997.

**35. Вязов Е. И.** Васко да Гама. М., «Географгиз», 1956.

**36. Свет Я. М.** Текст воспроизведен по изданию: Путешествия Христофора Колумба. Москва.

**37. Свет Я. М**. Севильская западня. (Тяжба о Колумбовом наследстве) Москва, «Молодая гвардия», 1969.

**38. Стингл М.** Индейцы без томагавков. Пер. с чешского В. А. Каменской и О. М. Малевича под редакцией Р. В. Кинжалова. Москва. «Прогресс», 1984.

**39. Ханке Х.** Люди, корабли, океаны. Москва, «Прогресс» 1984.

**40. Харт Г.** Морской путь в Индию. 2-е издательство. М., «Географгиз», 1959.

**41. Хауз. Д.** Гринвичское время и открытие долготы. Москва, «Мир», 1983.

**42. Цвейг С.** Собрание сочинений в семи томах. Звездные часы человечества. III том. Москва, «Правда», 1963.

**Mündəricat**

**Ön söz.......................................................................4-10**

**Pedro Alvareş Kabral və Atlantik okeanında hegemonluğunu nümayiş etdirən Portuqal krallığı.....12-24**

**Müəmmalarla dolu olan kəşf..................................24-36**

**Vinsente Yanyes Pinson, Diyeqo Lepe və ya rəsmi olaraq Braziliyanı ilk dəfə kim kəşf edibdir?..............36-50**

**İspanlar birinci olaraq Braziliyanı kəşf ediblər......50-60**

**Martin Behaymın göstərdiyi xidmətlər və Braziliya ilə bağlı olan suallara aydınlıq gətirilməsi.................. 60-77**

**Alonso Sançes de Uelva və Xristofor Kolumb.........78-86**

**Əldə edilən uğur fəlakətlə nəticələnəcəkdi...............86-92**

**Ferdinand Van Olmen və Kolumbun transatlantik layihəsi.....................................................................92-99**

**Atlantikanın qərbində axtarılan torpaqlar….....100-112**

**Duarti Paşeku Pireyra və Braziliyanın qeyri-rəsmi kəşfi..................................................................... 113-120**

**Roma papalarının bullaları və ya dünyanın bölüşdürülməsi........................................................ 120-136**

**Portuqalların Braziliya sahillərinə olan ehtiyat marşrutu.............................................................. 136-150**

**Hindistana gedib çıxan Pedro Kabralın aqibəti..150-158**

**Əldə olunan nəticələr............................................ 159-175**

**Rəy 1.....................................................................176-190**

**Rəy 2.....................................................................191-194**

**Ədəbiyyatların siyahısı......................................... 195-198**

**Ramiz Dəniz**

**Braziliyanın müəmmalı kəşfi**
**kəşfi**

**200 səh.**

**Nəşriyyatın direktoru F. Q. Kərimov**

**Çapa imzalanmışdır: 26.09. 2014**
**Formatı: 60 x 84 1/16**
**Fiziki çap vərəqi: 11,6**
**Tiraj: 500**
**“Nasir” nəşriyyatı**

**Tel: (050) 314 09 37**
**(012) 431 11 00**